# NƏ QƏDƏR Kİ, AZƏRBAYCAN VAR, MƏN DƏ VARAM! Heydər ƏLİYEV

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 103 (10123) 13 iyun 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## İlham Əliyev Vladimir Putini təbrik edib

**Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə**



Hörmətli Vladimir Vladimiroviç!

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və Sizin simanızda bütün rusiyalıları dövlət bayramı - Rusiya Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlər xalqlarımızı əsrlər boyu birləşdirən dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanır. İkitərəfli iqtisadi-ticari qarşılıqlı fəaliyyətin fəal şəkildə inkişaf etməsini, regionlararası və mədəni-humanitar əlaqələrin genişlənməsini məmnunluqla qeyd edirəm.

Əminəm ki, birgə səylərimiz dost ölkələrimizin və xalqlarımızın rifahı naminə Azərbaycan-Rusiya münasibətlərinin, strateji tərəfdaşlıq və müttəfiqlik məcrasında çoxplanlı əməkdaşlığın bundan sonra da inkişafına və möhkəmlənməsinə kömək edəcək.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və uğurlar, Rusiyanın bütün vətəndaşlarına isə əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 9 iyun 2026-cı il*

## Müttəfiqliyin Şuşa Zirvəsi

### 15 iyun 2021-ci ildə Qarabağda imzalanan bu sənəd Azərbaycan-Türkiyə əlaqələrində yeni səhifə açdı



Tarixi bağlara malik Azərbaycan-Türkiyə qardaşlığı 44 günlük Vətən müharibəsində daha da möhkəmləndi. Savaşın ilk saatlarından etibarən bəzi beynəlxalq siyasi dairələrin Azərbaycana yönələn təzyiq cəhdləri, Ankaradan gələn qətiyyətli və ard-arda bəyanatlarla iflasa uğradı. Dünyaya açıq mesaj verildi ki, Azərbaycan tək deyil.

2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilən Zəfər paradında iki liderin - dövlətimizin başçısı İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın çiyin-çiyinə dayanması bu birliyin daha bir mesajı idi. Azərbaycan və Türkiyə prezidentlərinin işğaldan azad edilmiş torpaqlarda inşa edilən Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanlarının açılışlarında lentləri birgə kəsmələri bu həmrəyliyin sarsılmaz gələcəyə açılan qapıları oldu.

Azərbaycanla Türkiyənin münasibətlərini unikal edən əsas cəhət onun yalnız ortaq siyasi maraqlara deyil, həm də səmimi, sarsılmaz xalq sevgisinə əsaslanmasıdır. Bu ittifaq təkcə qələbə sevinclərini paylaşmır, həm də acını bölüşməyi bacarır.

6 fevral 2023-cü ildə qardaş ölkədə baş verən dəhşətli zəlzələ zamanı Azərbaycan dövlətinin və xalqının göstərdiyi fədakarlıq bunun ən bariz nümunəsidir. Prezident İlham Əliyevin təxirəsalınmaz tapşırıqları ilə fəlakət bölgəsinə ilk yetişən, dağıntılar altından can qurtaran məhz Azərbaycanın xilasediciləri oldular. O çətin günlərdə hər bir azərbaycanlının zəlzələdən əziyyət çəkənlərə öz maddi dəstəyini göstərmək üçün növbəyə durması həm də "bir millət" olmağın qan yaddaşı idi.

15 iyun 2021-ci ildə iki qardaş ölkənin liderləri tərəfindən Qarabağda Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan və Türkiyə münasibətlərində yeni səhifə açdı.

Bəyannamənin ən mühüm məqamlarından biri 1921-ci il oktyabrın 13-də imzalanmış tarixi Qars müqaviləsinə edilən istinaddır. Düz bir əsr sonra iki qardaş dövlətin yenidən eyni hüquqi-siyasi prinsiplərə sadiqliyini bəyan etməsi, regionda sabitliyin və sərhədlərin toxunulmazlığının ən böyük qarantıdır.

14

## Azərbaycan regionda iqtisadi inteqrasiyanın və təhlükəsizliyin əsas təminatçısıdır



Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən siyasət bu gün Cənubi Qafqazı münaqişə ocağından sabitlik və əməkdaşlıq mərkəzinə çevirib. Beynəlxalq birliyin bu tarixi nailiyyətlərə verdiyi ali dəyər isə özünü nüfuzlu mükafatlarla büruzə verir. Prezident İlham Əliyevə təqdim olunan "Sülh və Barışıq üçün Gernika mükafatı" Azərbaycanın sülh gündəliyinin qlobal miqyasda qəbul olunmasının daha bir rəsmi təsdiqi kimi tarixə yazıldı. Vətən müharibəsi və antiterror tədbirləri sayəsində Azərbaycan ədaləti və barışı öz gücünə təmin etməklə dünya üçün örnək nümunə ortaya qoydu. Bununla sübut etdi ki, bütün çətinliklərə rəğmən nümayiş etdirilən qətiyyətli siyasi iradə sülhü bərqərar etmək iqtidarındadır. Bu gün Azərbaycan Ermənistanla münasibətlərdə faktiki əməkdaşlıq mühiti formalaşdırıb. Ötən il Ağ Evdə sülh sazişi mətninin paraflanmasından sonra iki ölkə arasında normallaşma istiqamətində mühüm addımlar atılıb. Neft məhsullarının və digər zəruri malların Azərbaycan ərazisindən Ermənistana ixrac edilməsi sülhün kağız üzərində deyil, insanların gündəlik həyatında hiss olunan real faydasıdır.

"Sülh və Barışıq üçün Gernika mükafatı"nın təqdimolunma mərasiminin iştirakçılarına ünvanladığı müraciətində ölkəmizin rəhbəri qeyd edib ki, ötən il Vaşinqton şəhərində Azərbaycan və Ermənistan arasında sülh sazişi mətninin paraflanması, eyni zamanda Birgə Bəyannamənin imzalanması ilə üç onillik ərzində davam edən münaqişə tamamilə sona çatmış, xalqlarımız üçün sülhün, barışığın, qarşılıqlı tərəfdaşlıq dövrünün əsası qoyulmuşdur.

15

# "Hava limanlarının (aeroportların) idarə edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Hava limanlarının (aeroportların) idarə edilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2026-cı il*

# Filippin Respublikasının Prezidenti zati-aliləri cənab Ferdinand Romualdez Markosa

Hörmətli cənab Prezident!

Filippin Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Filippin arasında dostluq və əməkdaşlıq münasibətlərinin xalqlarımızın mənafelərinə uyğun olaraq inkişafı və genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Filippin xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyun 2026-cı il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident, əziz dost!

Sizi və Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm. İllər keçdikcə daha da möhkəmlənən əsl dostluğumuza və xalqlarımız arasındakı əlaqələrə görə minnətdaram. Regional sabitliyə töhfə verən, sülhün təşviqində və bizi ortaq məqsədlərimizə çatmağa yaxınlaşdırmaqda mühüm rol oynayan səylərinizi, ekstremizmə qarşı mübarizədə qətiyyətli mövqeyinizi çox yüksək qiymətləndirirəm.

Ölkənizin İsrailə davamlı dəstəyinə, oktyabrın 7-də HƏMAS-ın mənfur hücumundan sonra nümayiş etdirdiyiniz həmrəyliyə, həmçinin regional təhdidlərə qarşı mübarizənizə görə Sizə xüsusilə minnətdaram. Bu, hökumətlərimiz və xalqlarımız arasında əsl tərəfdaşlığımızın əsaslandığı etimadı və hörməti təsdiqləyir.

İkitərəfli münasibətlərimizin və süni intellekt, aviasiya, turizm, akademik sahələr də daxil olmaqla müxtəlif istiqamətlərdə əməkdaşlığımızın daha da genişləndirilməsini, həmçinin Birgə Komissiyanın növbəti iclasının keçirilməsini səbirsizliklə gözləyirəm.

Sizə, ailənizə və Azərbaycan xalqına daha yüksək firavanlıq və uğurlar arzulayıram.

*Hörmətlə,*

***Benyamin NETANYAHU,***
***İsrail Dövlətinin Baş naziri***

Zati-aliləri cənab Prezident!

Dost və qardaş Azərbaycan xalqının azadlığa, müstəqilliyə sarsılmaz inamının rəmzi olan 28 May - Müstəqillik Günü və 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə zati-alinizi, Azərbaycan Hökumətini və xalqını səmimi-qəlbdən təbrik edirəm. Azadlıq və müstəqillik uğrunda canlarını fəda edən şəhidlərimizin əziz xatirəsini minnətdarlıq və ehtiramla yad edirəm.

Azərbaycanın şanlı Vətən müharibəsində əldə etdiyi böyük nailiyyətlər nəticəsində Vətən torpaqlarının azad edilməsi tarixə müstəsna bir Qələbə kimi daxil olub. Bu şanlı Zəfər təkcə Azərbaycan xalqı üçün deyil, eyni zamanda bütün türk dünyası üçün qürur və sevinc mənbəyidir.

Dost və qardaş ölkələrimiz arasındakı əlaqələrin "Bir millət, iki dövlət" şüarı ilə bütün sahələrdə daha da möhkəmlənəcəyinə inamım qətidir. Əminəm ki, yüksələn Türkiyə və Azərbaycan öz bölgələrində sülh, sabitlik, inkişaf və rifahın təmin edilməsində ən fəal ölkələr kimi səylərini davam etdirəcəklər.

Zati-aliləri, bu bayramlar münasibətilə Sizə ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Fuat OKTAY,***
***Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri***

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 12 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Hava limanlarının (aeroportların) idarə edilməsi qaydası

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının 5.1-ci bəndinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasında hava limanlarının (aeroportların) (bundan sonra - hava limanları) idarə edilməsi ilə bağlı əsas prinsipləri və tələbləri müəyyən edir.

1.2. Bu Qaydanın müddəaları mülki hava limanlarına şamil edilir.

1.3. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. **beynəlxalq hava limanı** - Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən beynəlxalq hava limanı statusu verilmiş, hava gəmilərinin qəbulu və yola salınması, beynəlxalq hava daşımalarına xidmət göstərilməsi üçün nəzərdə tutulan və müvafiq aerodromu, aerovağzalı, digər yerüstü tikililəri, lazımi avadanlığı olan qurğular kompleksi;

1.3.2. **hava limanlarının idarə edilməsi** - hava limanlarının idarə edilməsi sahəsində tənzimləmə, hava limanlarının maliyyələşdirilməsi və hava limanlarında investisiya fəaliyyəti, beynəlxalq və yerli hava limanları ilə bağlı aviasiya və qeyri-aviasiya fəaliyyəti, həmçinin hava limanlarında uçuşların təhlükəsizliyi, aviasiya təhlükəsizliyi və hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində görülən işlərə nəzarətin həyata keçirilməsi;

1.3.3. **hava limanının istismarçısı** - bir və ya bir neçə hava limanını qanuni əsaslarla istismar edən dövlət orqanı (qurumu), fiziki və ya hüquqi şəxs;

1.3.4**. qeyri-aviasiya fəaliyyəti** - mülki aviasiya subyektləri, o cümlədən sahibkarlıq subyektləri tərəfindən kommersiya imkanlarının genişləndirilməsi və əlavə gəlir formalaşdırılması məqsədilə hava limanlarında həyata keçirilən və bu Qaydanın 8.2-ci bəndində qeyd edilən fəaliyyət;

1.3.5. **yerli hava limanı** - dövlət sərhədindən buraxılış məntəqələri olmayan, hava gəmilərinin qəbulu və yola salınması, daxili hava daşımalarına xidmət göstərilməsi üçün nəzərdə tutulan və müvafiq aerodromu, aerovağzalı, digər yerüstü tikililəri, lazımi avadanlığı olan qurğular kompleksi.

1.4. Bu Qaydada istifadə olunan digər anlayışlar "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra - Qanun) və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyənləşdirilmiş mənaları ifadə edir.

**2. Hava limanlarının idarə edilməsi prinsipləri**

2.1. Hava limanlarının idarə edilməsi aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

2.1.1. təhlükəsizliyin təmin edilməsi;

2.1.2. müştəri məmnunluğu;

2.1.3. iqtisadi səmərəlilik və dayanıqlı inkişaf;

2.1.4. xidmətlərin əlçatanlığı;

2.1.5. ətraf mühitin mühafizəsi;

2.1.6. rəqabət mühitinin təmin olunması;

2.1.7. özəl sektorun iştirakının təşviqi.

**3. Hava limanlarının idarə edilməsi sahəsində əsas vəzifələr**

3.1. Mülki hava limanlarının idarə edilməsində tənzimləyici qurumun səlahiyyətlərini Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi həyata keçirir.

3.2. Hava limanlarının idarə edilməsi üzrə tənzimləyici qurumun vəzifələri aşağıdakılardır:

3.2.1. hava limanlarının və (və ya) aerodromların, həmçinin yerüstü xidmət təminatçılarının sertifikatlaşdırılması;

3.2.2. uçuşların təhlükəsizliyinin, aviasiya təhlükəsizliyinin, həmçinin hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinin təmin olunması və idarə edilməsi sahələrini tənzimləyən Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, "Beynəlxalq Mülki Aviasiya haqqında" 1944-cü il 7 dekabr tarixli Konvensiya və onun əlavələri ilə müəyyən edilmiş Beynəlxalq Mülki Aviasiya Təşkilatının (bundan sonra - BMAT) beynəlxalq standartlarının və tövsiyə olunan təcrübəsinin, Ümumdünya Gömrük Təşkilatının normalarının və standartlarının tətbiqi məqsədilə müvafiq sənədlərin hazırlanması və təsdiqi;

3.2.3. hava limanı istismarçılarının fəaliyyətinə nəzarətin və müfəttiş yoxlamalarının təşkili;

3.2.4.hava limanlarının idarə edilməsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə xarici dövlətlərin və beynəlxalq təşkilatların aidiyyəti orqanları (qurumları) ilə əməkdaşlıq edilməsi;

3.2.5. fəaliyyət istiqamətlərinə uyğun olaraq, hava limanlarının idarə edilməsi ilə bağlı normativ hüquqi aktların icrasına nəzarətin həyata keçirilməsi.

3.3. Hava limanının idarə edilməsi sahəsində hava limanı istismarçısının əsas vəzifələri aşağıdakılardır:

3.3.1. uçuşların təhlükəsizliyi, aviasiya təhlükəsizliyi və hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində normativ hüquqi aktlarda, BMAT-ın beynəlxalq standartlarında və tövsiyə olunan təcrübəsində, Ümumdünya Gömrük Təşkilatının normalarında və standartlarında, Azərbaycan Respublikasının mülki aviasiya sahəsində tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi;

3.3.2. sərnişinlərə və daşıyıcılara yüksəkkeyfiyyətli xidmətlər göstərilməsi;

3.3.3. maddi-texniki bazanın və infrastrukturun qorunması və inkişaf etdirilməsi;

3.3.4. işçilərin ixtisas səviyyəsinin yüksəldilməsi;

3.3.5. aviasiya fəaliyyətinin ətraf mühitə təsirinin minimuma endirilməsi;

3.3.6. risklərin və təcili müdaxilə tələb edən vəziyyətlərin (təbii fəlakət, texnogen qəza (yanğın, partlayış), texniki nasazlıq, kiberhücum, epidemiya və ya pandemiyalar) idarə edilməsi;

3.3.7. Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, digər vəzifələrin həyata keçirilməsi.

**4. Hava limanlarının idarə edilməsi formaları**

4.1. Hava limanlarının idarə edilməsi formaları onların mülkiyyət növü nəzərə alınmaqla təşkil olunur.

4.2. Dövlət mülkiyyətində, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan mülki hava limanlarının idarə edilməsi və infrastrukturunun inkişafı hava limanının istismarçısı tərəfindən Qanunun və bu Qaydanın tələblərinə uyğun olaraq həyata keçirilir.

4.3. Dövlət mülkiyyətində olan mülki hava limanlarının idarə edilməsi xüsusiyyətləri aşağıdakılardır:

4.3.1. infrastrukturun dövlətin mülkiyyətində olması;

4.3.2. idarəetmənin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəhbərlərinin təsdiq etdiyi texnoloji sxemə əsasən həyata keçirilməsinin təşkili;

4.3.3. ictimai iaşə xidmətlərinin göstərilməsi;

4.3.4. təsis sənədində nəzərdə tutulduğu halda hava limanı istismarçısının sahibkarlıq fəaliyyəti ilə məşğul olması.

4.4. Dövlət mülkiyyətində olan mülki hava limanları Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və ya dövlət-özəl tərəfdaşlığı layihəsi çərçivəsində "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin Qanundan irəli gələn digər normativ hüquqi aktlara uyğun olaraq özəl tərəfdaşa (sahibkarlıq subyektinə) idarəetməyə verilə bilər.

**5. Hava limanlarının maliyyələşdirilməsi və hava limanlarında investisiya fəaliyyəti**

5.1. Hava limanlarının tikintisi və yenidən qurulması dövlət büdcəsinin vəsaiti, hava limanı istismarçısının vəsaiti, kredit və qrantlar, fiziki və hüquqi şəxslərin ianələri, eləcə də qanunda nəzərdə tutulan digər mənbələr hesabına həyata keçirilə bilər.

5.2. Hava limanlarında investisiya fəaliyyəti "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

**6. Beynəlxalq hava limanı**

6.1. Beynəlxalq hava limanlarında fəaliyyət sərnişin, baqaj, yük və ya poçt göndərişlərinin beynəlxalq daşınmalarının həyata keçirilməsini, habelə təcili və təxirəsalınmaz tibbi yardım, xilasetmə, yanğınsöndürmə və fövqəladə hallarla əlaqədar işlərin yerinə yetirilməsini əhatə edir.

6.2. Beynəlxalq hava limanları aşağıdakı tələblərə cavab verməlidir:

6.2.1. BMAT-ın beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə, o cümlədən Azərbaycan Respublikasının mülki aviasiya sahəsində tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə uyğun olmalıdır;

6.2.2. Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələri fəaliyyət göstərməlidir;

6.2.3. beynəlxalq hava daşımalarının yerinə yetirilməsi üçün nəzərdə tutulmuş sərnişin və (və ya) yük terminalları olmalı, yerüstü xidmət təşkil edilməlidir;

6.2.4. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqrama malik olmalıdır.

**7. Yerli hava limanı**

7.1. Yerli hava limanlarında fəaliyyət sərnişin, baqaj, yük və ya poçt göndərişlərinin daxili daşınmalarının həyata keçirilməsini, habelə təcili və təxirəsalınmaz tibbi yardım, xilasetmə, yanğınsöndürmə və fövqəladə hallarla əlaqədar işlərin yerinə yetirilməsini əhatə edir.

7.2. Yerli hava limanlarında daxili hava daşımalarının yerinə yetirilməsi üçün nəzərdə tutulmuş sərnişin və (və ya) yük terminalları olmalı, yerüstü xidmət təşkil edilməli, eləcə də həmin hava limanları hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqrama malik olmalıdır.

**8. Hava limanlarında aviasiya və qeyri-aviasiya fəaliyyəti**

8.1. Hava limanlarında hava gəmilərinin hərəkətinin bilavasitə təmin edilməsi, sərnişin, baqaj, yük və ya poçt göndərişlərinin daşınması üçün mülki aviasiya subyektləri tərəfindən aviasiya fəaliyyəti həyata keçirilir. Aviasiya fəaliyyətinə aşağıdakılar daxildir:

8.1.1. ümumi və xüsusi xarakterli aviasiya fəaliyyəti;

8.1.2. kommersiya hava daşımaları;

8.1.3. bu Qaydanın 8.1.1-ci və 8.1.2-ci yarımbəndlərində qeyd edilən fəaliyyətlər üzrə aşağıdakı xidmətlər:

8.1.3.1. enmə (qalxma), hava gəmisinin parklanması və texniki enmə (qalxma) zamanı təhlükəsizliyin təmini xidmətləri;

8.1.3.2. yerüstü xidmət;

8.1.3.3. hava gəmilərinin Azərbaycan Respublikasının ərazisində yerləşən hava limanına enməsi və ya qalxması üçün həyata keçirilən aeronaviqasiya xidmətləri;

8.1.3.4. hava limanlarının terminallarından istifadə üzrə sərnişin xidmətləri, o cümlədən sərnişinlərin və baqajın təhlükəsizliyinin yoxlanılması.

8.2. Qeyri-aviasiya fəaliyyətinə aşağıdakılar daxildir:

8.2.1. ticarət və pərakəndə satış xidmətləri (mağazalar, o cümlədən beynəlxalq hava limanının gömrük nəzarəti zonasında yaradılan rüsumsuz ticarət mağazaları);

8.2.2. iaşə xidmətləri (restoran və kafelər, qida köşkləri);

8.2.3. avtomobil parkı və nəqliyyat xidmətləri (ödənişli dayanacaqlar, taksi və transfer xidmətləri);

8.2.4. icarə xidmətləri (turizm agentlikləri, bank filialları və s. üçün sahələrin icarəsi);

8.2.5. digər xidmətlər (hava limanında yerləşən hotellər, işgüzar səfərlər üçün konfrans və görüş otaqları və s.).

# Koordinasiya Şurası ölkə risk qiymətləndirilməsi hesabatını təsdiqləyib

**Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının iyunun 11-də növbəti iclası keçirilib.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Baş nazirin müavini, Koordinasiya Şurasının sədri Samir Şərifov keçirilməsi nəzərdə tutulan Maliyyə Kəşfiyyatı Orqanlarının Eqmont Qrupunun 32-ci plenar iclasına hazırlıq işlərinin mühüm əhəmiyyət daşıdığını qeyd edib. Vurğulanıb ki, tədbirin yüksək səviyyədə təşkili ilə bağlı təsdiq edilmiş İş planının icra vəziyyəti Koordinasiya Şurasının və aidiyyəti dövlət orqanlarının diqqət mərkəzindədir. İclasda Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində aidiyyəti dövlət orqanları tərəfindən görülmüş və görüləcək işlər barədə Koordinasiya Şurası üzvlərinin təqdim etdiyi məlumatlar dinlənilib və müzakirə olunub.

Eyni zamanda "Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ölkə risk qiymətləndirilməsi" hesabatı Koordinasiya Şurası tərəfindən təsdiqlənib və şuranın fəaliyyəti ilə bağlı digər məsələlər nəzərdən keçirilib.

# Milli Məclisdə görüş

**İyunun 12-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev ilə Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Avropa İttifaqı ilə qanunların uyğunlaşdırılması üzrə xüsusi komitəsinin sədri Ahmet Savaşan arasında görüş keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Musa Quliyev qonağı salamlayaraq, Azərbaycan ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini bildirib. Prezident İlham Əliyevin "Bizim ailəmiz türk dünyasıdır" fikrini xatırladan komitə sədri, türk dövlətləri arasında həmrəyliyin və əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini qeyd edib. Söhbətdə iki ölkə arasında əlaqələrin inkişafında parlamentlərarası əməkdaşlığın əhəmiyyətinə diqqət çəkilərək, qarşılıqlı səfər və görüşlərin mühüm rol oynadığı vurğulanıb.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən Ahmet Savaşan hər iki ölkə parlamentlərində dostluq qruplarının fəaliyyətini yüksək qiymətləndirib. Dövlətlərarası əlaqələrin möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayan qonaq, turizm, ticarət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin münasibətlərin inkişafına mühüm töhfə verəcəyini bildirib. O, həmçinin parlamentlərarası əməkdaşlığın ikitərəfli münasibətlərin daha da dərinləşdirilməsində önəmli rol oynadığını qeyd edib. Görüşdə çıxış edən Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Cavanşir Feyziyev, Əmək və sosial siyasət komitəsinin sədr müavini Elşad Musayev və deputat Göydəniz Qəhrəmanov ölkələrimiz arasında əməkdaşlığın inkişaf perspektivləri barədə fikirlərini bölüşüblər.

***"Azərbaycan"***

# Əmək və sosial siyasət komitəsinin iclası keçirilib

**İyunun 12-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Musa Quliyev gündəliyə bir məsələnin -Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinin (ikinci oxunuş) daxil edildiyini bildirib.

Komitə sədri qanun layihəsində nəzərdə tutulan dəyişikliklərin əsas məqsədinin işğaldan azad edilmiş ərazilərə qayıdan məcburi köçkünlərin mənzil təminatının və mülkiyyət hüquqlarının daha effektiv şəkildə tənzimlənməsi olduğunu söyləyib. Diqqətə çatdırılıb ki, layihəyə əsasən, "İşğaldan Azad Edilmiş Ərazilərdə Daimi Məşkunlaşma Fondu" yaradılır və həmin fonda daxil edilən yaşayış sahələri məcburi köçkünlərin daimi məskunlaşdırılması, eləcə də onların mülkiyyətinə verilməsi üçün istifadə olunacaq.

Qeyd edilib ki, təklif edilən dəyişikliklər məcburi köçkünlərin uzunmüddətli sosial müdafiəsinin təmin edilməsinə, onların mülkiyyət hüquqlarının tam bərpasına və işğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşmanın formalaşdırılmasına xidmət edəcək.




Müzakirələrdə Əmək və sosial siyasət komitəsinin sədr müavini Elşad Musayev, komitənin üzvləri Vüqar Bayramov, Əziz Ələkbərov, Jalə Əliyeva və Parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək qanun layihəsinə dair fikirlərini səsləndiriblər, bəzi qeyd və təkliflərini irəli sürüblər.

Sonda qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

## Milli Məclisin iclasında

# Milli Qurtuluş müstəqillik və dövlətçilik ideyalarının təntənəsidir

**İyunun 12-də Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, bu iclas müstəqil Azərbaycanın taleyində dönüş yaratmış bir hadisənin ildönümü ərəfəsində keçirilir. İyunun 15-də xalqımız Milli Qurtuluş Gününü qeyd edəcək və yaxşı bilirik ki, bu gün müasir tariximizdə müstəsna yer tutur.**



Spiker diqqətə çatdırıb ki, 1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa etdikdən az sonra dövlətimiz parçalanmaq və məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Məhz belə bir dövrdə böyük siyasi və dövlət xadimi Heydər Əliyevin ali hakimiyyətə qayıtması tarixin gedişini dəyişdirməyə imkan verdi. Ümummilli Lider xalqımızın öz dəyərlərinə sadiqliyini, dövlətçiliyini qorumaq və gələcəyini müəyyən etmək əzmini real siyasi gücə çevirdi.

Milli Məclisin Sədri bildirib ki, Heydər Əliyevin dövlət rəhbərliyinə qayıtması xalqın tarixi seçimi idi. Ulu Öndər zamanın çağırışlarına cavab vermək qabiliyyəti sayəsində müstəqil dövlətimizi qoruyub saxladı və möhkəmləndirdi. Azərbaycan davamlı inkişaf yoluna çıxdı və onun geosiyasi əhəmiyyəti artdı. Ölkəmiz qlobal miqyaslı iqtisadi layihələrin mərkəzinə çevrildi.

"Ulu Öndərin həm sovet dövründə, həm də müstəqillik illərində fəaliyyətinin təhlili göstərir ki, müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyev dühasının məhsuludur. Eyni zamanda o, bugünkü Azərbaycan parlamentinin də banisidir.

Ötən illər göstərdi ki, Ulu Öndərin yaratdığı milli dövlətçilik konsepsiyası böyük siyasi potensiala malik olmaqla yanaşı, həm də xalqın və dövlətin uzunmüddətli strateji maraqlarına əsaslanır. Heydər Əliyevin azərbaycançılıq və dövlətçilik ideyaları Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin fəaliyyətində ardıcıl inkişaf etdirilir", - deyə spiker Sahibə Qafarova diqqətə çatdırıb.

Milli Məclisin Sədri qeyd edib ki, bu gün biz keçdiyimiz yola nəzər salaraq, inamla söyləyə bilərik ki, 1993-cü ildə və sonrakı dövrdə Ulu Öndərin həyata keçirdiyi milli qurtuluş missiyası ilə müasir Azərbaycanın nailiyyətləri arasında birbaşa əlaqə var: "Torpaqlarımızın 30 illik işğalına son qoyulması, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunması, Azərbaycanın nüfuzlu və güclü bir dövlətə çevrilməsi, hər il, hər ay müşahidə etdiyimiz digər uğurlar Heydər Əliyev siyasi xəttinin ardıcıl surətdə davam etdirilməsinin nəticəsidir.

Məhz buna görə də Milli Qurtuluş Günü təkcə tarixin bir anı deyil. Bu gün müstəqillik və dövlətçilik ideyalarının təntənəsidir. Gələcək nəsillər qarşısında məsuliyyət hissinin təcəssümüdür. Xalq ilə dövlətin birliyinin rəmzidir".

Spiker vurğulayıb ki, Milli Qurtuluş Günü ərəfəsində biz Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini bir daha ehtiramla yad edirik: "Əmin olduğumuzu bildiririk ki, möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bundan sonra da müstəqil inkişaf yollarında inamla addımlayacaq. Heydər Əliyev zəkasından güc almış Azərbaycan dövləti qarşıdakı dövrdə yeni böyük uğurlara imza atacaqdır".

Sonra spiker təklif edib ki, Milli Qurtuluş Günü münasibətilə dövlət başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq və Azərbaycan dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq. Spikerin təklifi alqışlarla qarşılanıb.

Çıxışının sonunda Milli Məclisin Sədri iclasda iştirak edən hər kəsə bayram münasibətilə təbriklərini çatdırıb.

Sonra iclasda gündəmdə olan məsələlərlə bağlı müzakirələr aparılıb. Müzakirələrdə Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, komitə sədri Zahid Oruc, deputatlar Göydəniz Qəhrəmanov, Hikmət Məmmədov, Bəhruz Məhərrəmov, Elman Nəsirov, Vüqar İskəndərov, Soltan Məmmədov, Vüqar Bayramov, Sahib Alıyev, Tural Gəncəliyev, Fəzail İbrahimli çıxış ediblər. Deputatlar bir neçə gündən sonra müasir tariximizin ən mühüm və taleyüklü hadisələrindən biri olan 15 İyun - Azərbaycan xalqının Milli Qurtuluş Gününün qeyd ediləcəyini vurğulayıblar. Bildirilib ki, bu əlamətdar tarix Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması, müstəqilliyimizin möhkəmləndirilməsi və ölkəmizin gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Azərbaycanın ötən əsrin 90-cı illərinin əvvəllərində üzləşdiyi təlatümlü vəziyyətdən Heydər Əliyevin müdrik siyasəti və qətiyyətli iradəsi sayəsində xilas olduğu, bu dönüş nöqtəsinin ölkəmizin bugünkü tərəqqisi və gələcək inkişafı üçün müstəsna əhəmiyyət daşıdığı diqqətə çatdırılıb.

Qeyd edilib ki, 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ölkəmizin tarixində yeni mərhələnin başlanğıcı oldu. Nəzərə çatdırılıb ki, xalqımızın bu gün qazandığı nailiyyətlər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq həyata keçirilən siyasət nəticəsində əldə olunub. Bu mənada, Azərbaycanın torpaqlarımızın azadlığı uğrunda möhtəşəm Qələbəsi mahiyyət etibarilə öz başlanğıcını Heydər Əliyevin tarixi qayıdışından götürür. Artıq Ümummilli Liderin vəsiyyəti yerinə yetirilib - Qarabağ və Şərqi Zəngəzur azaddır, işğaldan azad edilmiş torpaqlarımızda Azərbaycan bayrağı ucalır.

Çıxışlarda Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi qeyd olunub. Bildirilib ki, ötən müddət ərzində Azərbaycan böyük inkişaf yolu keçərək, güclü iqtisadiyyat, müasir ordu, nüfuzlu xarici siyasət formalaşdırıb.

Bununla yanaşı, qeyd edilib ki, ölkəmizin xarici siyasəti qlobal miqyasda sülhün və qarşılıqlı anlaşmanın təşviqinə xidmət edən ardıcıl və sistemli dövlət strategiyası kimi formalaşıb. Prezident İlham Əliyev tərəfindən müəyyən edilmiş bu strategiya mədəniyyətlərarası dialoqun genişləndirilməsinə və beynəlxalq əməkdaşlığın dərinləşməsinə yönəlib. Bildirilib ki, bu siyasətin həyata keçirilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsləri mühüm rol oynayır.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. İlk olaraq "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi (birinci oxunuş) təqdim olunub. Məsələ barədə məlumat verən parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov 2025-ci ildə icra edilmiş dövlət büdcəsinin gəlirlərinin həm proqnoza, həm də əvvəlki ilə nisbətən artması ilə xarakterizə olunduğunu deyib. Qeyd edib ki, 2025-ci il üzrə dövlət büdcəsinin gəlirləri 39,2 milyard manat olmaqla, proqnoza qarşı 2,2 faiz, 2024-cü illə müqayisədə isə 5,4 faiz çox icra edilib.

Bildirilib ki, icra edilmiş dövlət büdcəsi ötən ildə cari fiskal dayanıqlılıq nümayiş etdirib. Belə ki, cari xərclərin təxminən 92 faizi qeyri-neft gəlirləri hesabına maliyyələşib. Ötən ildə icra edilmiş dövlət büdcəsinin mühüm xüsusiyyətlərindən biri də qeyri-neft sektorundan daxilolmaların proqnoza nisbətən 1,6 faiz, 2024-cü ilə nisbətən 3,9 faiz artmasıdır. Ötən ilin büdcə gəlirlərində qeyri-neft daxilolmalarının payı 52 faizə yüksəlib.

Nəzərə çatdırılıb ki, 3,1 milyard manat məbləğində təsdiq olunan dövlət büdcəsi kəsirinin 580 milyon manat büdcə profisiti ilə, icmal büdcənin isə proqnozlaşdırılan 3,7 milyard manatlıq kəsirinin faktiki olaraq 3,4 milyard manat məbləğində profisitlə əvəzlənməsi ötən ilin büdcə icrası prosesində diqqətçəkən məqamlardan biridir. 2025-ci ilin büdcəsi dövlətin strateji sənədlərinin - Milli Prioritetlərin, Sosial-iqtisadi inkişaf Strategiyasının, Böyük Qayıdışa dair I Dövlət Proqramının maliyyə təminatında da mühüm rol oynayıb.

Sonra iclasda maliyyə naziri Sahil Babayev çıxış edib. Maliyyə naziri bildirib ki, 2025-ci ildə ölkəmizdə ümumi daxili məhsul real ifadədə 1,4 faiz artaraq 129,1 milyard manat təşkil edib, adambaşına düşən ümumi daxili məhsul artaraq 12,6 min manat olub. İqtisadiyyatın diversifikasiyası və qeyri-neft sektorunun dinamik inkişafı nəticəsində, ötən ildə qeyri-neft sektorunda 2,7 faiz real artım əldə olunub, ÜDM-in 72 faizi və yaxud 92,3 milyard manatı qeyri-neft sektorunun payına düşüb. Qeyri-neft ixracı 8,1 faiz artaraq 3,6 milyard dollara çatıb. Qeyd olunub ki, profositli tədiyyə balansı, monetar və fiskal siyasətin sıx əlaqələndirilməsi nəticəsində məzənnə sabitliyi qorunub. Hesabat ilində əhalinin adambaşına düşən nominal gəlirləri 7,6 faiz, orta aylıq nominal əməkhaqqı 9,3 faiz artıb. Cari ilin əvvəlinə ölkənin məcmu valyuta ehtiyatları 85,1 milyard ABŞ dolları təşkil edib. Azərbaycan ÜDM-dən artıq valyuta ehtiyatlarına malik olan azsaylı ölkələrdən biridir. 2025-ci ildə "Azəri light" markalı xam neftin bir barelinin dünya bazarlarındakı satış qiyməti orta hesabla 71 ABŞ dolları səviyyəsində qərarlaşıb və büdcədə nəzərdə tutulmuş qiymət göstəricisi ilə müqayisədə 1,4 faiz artıb. Bildirilib ki, Dövlət Neft Fondunun 2026-cı ilin 1 yanvar tarixinə olan aktivləri 13,5 milyard ABŞ dolları artaraq 73,5 milyard ABŞ dollarına çatıb, bu isə makroiqtisadi sabitlik və inkişaf üçün güclü uzunmüddətli bufer yaratmağa imkan verir.

Bununla yanaşı, 2025-ci ildə dövlət maliyyəsinin idarə olunması sahəsində də mühüm müsbət nəticələrin əldə edildiyi söylənilib. Belə ki, ötən il dövlət büdcəsinin mədaxili 39,2 milyard manat olmaqla, proqnoza qarşı 829 milyon manat və ya 2,2 faiz, 2024-cü illə müqayisədə isə 2 milyard manat və ya 5,4 faiz çox icra edilib. Qeyd olunub ki, dövlət büdcəsində qeyri-neft vergilərinin payının 59 faizə yüksəlməsi, əvvəlki illə müqayisədə isə 2,7 faiz artması büdcənin neft gəlirlərindən asılılığının azalmasının mühüm göstəricisidir.

Maliyyə naziri daha sonra bildirib ki, ötən il vergi orqanlarının xətti ilə büdcəyə 16,4 milyard manat, gömrük orqanlarının xətti ilə isə 6,4 milyard manat vəsait təmin edilib. Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar 680 milyon manat və ya 2024-cü illə müqayisədə 132 milyon manat çox olub. Hesabat dövründə Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulduğu həcmdə, yəni 14,5 milyard manat transfert edilib.

Qeyd olunub ki, 2025-ci ildə ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri və digər zəruri xərclərin icrası üçün tələb olunan məbləğdə maliyyə vəsaiti tam və vaxtında təmin edilib. Nəzərə çatdırılıb ki, 2025-ci ildə dövlət büdcəsinin xərcləri proqnozun 93,2 faizi həcmində və ya 38,6 milyard manat icra edilib.

Bildirilib ki, 2025-ci ildə sosialyönlü xərclərin maliyyələşməsi üçün dövlət büdcəsi xərclərinin təxminən 40 faizi həcmində və ya 15,3 milyard manat vəsait istifadə olunub. Dövlət başçısının aztəminatlı, xüsusən sosial cəhətdən həssas olan insanlara qayğısının təzahürü kimi, ötən il növbəti sosial islahat zərfi reallaşdırılıb, islahat zərfi çərçivəsində minimum əməkhaqları və pensiyalar, sosial müavinət və təqaüdlər artırılıb, islahatın maliyyələşdirilməsinə dövlət büdcəsindən 400 milyon manatdan artıq vəsait sərf edilib. Ümumilikdə, son 5 ildə sosialyönlü xərclər 3,9 milyard manat artıb.

Eyni zamanda söylənilib ki, ötən ilin müdafiə və milli təhlükəsizlik xərclərinə dövlət büdcəsi xərclərinin 21 faizi həcmində və ya 8,1 milyard manat vəsait yönəldilib. Elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, bədən tərbiyəsi və gənclər siyasəti xərclərinin maliyyələşdirilməsi üçün hesabat ilində dövlət büdcəsi xərclərinin 29 faizi və ya 11,2 milyard manat vəsait sərf olunub. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 504 milyon manat vəsait sərf edilib. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2025-ci ilin dövlət büdcəsinin xərclərinin müvafiq istiqamətləri üzrə 4,5 milyard manat vəsait ayrılıb.

Qeyd edilib ki, ötən il fiskal orqanlar tərəfindən daxilolmaların artıqlaması ilə təmin edilməsi və büdcə xərclərinin səmərəli icrası hesabına dövlət büdcəsi profisitlə yerinə yetirilib.

Nazir qeyd edib ki, 2025-ci ildə icmal büdcənin gəlirləri 48 milyard manat, xərcləri isə 44,6 milyard manat yerinə yetirilib. İcmal büdcə də profisitlə icra olunub.

İclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov qanun layihəsinə və 2025-ci il dövlət büdcəsinin icrasına dair illik hesabata Hesablama Palatasının rəyini diqqətə çatdırıb. O bildirib ki, 2025-ci ildə ÜDM-in, o cümlədən neft-qaz və qeyri-neft-qaz sahələri üzrə ÜDM-in proqnoz və fakt məbləğləri üst-üstə düşür.

Qeyd olunub ki, ötən il büdcə qaydasının əsas göstəriciləri icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisi 18,6 faiz, dövlət borcunun ÜDM-ə nisbəti isə 20,1 faiz olub. Hər iki göstərici üzrə əldə edilən nəticə qoyulan hədəfə uyğundur.

Əvvəlki illə müqayisədə hesabat ilinin dövlət büdcəsinin gəlirlərinin tərkibində həm vergi gəlirləri üzrə, həm də qeyri-vergi gəlirləri üzrə artım müşahidə edilir. Bu dinamika qeyri-vergi gəlirlərinin artımında əsasən transfertlər və digər alternativ mənbələrin həlledici rol oynadığını göstərir. Hesabat ilində icra edilmiş dövlət büdcəsi xərclərinin 6,6 faizi büdcədən ayırmalar və transfertlərlə bağlı olub. Büdcədən transfertlər 2024-cü illə müqayisədə 8,9 faiz azdır.

Vüqar Gülməmmədov Hesablama Palatasının rəyinə 25 halda tövsiyələrin icrası barədə məlumatın, habelə 46 yeni tövsiyənin daxil edildiyini söyləyib və bir sıra təklifləri də səsləndirib.

Sonra məsələ ətrafında geniş müzakirələr aparılıb. Parlamentin komitə sədrləri Zahid Oruc, Sadiq Qurbanov, Hicran Hüseynova, deputatlar Əli Məsimli, Bəhruz Məhərrəmov, Tahir Mirkişili, Kamran Bayramov, Aydın Mirzəzadə, Rizvan Nəbiyev, Vüqar Bayramov fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

Milli Məclisin Sədri Sahibə Qafarova müzakirələrdə səslənən bütün çıxışlarda müsbət fikirlərin söylənildiyini, təkliflərin verildiyini bildirib və məsələni səsə qoyub.

"Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Parlamentin spikeri diqqətə çatdırıb ki, gündəliyin növbəti 4 məsələsindən biri beynəlxalq sənədlə bağlıdır, digəri səfirliyin təsis edilməsi haqqındadır, ikisi isə uyğunlaşdırma xarakteri daşıyır. O, bu qanun layihələrinin "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcəyini bildirib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Gəmilərdə zərərli çirklənmə əleyhinə sistemlərə nəzarət haqqında beynəlxalq Konvensiya"ya qoşulmaq barədə qanun layihəsini təqdim edib. Komitə sədri bildirib ki, Konvensiyanın məqsədi gəmilərin gövdələrində istifadə edilən dəniz ekosisteminə zərər verən çirklənmə əleyhinə sistemlərin istifadəsinə nəzarət etmək, təhlükəli maddələrin tətbiqini məhdudlaşdırmaq və təhlükəsiz alternativlərin istifadəsini təşviq etməkdir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bu komitənin müsbət rəyini açıqlayıb.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Azərbaycan Respublikasının Portuqaliya Respublikasında (Lissabon şəhərində) Səfirliyinin təsis edilməsi haqqında" qanun layihəsi barədə məlumat verib. O, Portuqaliyanın bizim üçün vacibliyini, Avropada xüsusi əhəmiyyətə malik dövlət olduğunu qeyd edib. Komitə sədri, eyni zamanda Azərbaycanda da müxtəlif dövlətlərin səfirliklərinin açıldığını, ölkəmizə diqqətin çoxaldığını vurğulayıb. O, Portuqaliya ilə qarşılıqlı səfirliklərin açılması ilə bağlı razılığın əldə edildiyini bildirib.

Milli Məclisin Portuqaliya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Samir Vəliyev məsələ barədə fikirlərini açıqlayaraq, Azərbaycanın Portuqaliyada səfirliyinin təsis edilməsinin ölkəmizin xarici siyasət prioritetlərinə xidmət edən mühüm təşəbbüs olduğunu qeyd edib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" və "Tənzimlənən qiymətlər haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Qeyd olunub ki, qanun layihəsi "Dövlət-özəl tərəfdaşlığı haqqında" qanunun icrası və onun müvafiq normalarının sahəvi qanunlarda əks etdirilməsi məqsədilə hazırlanıb. Sənəd dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin ayrılması qaydalarını və şərtlərini müəyyən edir. Bildirilib ki, layihədə adıçəkilən qanunların müvafiq maddələrində uyğunlaşdırma xarakterli dəyişikliklər təklif olunur.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rövşən Muradov təmsil etdiyi komitənin rəyini bildirərək, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Tənzimlənən qiymətlər haqqında" qanunlara yeni maddələrin əlavə edilməsinin nəzərdə tutulduğunu deyib.

Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov məsələ ilə əlaqədar rəhbərlik etdiyi komitənin rəyini açıqlayaraq, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanuna edilən dəyişiklikdən bəhs edib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Diqqətə çatdırılıb ki, layihəyə əsasən, qanunun 5.2-ci maddəsi yeni redaksiyada verilir. Dəyişikliyə əsasən, Şuşa şəhərinin ərazisində yerləşən abidələrin korlanması və ya məhv edilməsi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.

Deputat Fatma Yıldırım məsələ barədə fikirlərini söylədikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda daha sonra "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələri qəbul edilib.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, qanun layihəsi uşaqların sosial şəbəkə platformalarından istifadəsinin hüquqi tənzimlənməsini nəzərdə tutur. O qeyd edib ki, layihənin ictimai müzakirəsi zamanı dövlət və hökumət nümayəndələri, təhsil və səhiyyə sahələrinin rəhbərləri, media və vətəndaş cəmiyyəti təmsilçiləri təşəbbüsün əhəmiyyətini xüsusi vurğulayıblar. Onun sözlərinə görə, bu yanaşma qanunvericilik təşəbbüsünün yalnız normativ tələblərdən deyil, həm də cəmiyyətin sosial sifarişindən irəli gəldiyini göstərir.

Zahid Oruc beynəlxalq elmi araşdırmalara istinad edərək qeyd edib ki, bu araşdırmalar sosial media platformalarının uşaqların sağlam böyüməsinə, xüsusən psixoloji vəziyyətinə, yuxu rejiminə, təhsil göstəricilərinə mənfi təsir göstərdiyini ortaya qoyur. O, məsələ ilə bağlı beynəlxalq hüquqi təcrübəni də diqqətə çatdıraraq bildirib ki, son illərdə bir sıra ölkələr uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması məqsədilə müvafiq qanunvericilik tədbirləri həyata keçirib.

Qanun layihəsində təklif olunan dəyişikliklərə əsasən, 16 yaşınadək şəxslər üçün sosial şəbəkə platformalarında fərdi hesabların açılması təxirə salınır, 16-18 yaş aralığında olan şəxslər üçün isə valideyn razılığı mexanizminin tətbiqi nəzərdə tutulur. Komitə sədri vurğulayıb ki, məqsəd uşaqları texnologiyalardan uzaqlaşdırmaq deyil, onların kitab, elm, idman, yaradıcılıq, ailə ünsiyyəti və sağlam sosial münasibətlər əsasında inkişafına daha əlverişli şərait yaratmaqdır.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim olunan qanun layihəsi haqqında komitələrinin müsbət rəylərini diqqətə çatdırıblar. Onlar qanun layihəsinin rəqəmsal mühitdə uşaqların hüquq və mənafelərinin daha effektiv qorunmasına, onların sosial şəbəkə platformalarından təhlükəsiz istifadəsinin təmin olunmasına xidmət etdiyini vurğulayıblar.

Qanun layihəsinin müzakirəsində Milli Məclis Sədrinin müavini Musa Qasımlı, deputatlar Azay Quliyev, Kamal Cəfərov, Fariz İsmayılzadə, Əminə Ağazadə, Elçin Mirzəbəyli çıxış edərək dəyişikliklərlə bağlı fikirlərini bildiriblər.

Müzakirələrin sonunda qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Gündəliyin sonuncu məsələsi - Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanunun layihəsi (birinci oxunuş) barədə məlumatı Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev təqdim edib. Diqqətə çatdırıb ki, müzakirəyə təqdim olunan qanun layihəsi keçmiş məcburi köçkünlərin doğma yurdlarında dayanıqlı məskunlaşmasının hüquqi əsaslarının təkmilləşdirilməsini, işğaldan azad edilmiş ərazilərə köçürülən şəxslərin statusunun və onlara göstərilən sosial dəstək mexanizmlərinin tənzimlənməsini nəzərdə tutur.

Komitə sədri qeyd edib ki, məcburi köçkünlər uzun illər Azərbaycan dövlətinin xüsusi qayğısı ilə əhatə olunublar. O vurğulayıb ki, onların sosial və digər problemlərinin həlli ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət mərkəzində olub. Diqqətə çatdırılıb ki, məcburi köçkünlərin sosial problemlərinin həlli ilə əlaqədar Azərbaycan Prezidenti tərəfindən 2004-2019-cu illər ərzində 75 fərman və sərəncam imzalanıb, Milli Məclis tərəfindən 11 qanun qəbul edilib, Nazirlər Kabineti tərəfindən 224 qərar və sərəncam verilib.

Torpaqlarımızın işğal altında olduğu dövrdə məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 121 yeni qəsəbə və yaşayış kompleksi tikilərək onların istifadəsinə verilib. 62 mindən çox məcburi köçkün ailəsinin, yəni 300 min nəfərdən çox məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

Bildirilib ki, məcburi köçkünlərə göstərilən diqqət və qayğı torpaqlarımız işğaldan azad edildikdən sonra da davam etdirilib. Vətən müharibəsində qələbədən sonra işğaldan azad olunmuş ərazilərdə bərpa və geniş quruculuq işləri həyata keçirilir. Yeni mərhələdə qarşıya qoyulan hədəflərin reallaşdırılması məqsədilə dövlət başçımızın 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı"nın Tədbirlər Planı təsdiq edilib.

Qeyd olunub ki, Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına başlanmasından ötən dörd il ərzində bu məqsədlə dövlət büdcəsindən 28 milyard manata yaxın vəsait ayrılıb, Qarabağda və Şərqi Zəngəzurda 40-dan çox yaşayış məntəqəsində keçmiş məcburi köçkünlərin daimi yaşayışı təmin olunub.

Komitə sədri bildirib ki, müzakirəyə təqdim olunan qanun layihəsi də məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə yaşayış sahələri ilə təmin olunması, onların mülkiyyət hüquqlarının daha dolğun şəkildə təmin edilməsi və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Qeyd olunub ki, dəyişikliklər nəticəsində yeni institut - "İşğaldan Azad Edilmiş Ərazilərdə Daimi Məskunlaşma Fondu" yaradılacaq. Bu fonda daxil edilən yaşayış sahələri keçmiş məcburi köçkünlərin həmin ərazilərə köçürülməsi və sonradan onların mülkiyyətinə verilməsi məqsədilə istifadə olunacaq. Bildirilib ki, dəyişikliklərə əsasən, məcburi köçkün statusuna ehtiyacın aradan qalxması ilə bağlı hallar daha konkret şəkildə müəyyənləşdirilir. Yeni yanaşmaya görə, şəxsə əvvəlki yaşayış yerinin əvəzinə müəyyən edilmiş normalara uyğun yeni yaşayış sahəsi təqdim olunacaq və bununla da onun yaşayış hüququ və mülkiyyət hüququ tam şəkildə təmin ediləcək.

Komitə sədri qeyd edib ki, dövlət tərəfindən təklif olunan yaşayış sahəsindən əsassız olaraq imtina edən şəxslərlə bağlı hüquqi nəticələr də qanun layihəsində öz əksini tapıb. Vurğulanıb ki, keçmiş məcburi köçkünlərin mövcud güzəşt və imtiyazları dərhal dayandırılmır. Həmin şəxslər üçün nəzərdə tutulan bütün güzəştlər və sosial təminat tədbirləri əlavə olaraq üç il müddətində saxlanılır.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edərək, qanun layihəsinə dair rəhbərlik etdikləri komitələrin rəylərini diqqətə çatdırıblar. Bildirilib ki, qanun layihəsi Vətən müharibəsində əldə olunan Qələbənin hüquqi nəticəsi olmaqla, məcburi köçkünlük dövründən Böyük qayıdış mərhələsinə keçidi təsbit edir. Qeyd edilib ki, yeni hüquqi tənzimləmə müvəqqəti məskunlaşma modelini daimi məskunlaşma və mülkiyyət hüququ ilə əvəz edir, bununla da işğaldan azad edilmiş ərazilərə qayıdan məcburi köçkünlər öz evlərinin tamhüquqlu sahibi olurlar.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***"Azərbaycan"***

# Ağdaşda regional müşavirə: kənd təsərrüfatı, balıqçılıq və akvakulturanın inkişafına dair yeni dövlət proqramı müzakirə olunub

**İyunun 12-də Mərkəzi Aran iqtisadi rayonunda Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı regional müşavirə keçirilib.**





AZƏRTAC xəbər verir ki, tədbir Prezident İlham Əliyevin sədrliyi ilə bu il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və dövlət proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilib.

Ağdaşda keçirilən tədbirdə aidiyyəti dövlət qurumlarının rəhbərləri və səlahiyyətli nümayəndələr, habelə Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax, Zərdab rayonlarından olan fermerlər iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev Prezident İlham Əliyevin kənd təsərrüfatı sahəsinə göstərdiyi diqqətdən və bu məqsədlə keçirilən müşavirədə verilən tapşırıqlardan danışıb, habelə yeni dövlət proqramının məqsədi və əhəmiyyəti barədə iclas iştirakçılarına ətraflı məlumat verib. Qeyd edib ki, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aqrar sahənin inkişafı istiqamətində genişmiqyaslı islahatlar həyata keçirilib, kənd təsərrüfatı məhsullarının istehsalına dövlət dəstəyi mexanizmləri təkmilləşdirilib, aqroparklar yaradılıb, müasir suvarma sistemlərinin tətbiqi genişləndirilib, torpaq və su resurslarından istifadənin səmərəliliyinin artırılması istiqamətində mühüm layihələr icra olunub. Yeni dövlət proqramı bu islahatların məntiqi davamı olmaqla aqrar sektorun inkişafında yeni mərhələnin əsasını təşkil edir.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov çıxışında Mərkəzi Aran iqtisadi rayonunda su təminatı, mövcud meliorasiya və su təsərrüfatı infrastrukturu, həyata keçirilən və perspektivdə nəzərdə tutulan layihələr barədə ətraflı məlumat verib. Çıxış zamanı su ehtiyatlarından səmərəli və qənaətli istifadənin vacibliyi xüsusi qeyd edilib. Bildirilib ki, dövlət proqramı çərçivəsində müasir suvarma texnologiyalarının tətbiqinin genişləndirilməsi, su uçotunun təkmilləşdirilməsi, rəqəmsal idarəetmə və monitorinq sistemlərinin qurulması istiqamətində tədbirlər həyata keçiriləcək.

Kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli dövlət proqramı çərçivəsində Mərkəzi Aran iqtisadi rayonunda kənd təsərrüfatının inkişaf prioritetləri və nəzərdə tutulan dəstək mexanizmləri barədə təqdimatla çıxış edib. Təqdimatda regionun ixtisaslaşma istiqamətləri nəzərə alınmaqla taxılçılıq, meyvəçilik, bostançılıq və heyvandarlıq sahələrinin inkişafı, məhsuldarlığın yüksəldilməsi, müasir aqrotexniki yanaşmaların və innovativ texnologiyaların tətbiqi, su və torpaq resurslarından səmərəli istifadə, aqrar sığorta və subsidiya mexanizmlərinin təkmilləşdirilməsi, eləcə də fermerlərin aqrar məsləhət və təlim xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi məsələləri diqqətə çatdırılıb.

Sonra Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Orxan Hüseynzadə rayonda kənd təsərrüfatı sahəsində görülən işlər barədə məlumat verib. O, dövlət proqramının rayon üçün əhəmiyyətindən danışaraq bildirib ki, 2026-2030-cu illər üçün dövlət proqramında nəzərdə tutulan tədbirlərin operativ icrasını təmin etmək məqsədilə artıq rayonda hazırlıq işlərinə başlanılıb. Bu çərçivədə Kənd Təsərrüfatı Nazirliyi ilə birgə tədbirlər planının hazırlanması həyata keçirilir, prioritet istiqamətlər üzrə konkret fəaliyyətlər müəyyənləşdirilir və aidiyyəti qurumlar arasında koordinasiya mexanizmləri formalaşdırılır. Qeyd edib ki, dövlət proqramının qarşıya qoyduğu hədəflərə nail olunması üçün rayon səviyyəsində zəruri təşkilati və institusional tədbirlərin həyata keçirilməsi təmin ediləcək.

Daha sonra çıxış edən fermer və sahibkarlar kənd təsərrüfatı sahəsinə göstərilən diqqət və qayğıya, eləcə də davamlı dövlət dəstəyinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Onlar dövlət proqramında nəzərdə tutulan dəstək mexanizmlərinin mövcud təsərrüfatların genişləndirilməsi və yeni istehsal sahələrinin yaradılması üçün əlavə imkanlar açacağını vurğulayıblar. Eyni zamanda regionun fermerləri adından dövlət proqramında nəzərdə tutulan məsələlərin icrası istiqamətində üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsi üçün daha səylə çalışacaqlarını, məhsuldarlığın artırılması və aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsi üçün bütün imkanlardan istifadə edəcəklərini bildiriblər.

Müşavirənin yekununda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev dövlət proqramının Mərkəzi Aran iqtisadi rayonunda səmərəli icrasının təmin olunması məqsədilə bütün əlaqəli qurumlara konkret tapşırıqlar verib. Tapşırıqlarda suvarma və meliorasiya tədbirlərinin gücləndirilməsi, əkin sahələrində aqrotexniki qulluq işlərinin vaxtında aparılması, fermerlərlə maarifləndirmə işinin genişləndirilməsi, yerli icra hakimiyyəti orqanları, Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və digər aidiyyəti qurumlar arasında koordinasiyanın daha da gücləndirilməsi xüsusi vurğulanıb. Qeyd edilib ki, dövlət proqramının icrası Mərkəzi Aran iqtisadi rayonunda taxılçılıq, meyvəçilik, bostançılıq və heyvandarlığın inkişafına, məhsuldarlığın yüksəldilməsinə, fermer təsərrüfatlarının dayanıqlılığının artırılmasına və regionun aqrar potensialından daha səmərəli istifadə olunmasına mühüm töhfə verəcək.

# Göygöldə aqrar sahədə yeni dövlət proqramının müzakirəsi ilə bağlı regional müşavirə keçirilib

**İyunun 12-də Gəncə-Daşkəsən iqtisadi rayonunda Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı regional müşavirə keçirilib.**




AZƏRTAC xəbər verir ki, tədbir Prezident İlham Əliyevin sədrliyi ilə 2026-cı il 25 may tarixində kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və dövlət proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilib.

Göygöldə keçirilən tədbirdə aidiyyəti dövlət qurumlarının rəhbərləri və səlahiyyətli nümayəndələr, habelə Daşkəsən, Goranboy, Göygöl və Samux rayonlarından olan fermer və sahibkarlar iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov dövlətimizin başçısı İlham Əliyevin kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verdiyi tapşırıqlar, həmçinin Daşkəsən, Goranboy, Göygöl və Samux rayonlarının aqrar inkişaf perspektivləri barədə danışıb. O vurğulayıb ki, dövlət proqramı aqrar sektorda məhsuldarlığın, gəlirliliyin və rəqabət qabiliyyətinin artırılmasını, emal imkanlarının və ixrac potensialının genişləndirilməsini, su və torpaq ehtiyatlarından daha səmərəli istifadəni, müasir suvarma texnologiyalarının tətbiqini, toxumçuluq və damazlıq bazasının gücləndirilməsini, eləcə də kənd təsərrüfatında intensiv və yüksək əlavə dəyər yaradan inkişaf modelinə keçidin sürətləndirilməsini nəzərdə tutur. Qeyd edilib ki, Prezidentin tapşırıqlarına uyğun olaraq ölkənin bütün iqtisadi rayonlarında keçirilən regional müşavirələrin əsas məqsədi dövlət proqramında nəzərdə tutulan hədəf və vəzifələri yerlərdə izah etmək, mövcud vəziyyəti qiymətləndirmək, fermer və sahibkarların rəy və təkliflərini dinləmək, eləcə də proqramın icrası ilə bağlı fəaliyyətlərin daha səmərəli əlaqələndirilməsini təmin etməkdir.

Kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev dövlət proqramı çərçivəsində Gəncə-Daşkəsən iqtisadi rayonu üzrə nəzərdə tutulan prioritet istiqamətlər barədə təqdimatla çıxış edib. O bildirib ki, dövlət proqramı aqrar sahədə məhsuldarlığın, əlavə dəyərin və ixracyönümlülüyün artırılmasını, müasir və rəqabətqabiliyyətli istehsal modelinə keçidin sürətləndirilməsini hədəfləyir. Qeyd olunub ki, proqram çərçivəsində buğda istehsalında məhsuldarlığın yüksəldilməsi, müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi, kənd təsərrüfatı texnikası parkının yenilənməsi, lazer hamarlama texnologiyalarının tətbiqi, saxlama və logistika infrastrukturunun gücləndirilməsi, eləcə də intensiv bağçılıq və heyvandarlığın inkişafı üzrə kompleks tədbirlər nəzərdə tutulub. Təqdimatda fermerlər və sahibkarlar üçün nəzərdə tutulan dövlət dəstəyi mexanizmləri, o cümlədən subsidiya və güzəştli maliyyələşdirmə alətlərinin təkmilləşdirilməsi, soyuducu anbar və taxıl silolarının yaradılmasına dəstək, damazlıq və yem bazasının gücləndirilməsi istiqamətində görüləcək işlər barədə ətraflı məlumat verilib.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədrinin birinci müavini Xəyyam Məmmədov çıxışında Gəncə-Daşkəsən iqtisadi rayonunun kənd təsərrüfatı potensialının reallaşdırılmasında su təminatının həlledici rolundan danışıb. O, region üzrə mövcud suvarma infrastrukturu, meliorasiya vəziyyəti və kənd təsərrüfatı istehsalçılarının su təminatı istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib. X.Məmmədov kənd təsərrüfatının, eləcə də akvakultura və balıqçılıq kimi prioritet sahələrin inkişafının dayanıqlı, etibarlı su təminatı olmadan mümkünsüzlüyünü vurğulayıb və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin dövlət proqramının icrası çərçivəsində fermerlərin su təminatının yaxşılaşdırılması istiqamətində fəaliyyətini davam etdirəcəyini diqqətə çatdırıb.

Sonra Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov rayonda kənd təsərrüfatı sahəsində görülən işlər və mövcud inkişaf potensialı barədə məlumat verib. Qeyd olunub ki, son illər dövlət dəstəyi tədbirləri nəticəsində rayonda kənd təsərrüfatı istehsalının həcmi artmış, intensiv və superintensiv bağçılığın genişləndirilməsi, müasir suvarma sistemlərinin tətbiqi, əkin dövriyyəsinin səmərəliliyinin artırılması və fermerlərin dövlət dəstəyi mexanizmlərindən istifadəsinin genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. O bildirib ki, dövlət proqramında nəzərdə tutulan tədbirlərin icrası kənd təsərrüfatı istehsalının artırılmasına, fermerlərin rifahının yüksəldilməsinə və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə mühüm töhfə verəcəkdir.

Daha sonra çıxış edən "Region Aqro" MMC-nin icraçı direktoru Xatirə Məmmədova və "Milagro Ganaderia" MMC-nin rəhbəri Fərid Mustafayev kənd təsərrüfatı sahəsinə göstərilən diqqət və qayğıya, eləcə də davamlı dövlət dəstəyinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Onlar dövlət proqramında nəzərdə tutulan dəstək mexanizmlərinin mövcud təsərrüfatların genişləndirilməsi və yeni istehsal sahələrinin yaradılması üçün əlavə imkanlar açacağını vurğulayıblar. Eyni zamanda regionun fermerləri adından dövlət proqramında nəzərdə tutulan məsələlərin icrası istiqamətində üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsi üçün daha səylə çalışacaqlarını, məhsuldarlığın artırılması və aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsi üçün bütün imkanlardan istifadə edəcəklərini bildiriblər.

Müşavirənin yekununda Prezidentin köməkçisi Şahmar Mövsümov dövlət proqramının yerlərdə səmərəli icrasının təmin olunması məqsədilə yerli icra hakimiyyəti orqanları, aidiyyəti dövlət qurumları, fermerlər, sahibkarlar və investorlar arasında koordinasiyalı fəaliyyətin həlledici əhəmiyyət daşıdığını vurğulayıb. Həmçinin dövlət proqramının fermerlər və sahibkarlar arasında geniş təbliğinin təşkili, ölkəyə idxal olunan məhsulların yerli istehsalının artırılması istiqamətində özəl sektorun fəal iştirakının təmin edilməsi və aqrar dəyər zəncirinin bütün halqaları üzrə əməkdaşlığın gücləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

# Qarabağ və Şərqi Zəngəzurda kənd təsərrüfatının 2026-2030-cu illər üzrə inkişafı müzakirə edilib

**İyunun 12-də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı regional müşavirə keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbir Prezident İlham Əliyevin sədrliyi ilə bu il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və dövlət proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilib.

Tədbirdə aidiyyəti dövlət qurumlarının nümayəndələri, Zəngilan, Cəbrayıl, Qubadlı, Ağdam, Füzuli, Xocalı, Xocavənd, Şuşa, Kəlbəcər və Laçın rayonlarından olan fermer və sahibkarlar iştirak ediblər.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev Prezident İlham Əliyevin kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı müəyyən etdiyi prioritetlər və bu istiqamətdə keçirilmiş müşavirədə müzakirə olunan məsələlər barədə danışıb, həmçinin yeni dövlət proqramının qarşıya qoyduğu əsas hədəflər haqqında iştirakçılara ətraflı məlumat verib. Xüsusi nümayəndə qeyd edib ki, proqram aqrar sahədə məhsuldarlığın artırılması, ərzaq təhlükəsizliyinin gücləndirilməsi və yerli istehsalın inkişafına xidmət edir.

Sonra kənd təsərrüfatı naziri Məcnun Məmmədov aqrar sahədə əldə olunmuş nəticələr, mövcud çağırışlar və qarşıdakı dövr üçün müəyyən edilmiş inkişaf hədəfləri barədə məlumat verib. Nazir qeyd edib ki, dövlət proqramı çərçivəsində məhsuldarlığın artırılması, aqrar sığortanın əhatə dairəsinin genişləndirilməsi, balıqçılıq və akvakulturanın inkişafı, eləcə də aqrar xidmətlərin tam rəqəmsallaşdırılması nəzərdə tutulur. Həmçinin nazir Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən aqrar layihələr, yaradılan aqroparklar və kənd təsərrüfatı istehsalının genişləndirilməsi istiqamətində görülən işlərdən bəhs edib.

Tədbirdə Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Rəşad Hüseynov çıxış edərək, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın təqdimatını keçirib. Diqqətə çatdırılıb ki, dövlət proqramında fundamental və dəstəkləyici tədbirlər əks olunub.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin rəisi Rafiq Aslanov su ehtiyatlarından səmərəli istifadənin, müasir suvarma sistemlərinin tətbiqinin və meliorasiya infrastrukturunun inkişafının aqrar sahənin dayanıqlı inkişafında mühüm əhəmiyyəti barədə danışıb. O, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən su təsərrüfatı layihələri və kənd təsərrüfatının su təminatının gücləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verib.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov işğaldan azad edilmiş ərazilərdə aqrar sahənin inkişafı üçün yaradılan infrastruktur, mövcud investisiya imkanları və regionun kənd təsərrüfatı potensialı barədə danışıb. Xüsusi nümayəndə bildirib ki, əsas məqsəd bu ərazilərdə müasir texnologiyalara əsaslanan, rəqabətqabiliyyətli və ixracyönümlü aqrar istehsalın formalaşdırılması, eləcə də özəl investisiyaların cəlb edilməsidir. O, aqroparkların və emal müəssisələrinin yaradılmasının, logistika imkanlarının genişləndirilməsinin və özəl sektorun fəal iştirakının bu hədəflərə nail olunmasında mühüm rol oynadığını bildirib.

Müzakirələr zamanı aqrar sahədə fəaliyyət göstərən fermer və sahibkarlardan Səfər Sadıxov, Nicat Məmmədov və Həsən Əliyev çıxış edərək təmsil etdikləri müəssisələrdə həyata keçirilən layihələr və inkişaf planları barədə məlumat veriblər. Onlar çıxışlarında Prezident İlham Əliyev tərəfindən aqrar sahəyə göstərilən diqqət və dövlət dəstəyinə görə təşəkkürlərini bildirərək, yaradılmış əlverişli investisiya mühitinin kənd təsərrüfatının inkişafına mühüm töhfə verdiyini vurğulayıblar. Həmçinin sahibkarlar dövlət proqramı çərçivəsində nəzərdə tutulan tədbirlərin yeni istehsal sahələrinin yaradılmasına, mövcud təsərrüfatların genişləndirilməsinə və aqrar sektorun rəqabət qabiliyyətinin artırılmasına əlavə stimul verəcəyini qeyd ediblər.

Müşavirənin yekununda Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlət proqramında nəzərdə tutulan hədəflərə nail olunmasının bütün aidiyyəti qurumların, sahibkarların və fermerlərin birgə səylərindən asılı olduğunu bildirib. Xüsusi nümayəndə Prezident İlham Əliyevin aqrar sahədə fəaliyyət göstərən sahibkarlara ünvanladığı çağırışları diqqətə çatdıraraq, ölkəyə idxal olunan məhsulların yerli istehsal hesabına əvəzlənməsi, özünütəminetmə səviyyəsinin yüksəldilməsi və dövlət proqramının icrasında özəl sektorun fəal iştirakının təmin edilməsinin əsas vəzifələrdən olduğunu qeyd edib. O həmçinin proqramdan irəli gələn tapşırıqların icrasına vaxt itirmədən başlanılmasının və bütün tərəflərin bu prosesə fəal qoşulmasının vacibliyini vurğulayıb.

# İsmayıllıda aqrar sahədə yeni dövlət proqramının müzakirəsi ilə bağlı regional müşavirə keçirilib

**Dağlıq Şirvan iqtisadi rayonunda Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı aidiyyəti dövlət qurumlarının nümayəndələri və fermerlərin iştirakı ilə regional müşavirə keçirilib.**






AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov Azərbaycan Respublikası Prezidentinin kənd təsərrüfatı sahəsinə göstərdiyi diqqət və bu müstəvidə 25 may tarixində keçirilmiş müşavirənin mahiyyəti, bu istiqamətdə verilmiş tapşırıqlar, son illərdə ölkədə aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən genişmiqyaslı islahatlar, dövlət dəstəyi mexanizmləri, suvarma infrastrukturunun və aqroparkların inkişafı, habelə ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində əldə edilmiş nəticələr barədə məlumat verib. O, dövlət proqramının aqrar sektorun yeni inkişaf mərhələsini müəyyən etdiyini, proqramın əsas məqsədinin məhsuldarlığın artırılması, intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidin sürətləndirilməsi, emal və ixrac imkanlarının genişləndirilməsi, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafının təmin edilməsi olduğunu vurğulayıb.

Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova dövlət proqramının aqrar sahədə intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidi sürətləndirəcəyini, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, idxaldan asılılığın azaldılmasına və kənd təsərrüfatının dayanıqlı inkişafına mühüm töhfə verəcəyini qeyd edib. Dövlət proqramı çərçivəsində müasir suvarma sistemləri tətbiq olunan sahələrin 130 min hektardan 300 min hektara çatdırılması, 22 rayon üzrə kombayn parkının 571 yeni kombaynla yenilənməsi, 84,9 min hektar sahədə lazer hamarlama texnologiyasının tətbiqi, intensiv bağçılığın genişləndirilməsi və buğda istehsalında məhsuldarlığın hədəf rayonlarda 50 sentnerə yüksəldilməsi nəzərdə tutulur. O, həmçinin 150 min ton əlavə taxıl silosu və 100 min ton əlavə soyuducu anbar tutumunun yaradılmasının, bu məqsədlə avadanlıqların dəyərinin 40 faizinin güzəşt hesabına, 40-50 faizinin isə kredit faiz subsidiyası mexanizmi vasitəsilə dəstəklənəcəyini diqqətə çatdırıb. Nazir müavini əlavə edib ki, proqram çərçivəsində süd istehsalının 11 faiz, mal və qoyun əti istehsalının isə 21 faiz artırılması, eləcə də bu məhsullar üzrə idxaldan asılılığın əhəmiyyətli dərəcədə azaldılması hədəflənir.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədrinin müavini İlham Bayramov çıxışında Dağlıq Şirvan iqtisadi rayonunun aqrar inkişaf potensialının reallaşdırılmasında dayanıqlı su təminatının həlledici rol oynadığını vurğulayıb. O, regionda 53,5 min hektardan çox suvarılan sahənin mövcud olduğunu, suvarma infrastrukturunun modernləşdirilməsi, su itkilərinin azaldılması və müasir suvarma texnologiyalarının tətbiqi istiqamətində mühüm işlərin görüldüyünü bildirib. İlham Bayramov qeyd edib ki, həyata keçirilən strateji layihələr, xüsusilə Şirvan suvarma kanalının tikintisi, regionda kənd təsərrüfatı istehsalının genişlənməsinə, su təminatının yaxşılaşdırılmasına və dövlət proqramında nəzərdə tutulan hədəflərə nail olunmasına əhəmiyyətli töhfə verəcəkdir. O qeyd edib ki, layihə çərçivəsində respublikanın 9 rayonu üzrə 112 min hektar mövcud suvarma sahəsinin su təminatının yaxşılaşdırılması və 116 min hektar yeni torpaq sahəsinin əkin dövriyyəsinə cəlb edilməsi nəzərdə tutulur. Bununla yanaşı, cari ildə Ağsu, İsmayıllı və Şamaxı rayonlarında 3,9 kilometr kanalın beton üzlüyə alınması və 3 subartezian quyusunun təmiri planlaşdırılır. İlham Bayramov vurğulayıb ki, dövlət proqramında nəzərdə tutulan tədbirlərin əsas istiqamətlərindən biri müasir və innovativ suvarma texnologiyalarının tətbiqinin genişləndirilməsi, rəqəmsal monitorinq və idarəetmə sistemlərinin qurulması, su uçotunun təkmilləşdirilməsi və su istifadəçiləri ilə əməkdaşlıq mexanizmlərinin gücləndirilməsidir.

Sonra İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov çıxışında Dağlıq Şirvan iqtisadi rayonunun aqrar potensialından səmərəli istifadənin əhəmiyyətini vurğulayıb, son illərdə rayonda kənd təsərrüfatının inkişafı istiqamətində əldə olunan nəticələr barədə məlumat verib. O qeyd edib ki, 2025-ci ildə rayonda 31 min hektar əkin sahəsindən 96 min ton taxıl məhsulu əldə edilib. Həmçinin İvanovka kəndində 10 milyon manat investisiya dəyərinə malik süd emalı zavodunun inşasının regionun aqrar və emal potensialının gücləndirilməsinə mühüm töhfə verəcəyi bildirilib. Çıxışında dövlət proqramında nəzərdə tutulan hədəflərə nail olunması üçün məhsuldarlığın artırılması, müasir suvarma sistemlərinin tətbiqi və dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsinin vacibliyi vurğulanıb.

Daha sonra çıxış edən "Ağsu Aqropark" QSC-nin baş direktoru Atabala İsayev və "Şirvan Aqro" MMC-nin direktor müavini Kamran Süleymanov rəhbərlik etdikləri təsərrüfatların fəaliyyəti və perspektivləri barədə məlumat veriblər. Çıxışçılar kənd təsərrüfatı sahəsinə göstərilən diqqət və qayğıya, eləcə də davamlı dövlət dəstəyinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Həmçinin dövlət proqramında nəzərdə tutulan dəstək mexanizmlərinin mövcud təsərrüfatların genişləndirilməsi və yeni istehsal sahələrinin yaradılması üçün əlavə imkanlar açacağını vurğulayıblar. Eyni zamanda regionun fermerləri adından dövlət proqramında nəzərdə tutulan məsələlərin icrası istiqamətində üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsi üçün daha səylə çalışacaqlarını, məhsuldarlığın artırılması və aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsi üçün bütün imkanlardan istifadə edəcəklərini bildiriblər.

Müşavirənin yekununda Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov dövlət proqramında nəzərdə tutulan hədəflərə nail olunmasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əlaqələndirilmiş çevik və sistemli fəaliyyəti, eləcə də özəl sektorun fəal iştirakı ilə mümkün olacağını qeyd edib, fermerləri və sahibkarları ölkəyə idxal olunan məhsulların yerli istehsalının artırılması istiqamətində həyata keçirilən təşəbbüslərə qoşulmağa çağırıb.

Qeyd edilib ki, dövlət proqramının icrası Dağlıq Şirvan iqtisadi rayonunda taxılçılıq, meyvəçilik, bostançılıq və heyvandarlığın inkişafına, məhsuldarlığın yüksəldilməsinə, fermer təsərrüfatlarının dayanıqlılığının artırılmasına və regionun aqrar potensialından daha səmərəli istifadə olunmasına mühüm töhfə verəcək.

# Baş prokuror paytaxtın Nərimanov rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

İyunun 12-də baş prokuror Kamran Əliyev Bakı şəhəri Nərimanov Rayon Prokurorluğunun inzibati binasında Nərimanov rayonundan olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 48 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

*"Azərbaycan"*



## *Şahmar MÖVSÜMOV:* "Yeni dövlət proqramı çərçivəsində təxminən 6 milyard manat investisiya qoyulması gözlənilir"

**"Bölgələrdə keçirilən müşavirələrin məqsədi aqrar sahə üzrə 2026-2030-cu illər üçün dövlət proqramından irəli gələn vəzifələrin izah edilməsi, nəzərdə tutulan hədəflərin fermerlərə və sahibkarlara çatdırılmasıdır. Eyni zamanda bu hədəflərə nail olmaq üçün hansı alətlərdən istifadə ediləcək, dövlət tərəfindən hansı dəstək göstəriləcək, bu dəstəyin həcmi nə olacaq - bütün bunlar izah olunur".**

AZƏRTAC xəbər verir ki, bunu Göygöl rayonunda jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov deyib.

Dövlət proqramında bir çox sahə üzrə çox konkret hədəflərin müəyyənləşdiyini deyən Şahmar Mövsümov bildirib ki, proqram, ümumilikdə 5 prioritet məsələni, 16 fəaliyyət istiqamətini və 86 tədbiri əhatə edir. Bu tədbirlərin icrası nəticəsində hər sahə üzrə konkret rəqəmlər hədəflənib. Buna müasir suvarma sistemlərinin tətbiq olunduğu hazırkı 130 min hektar sahənin 300 min hektara çatdırılmasını, pambıqçılıq və buğda istehsalında məhsuldarlığın bir hektardan 5 tona qədər artırılmasını misal göstərmək olar.

"İndiyə qədər dövlət dəstəyi alətləri daha çox bitkiçilik üzərində formalaşırdı. Yeni dövlət proqramında isə həm heyvandarlıq, həm də akvakultura və balıqçılıq üçün də konkret tədbirlər nəzərdə tutulur", - deyə o əlavə edib.

Dövlət proqramından gözləntilər barədə danışan Prezidentin köməkçisi qeyd edib ki, təxminən 6 milyard manat həcmində investisiyanın cəlb ediləcəyi gözlənilir. Bunun 2,2 milyard manatdan çoxu dövlət tərəfindən, 3,7 milyard manatı isə özəl sektor tərəfindən investisiya kimi nəzərdə tutulur.

## *Məcnun MƏMMƏDOV:* "Ekstensiv əkinçilikdən intensiv əkinçiliyə keçid təşviq ediləcək"

**"Kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illəri əhatə edən dövlət proqramı çərçivəsində ekstensiv əkinçilikdən intensiv əkinçiliyə keçid təşviq ediləcək".**

AZƏRTAC xəbər verir ki, bunu Zəngilanda jurnalistlərə açıqlamasında kənd təsərrüfatı naziri Məcnun Məmmədov deyib.

Nazir qeyd edib ki, proqram çərçivəsində müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi, Azərbaycanda ilk dəfə torpaq konsolidasiyası layihələrinin həyata keçirilməsi, intensiv bağçılığın və istixana sahələrinin artırılması nəzərdə tutulur.

Məcnun Məmmədov bildirib ki, yeni proqramda dövlət dəstəyinin prioritetləri də dəyişəcək. Belə ki, əvvəllər subsidiyaların cəmi 6 faizi heyvandarlığa yönəldildiyi halda, yeni dövrdə bu göstərici təxminən 40 faizə çatdırılacaq. Heyvandarlıq sahəsində məhsul, süni mayalanma və sertifikat subsidiyaları kimi yeni dəstək mexanizmləri tətbiq ediləcək.

Nazir qeyd edib ki, dövlət proqramı xüsusilə kiçik və orta fermer təsərrüfatlarının inkişafına xidmət edəcək. Bu məqsədlə heyvandarlıq təsərrüfatlarının dəstəklənməsi, süd və yun toplama məntəqələrinin yaradılması nəzərdə tutulur ki, bu da fermerlərin məhsullarının bazara çıxışını asanlaşdıracaq.

Onun sözlərinə görə, bu ildən alma və nar, gələn ildən isə digər meyvə və bitki növləri üzrə məhsul subsidiyalarının tətbiqi planlaşdırılır. Bu mexanizm fermerlərə məhsullarını emal müəssisələrinə təhvil verərək əlavə dəstək əldə etməyə imkan yaradacaq.

# 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbir

**Dövlət Gömrük Komitəsində 15 İyun - Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib.**




Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, daha sonra Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırov öz çıxışında dövlətinin, xalqının maraqlarını daim hər şeydən üstün tutan, ömrünün hər anını ölkəsinin xoşbəxt, firavan gələcəyinə həsr edən Ümummilli Liderin 15 iyunda yenidən hakimiyyətə qayıtması ilə Azərbaycanın davamlı inkişaf dövrünə qədəm qoyduğunu bildirərək vurğulayıb ki, dahi rəhbərin dərin zəkası, idarəçilik qabiliyyəti sayəsində ölkəmizdə bütün sahələrdə, o cümlədən gömrük işinin təşkili istiqamətində mühüm addımlar atıldı və müasir standartlara cavab verən gömrük xidməti yaradıldı.

Diqqətə çatdırılıb ki, məhz Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla reallaşdırılması nəticəsində işğal altındakı ərazilərimiz azad edildi, tarixi ədalət bərpa olundu, davamlı iqtisadi inkişafın yeni mərhələsinə qədəm qoyan Azərbaycan regionun lider dövlətinə çevrildi.

O da qeyd olunub ki, Ümummilli Liderin ideyaları daim yaşayacaq və Azərbaycan xalqı Ulu Öndərin xatirəsini hər zaman əziz tutacaq.

Tədbirdə 15 İyun - Milli Qurtuluş Gününün əhəmiyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

*"Azərbaycan"*

## *İlhamə QƏDİMOVA:* "Məhsuldarlığın maksimum artırılması aqrar sahənin qarşısında duran əsas vəzifələrdəndir"

**"Məhsuldarlığın maksimum artırılması aqrar sahənin qarşısında duran əsas vəzifələrdəndir. Burada əsas məqsəd yalnız əkin sahələrinin artırılması deyil, mövcud torpaq və su resurslarından daha səmərəli istifadə etməklə hər hektardan daha çox və daha keyfiyyətli məhsul əldə etməkdir".**

AZƏRTAC xəbər verir ki, bunu kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı İsmayıllıda keçirilən Dağlıq Şirvan iqtisadi rayonu üzrə regional müşavirədən sonra jurnalistlərə açıqlamasında bildirib.

Nazir müavini qeyd edib ki, bu gün yeni dövlət proqramının Dağlıq-Şirvan iqtisadi regionu üzrə təqdimatı keçirildi: "Dağlıq-Şirvan iqtisadi rayonu üzrə çağırışları səsləndirdik. Xüsusilə qeyd etmək istərdim ki, Ağsu rayonunda buğda istehsalının artırılması üçün ayrıca layihə həyata keçiriləcək. Bu, pilot layihə kimi dövlət proqramında nəzərdə tutulub. Yəni Ağsu ixtisaslaşmış rayonlar üzrə buğda istehsalının artırılması nəzərdə tutulan rayonlardandır".

İlhamə Qədimova bildirib ki, Dağlıq-Şirvan iqtisadi rayonuna xas olan digər sahələrdən biri də üzümçülükdür. Bu rayonlarda üzümçülüyün inkişafı və şərabçılıq təsərrüfatlarının yaradılması ilə bağlı işlər görüləcək. "Sahibkarlarla müzakirələr aparıldı, çağırışlar səsləndirildi və daha inkişaf edən bir modelə keçmək üçün hansı addımlar atılmalıdırsa bu barədə tövsiyələr verildi", - deyə o vurğulayıb.

## *Seymur SƏFƏRLİ:* "Dövlət proqramı çərçivəsində güzəştli kreditlər və faiz subsidiyaları nəzərdə tutulur"

**"Əsas məqsədimiz regionlarda keçirilən müşavirələr vasitəsilə fermerlərin, sahibkarların, yerli icra hakimiyyətlərinin və aidiyyəti dövlət qurumlarının yeni dövlət proqramı barədə məlumatlandırılması, nəzərdə tutulan tədbirlərin yerlərə çatdırılması, kənd təsərrüfatının inkişafına yerində dəstəyin təmin olunmasıdır. Bu məqsədlə ilk müşavirələrdən biri Ağdaş rayonunda keçirildi. Müşavirədə fermerlərin, sahibkarların və dövlət qurumlarının iştirakı ilə kənd təsərrüfatının əsas prioritet istiqamətləri müəyyənləşdirildi, dövlət dəstək mexanizmləri barədə məlumat verildi".**

Bu fikirləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Ağdaşda kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün dövlət proqramının müzakirəsi ilə bağlı keçirilən regional müşavirədən sonra kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli deyib.

Nazir müavini bildirib ki, əsas hədəflərdən biri də məhsuldarlığın artırılmasıdır. Xüsusilə buğda, ərzaqlıq buğda və pambıq istehsalında məhsuldarlığın yüksəldilməsi, intensiv kənd təsərrüfatının inkişafı - intensiv bağçılıq, istixana təsərrüfatları və intensiv heyvandarlıq prioritet istiqamətlər kimi müəyyən olunub. Məqsəd təkcə əkin sahələrinin genişləndirilməsi deyil, mövcud sahələrdə daha yüksək məhsuldarlığın əldə edilməsidir.

Üçüncü əsas istiqamət ixrac potensialının artırılması və emal sənayesinin inkişafıdır. Məhsulun tarladan son emal mərhələsinədək zəncir üzrə əlavə dəyər yaradılması və bunun ixrac imkanlarının genişləndirilməsi əsas prioritetlərdəndir. Nəticədə bu proseslər ölkənin ərzaq təhlükəsizliyinə, regionların sosial-iqtisadi inkişafına və fermer gəlirlərinin artmasına xidmət edəcək.

"Nazirlik çərçivəsində artıq işçi qrupları yaradılır. Bu qruplar regionlar üzrə fermer və sahibkarlarla birbaşa işləyəcək, onların layihələrini və investisiya planlarını dəqiqləşdirəcək, proqramla bağlı əməkdaşlıq mexanizmləri formalaşdıracaq. Eyni zamanda yerlərdə yarana biləcək çətinliklərin operativ şəkildə həlli üçün yerli icra hakimiyyətləri və digər qurumlarla koordinasiya təmin ediləcək", - deyə S.Səfərli vurğulayıb.

Onun sözlərinə görə, dövlət proqramı çərçivəsində güzəştli kreditlər və faiz subsidiyaları da nəzərdə tutulur.

1993 MİLLİ QURTULUŞ 2026



# Unudulmaz tarixi şəxsiyyət

**Hər bir xalqın tarixində onun xilaskarı kimi dərin izlər qoyan və xalqın fəxrinə çevrilən dahi şəxsiyyətlər olmuşdur. Azərbaycan xalqının da tarixində xilaskar kimi böyük fəxrlə yad etdiyimiz dahi şəxsiyyət Ulu Öndər Heydər Əlirza oğlu Əliyevdir. Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev tarixin ən çətin, məsuliyyətli anlarında xalqını sevərək hifz edən, milli mövcudluğunu qoruyaraq xilaskarlıq missiyasını uğurla yerinə yetirən görkəmli şəxsiyyət və qüdrətli dövlət xadimi olmuşdur. Taleyin hökmü ilə iki dəfə bu çətin və şərəfli vəzifəni üzərinə götürən Ümummilli Lider hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqımızın köməyinə çatmış, respublikamızı böyük bəlalardan xilas etmişdir.**

Heydər Əliyevin adı daim Azərbaycan vətəndaşlarının və dünya azərbaycanlılarının qəlbində qürur və fərəh hissi yaratmışdır. Dünya ölkələrində də Ulu Öndəri tanıyanlar və haqqında eşidənlər onu böyük sevinc və məhəbbətlə yad edirlər. Heydər Əliyevə olan bu sevgi onun öz xalqına və dövlətinə sədaqətlə xidmət etməsi ilə bağlıdır. Onu da qeyd etmək lazımdır ki, bu sevgi və məhəbbəti qazanmaq heç də asan olmamış, çox çətin və mürəkkəb bir şəraitdə uzun müddət uğurla həyata keçirilən davamlı və məqsədli fəaliyyətin nəticəsində əldə edilmişdir. Belə ki, Heydər Əliyevin ilk dəfə 1969-1982-ci illərdə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi kimi respublikamıza rəhbərlik etdiyi dövrdə apardığı hərtərəfli və əhatəli işlər, onun özünə və ətrafındakı rəhbər işçilərə qarşı olan tələbkarlığı, yüksək işgüzarlığı və idarəetmə bacarığı sayəsində Azərbaycanın iqtisadiyyatı möhkəmləndi. Neft-maşınqayırma və kimya sənayesi, kənd təsərrüfatı və digər sahələrdə respublikamız ittifaqda öncül sıraya çıxdı, istehsal etdiyi rəqabətqabiliyyətli məhsulları 65 xarici ölkəyə ixrac edərək nəinki SSRİ-də, həm də beynəlxalq aləmdə tanınmağa başladı. Bu dövrdə respublikamızda bir çox nəhəng zavod tikilib istifadəyə verildi, bəzi sənaye müəssisələri yeni texnologiya ilə təmin edilərək modernləşdi. Emal sənayesinin inkişafı, xüsusilə kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin tikilməsi geniş vüsət aldı. Regionlarda üzüm, meyvə və tərəvəz emalı zavodlarının, çay və tütün emalı fabriklərinin, habelə ət kombinatları və süd, yun emalı zavodlarının, quşçuluq fabriklərinin və heyvandarlıq komplekslərinin tikilib istifadəyə verilməsi kənd təsərrüfatının sənaye əsasında inkişafı ilə yanaşı, respublikamızda yüngül və yeyinti sənayesinin yüksəlişinə də güclü təkan verdi. Üzüm istehsalı 2 milyon tonu ötərək respublikamız ittifaq miqyasında birinci yeri tutdu, ilk dəfə olaraq 1 milyon tondan çox strateji məhsul olan pambıq istehsalına nail olundu. Azərbaycan qısa müddət ərzində iqtisadiyyatın bütün sahələrində Sovet İttifaqında geridə qalmış bir respublikadan qabaqcıl yerə çıxdı. Xüsusilə kənd təsərrüfatında məhsuldarlığın artırılmasında, maşınqayırma və kimya sənayesinin inkişafında çox uğurlu nəticələr əldə olunaraq, ölkəmizdə müasir aqrar-sənaye kompleksi yaradıldı. Bütün bunlar respublikamızın gələcəkdə müstəqil dövlət kimi fəaliyyət göstərməsinə və inkişafına yönəlmiş tədbirlər idi. Ümummilli Lider Heydər Əliyev həmin müddətdə Azərbaycanda həyata keçirdiyi taleyüklü tədbirlərin mahiyyətini belə xarakterizə edirdi: "Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur. Məsələn, mən burada çoxlu elektrik stansiyaları tikdirdim. Məndən soruşurdular ki, bunlar sənin nəyinə lazımdır? Mən onlara bunu nə üçün etdiyimi demirdim... Amma mən istəyirdim ki, mənim ölkəm, mənim xalqım istənilən şəraitdə müstəqil yaşaya bilsin". Həyata keçirilən bu geniş və əhatəli tədbirlər onu deməyə əsas verir ki, artıq keçən əsrin 80-ci illərinin əvvəlində Azərbaycan müstəqil dövlət kimi yaşamaq üçün bütün potensiala malik idi. Bu məsələlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında" sərəncamında da özünün əhatəli əksini tapmışdır. Sərəncamda qeyd edilir: "1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına inteqrasiya proseslərinin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır". Bu, Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövrdə həyata keçirdiyi ağlasığmaz nəhəng işlərə və əldə edilən nəticələrə verilən ən yüksək və real qiymətdir.

Təbii ki, müstəqil dövlətin yaradılması üçün müstəqil iqtisadiyyatın qurulması kifayət deyildi. Bunun üçün milli şüuru oyatmaq lazım idi. Ötən əsrin 70-ci illərindən başlanan milli-mədəni dirçəliş, özünüdərk, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı dövlətçilik ideyasının milli azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsinə zəmin yaratdı. Məhz Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi ki, iqtisadiyyatın və milli-mədəni həyatımızın yüksək inkişafını gələcəkdə də davam etdirmək, müasir çağırışlara uyğun idarəetmə qabiliyyəti və savadı olan gənc kadrların yetişdirilməsi ön plana çəkildi. Bu məqsədlə hər il yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin ən nüfuzlu universitet və ali məktəblərində təhsil almaq imkanı qazandı.

Azərbaycan Respublikasının qısa müddət ərzində əldə etdiyi dinamik inkişaf və Heydər Əliyevin Azərbaycanda qazandığı uğurlu nəticələr onun ittifaq rəhbərliyində təmsil olunmasına zəmin yaratdı. Ulu Öndər 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olundu. Bu vəzifədə işlədiyi müddətdə (1982-1987) Heydər Əliyev ən çətin problemlərin həlli ilə məşğul olaraq tezliklə ittifaqda böyük nüfuz qazandı, özünün yüksək dövlətçilik və idarəetmə qabiliyyətinə malik olmasını sübut etdi. Bununla yanaşı, xalqımızın fəxri olan Heydər Əliyev həmin illərdə öz doğma diyarı ilə daim maraqlanır, Azərbaycanın bütün sahələrdə daha da qüdrətlənməsi üçün əlindən gələn köməyi əsirgəmirdi.

İttifaq rəhbərliyindən məlum səbəblərdən uzaqlaşdıqdan sonra Heydər Əliyev öz vətənində xalqı ilə birlikdə olmaq üçün 1990-cı il iyulun 22-də Naxçıvana gəldi. Həmin vaxtlar blokada şəraitində olan Naxçıvan həm ermənilərlə müharibə edir, həm də yaranmış iqtisadi çətinlikləri aradan qaldırmağa çalışırdı. Belə bir vəziyyətdə tanınmış siyasi xadim, həmişə vətəni və xalqı üçün həvəslə çalışmış Heydər Əliyev Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi fəaliyyət göstərməsi naminə əsl mücadiləyə qalxdı. Onun müstəqillik uğrunda əzmkarlıqla mübarizə apardığını görən Naxçıvan əhalisi Heydər Əliyevi 1990-cı ilin sentyabr ayında Naxçıvan Muxtar Respublikasına və Azərbaycan SSR-in Ali Sovetinə deputat seçdi.

1990-cı il noyabrın 17-də muxtar respublikanın Ali Sovetinin birinci sessiyasında Heydər Əliyevin təşəbbüsü ilə doğma Azərbaycanımızın üçrəngli bayrağı qaldırıldı və bununla da həmin vaxtdan müstəqilliyimizin ikinci dəfə əsası qoyuldu. Bundan başqa, onun təklifi ilə muxtar respublikanın adından "Sovet Sosialist" sözləri çıxarıldı və Naxçıvan MR Ali Soveti Ali Məclis adlandı. Habelə dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edildi. Onu da qeyd etmək lazımdır ki, Sovet İttifaqının çox sərt və məşəqqətli qaydalarının mövcudluğu şəraitində belə qərarların qəbul edilməsi böyük cəsarət tələb edirdi. Heydər Əliyev belə yenilməz cəsarət sahibi olması ilə fərqlənirdi.

Heydər Əliyev parlamentin sessiyalarında Dağlıq Qarabağ problemi ilə əlaqədar Bakı rəsmilərinin yeritdiyi siyasəti və Moskvanın mövqeyini kəskin tənqid edir, SSRİ-nin tezliklə dağılacağını bəyan edirdi. Lakin həmin vaxtlar ölkəyə rəhbərlik edən səbatsız iqtidar bu fikirlərə məhəl qoymur, Kremlə sədaqət nümayiş etdirirdi. Buna baxmayaraq Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının yaradılması üçün mübarizəsini açıq formada əzmlə davam etdirirdi. SSRİ-nin saxlanmasına dair 1991-ci ilin 17 mart tarixində Sovet İttifaqının ərazisində keçirilən refendumda Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası iştirak etmədi. Naxçıvan əhalisi Heydər Əliyevə böyük inam və ümid bəsləyərək onun muxtar respublikaya rəhbərlik etməsini arzu edirdi. Xalqın bu istəyi 1991-ci il sentyabrın 3-də reallaşdı və Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə sədr seçildi. Bununla da nəinki Naxçıvanı muxtar respublika kimi, həm də Azərbaycanın müstəqil dövlət kimi məhv olmasından qurtarmasının təməlini qoydu. Eyni zamanda muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsi üçün bütün lazımi tədbirlər görüldü və iqtisadiyyatda dönüş yaradılması məqsədilə islahatlar, xüsusilə torpaq islahatı başladı.

Keçən əsrin 90-cı illərinin əvvəli dünya tarixinə SSRİ kimi nəhəng bir ölkənin heç bir xarici müdaxilə olmadan dağılması tarixi kimi daxil oldu. İttifaq respublikaları bir-birinin ardınca öz müstəqilliklərini elan etdilər. Azərbaycan Respublikası da 1991-ci il 18 oktyabr tarixində özünün dövlət müstəqilliyi aktını qəbul etdi. Təəssüf ki, Azərbaycanın ikinci dəfə əldə etdiyi müstəqilliyin ilk illərinə təsadüf edən dövr müasir tariximizdə hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xarakterizə olunur.

Belə ki, ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərin əvvəlində Azərbaycan həlli çətin görünən problemlə üzləşdi. Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətində separatizmin güclənməsi və bunun əsasında Ermənistan-Azərbaycan münaqişəsinin getdikcə müharibə xarakteri alması, azərbaycanlıların öz doğma obalarından didərgin düşməsi, torpaqlarımızın dalbadal işğalı baş verdi. Bütün bunlar o dövrün adi mənzərəsi idi və respublika rəhbərlərinin dəyişməsi ilə nəticələnirdi. Müstəqil dövlət kimi yenicə formalaşmağa başlayan respublikamızda Ali Sovetin sədri vəzifəsi boş olduğundan həmin vəzifəyə seçki keçirilməsi üçün 1992-ci il mayın 18-də sessiya çağırıldı. Sessiyada mən Ali Sovetin deputatı kimi çıxış edərək bu vəzifəyə görkəmli dövlət xadimi, böyük dövlətçilik və idarəetmə təcrübəsinə malik, həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin namizədliyini təklif etdim. Bu təklifin səsə qoyulması üçün Heydər Əliyevin razılığı tələb olunduğundan Naxçıvana telefon açıb Heydər Əliyevlə danışmaq qərara alındı. Lakin çoxsaylı cəhdlərimizə baxmayaraq Naxçıvanla əlaqə yaratmaq mümkün olmadı və təklif keçmədi. Bütün bunlar televiziya vasitəsilə birbaşa yayımlandı. Vəziyyətin belə alınması Azərbaycan Xalq Cəbhəsi və Müsavat Partiyası rəhbərlərinin Azərbaycan Respublikasında rəhbərliyə gəlməsi ilə nəticələndi.

Bundan bir müddət sonra Naxçıvanda Heydər Əliyevin rəhbərliyi ilə müstəqilliyin qorunub saxlanması istiqamətində aparılan əhatəli işlərin daha geniş vüsət alması fonunda Azərbaycanda hərc-mərcliyin və xaosun getdikcə güclənməsi, idarəetmədə özbaşınalığın genişlənməsi müşahidə olunurdu. Naxçıvanda müstəqilliyin möhkəmləndirilməsi istiqamətində görülən siyasi, hərbi və iqtisadi fəaliyyətin Azərbaycanda da həyata keçirilməsinin zəruriliyi Heydər Əliyevin ətrafında birləşən böyük bir siyasi qüvvənin formalaşmasına ehtiyac yaratmışdı. Bu məqsədlə 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər tanınmış ziyalısı "Səs" qəzeti vasitəsilə Ulu Öndərə "Azərbaycan Sizin sözünüzü gözləyir" deyə müraciət etdi. Görkəmli dövlət xadimi Azərbaycan ziyalılarının müraciətinə oktyabrın 24-də "Yeni müstəqil Azərbaycan uğrunda!" çağırışı ilə başlayan cavab verdi və 1992-ci il noyabrın 21-də Naxçıvanda konfrans keçirildi. Konfransda Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar qəbul edildi və Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi.

Heydər Əliyevin Naxçıvanda qazandığı uğurları gözü götürməyən AXC-Müsavat hakimiyyəti Azərbaycanda qayda-qanunu bərpa etmək, Dağlıq Qarabağ müharibəsində dönüş yaratmaq əvəzinə Naxçıvanda silah gücünə çevrilişə cəhdlər edib, Heydər Əliyevi hakimiyyətdən uzaqlaşdırmaq istəyirdi. Ancaq bu cəhdlərin heç biri baş tutmadı. Çünki əhali öz doğma oğlunun arxasında möhkəm dayandı, Heydər Əliyevin dahi şəxsiyyət olması bir daha təsdiq olundu. Bununla da bütün Azərbaycan xalqı Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışını səbirsizliklə gözləyir və bu görkəmli dövlət xadiminə böyük ümidlər bəsləyirdi.

Bu dövrdə ölkədə separatçı qüvvələrin fəallaşması, Gəncə qiyamının alovlanması ilə vətəndaş müharibəsinin başlanması və respublikanın parçalanma təhlükəsinin artması nəticəsində xalqın və müstəqil Azərbaycan dövlətinin gələcəyi sual altına qoyuldu. Bax, belə bir ümidsiz siyasi, sosial, iqtisadi və hərbi şəraitdə, dövlətçiliyimizin müqəddəratının həll edildiyi 1993-cü ilin vahiməli iyun günlərində xalqın təkidli tələbləri və iqtidarın məcburiyyət qarşısında qalıb davamlı xahişi ilə Heydər Əliyev Bakıya gəldi və iyun ayının 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi.

Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı ilə müstəqil Azərbaycanı məhv olmaq fəlakətindən xilas etməsi xalqımızın həmin qərarı qəbul etməsində nə qədər ədalətli və uzaqgörən olduğunu sübut etdi. Çünki dövləti tarixi burulğanlardan xətərsiz çıxarıb xilas etmək, sabit və ardıcıl inkişaf yoluna çıxarmaq üçün rəhbərdən böyük siyasi iradə və qətiyyət, çevik və dərin ağıl, zəngin təcrübə, başlıcası isə xalqa tükənməz sevgi tələb olunurdu. Bütün bu xüsusiyyətləri özündə cəmləşdirən Ulu Öndər Heydər Əliyev dünyanın güc mərkəzlərinin iradəsinə qarşı çıxaraq, onların Azərbaycan üçün hazırladıqları məkrli planları alt-üst etdi, xalqımızı və dövlətimizi qorxunc təhlükələrdən uğurla keçirərək ardıcıl inkişaf dövrünə çatdırdı.

Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin Ali Sovetin Sədri vəzifəsində çalışdığı qısa zaman kəsiyində Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi gələcək inkişafının təməli qoyuldu. Onun təşəbbüsü ilə parlamentdə müstəqil dövlətimiz üçün həyati əhəmiyyətli qanunlar qəbul olundu. Tezliklə cənub bölgəsində "Talış-Muğan Respublikası" yaratmaq ideyasını ortaya atan və şimalda "Sadval"çı separatçıların respublikanı parçalamaq kimi məkrli niyyətlərinə layiqli cavablar verildi. Bundan sonra ordu quruculuğu sahəsində mühüm işlər görüldü. Cəbhədə atəşkəs elan olundu. Bütün türk dünyasının ən nadir tarixi simalarından sayılan Heydər Əliyevin rəhbərliyi ilə respublikamız dünyanın tanınmış neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı, qədim İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal təşəbbüskarına və iştirakçısına çevrildi. İqtisadiyyatın dirçəldilməsi üçün konkret addımlar atıldı. Sənayedə, kənd təsərrüfatında islahatlar aparıldı. Torpaq kəndliyə verildi. Ölkəmiz tezliklə vahid Avropa ailəsinə qəbul edildi, cəmiyyətin demokratikləşməsi, insan hüquq və azadlıqlarının qorunması sahəsində səmərəli tədbirlər həyata keçirildi. Müstəqil Azərbaycanın yeni Konstitusiyası qəbul edildi, ilk parlament və bələdiyyə seçkiləri keçirildi.

Ulu Öndərin heyrətamiz xilaskarlıq missiyası nəticəsində Azərbaycan tezliklə təlatümlərdən, sarsıntılardan uğurla çıxaraq gələcəyə inamla baxan bir dövlətə çevrildi. Onun bu qayıdışının dövlətçiliyimiz üçün misilsiz faydası oldu. Bu, sözün həqiqi mənasında, Azərbaycan dövlətinin və xalqımızın qurtuluşu oldu. Heç də təsadüfi deyil ki, sonralar xalqın müxtəlif təbəqələrinin nümayəndələri öz çıxışlarında bu günün Azərbaycan xalqının milli qurtuluş günü kimi elan edilməsini tələb edirdilər. Həmin vaxt mən Milli Məclisin deputatı idim və tale elə gətirdi ki, 1997-ci il iyunun 17-də parlamentdə çıxış edərək belə bir qərarın qəbul olunmasını təklif etdim. Bundan 10 gün sonra iyunun 27-də Milli Məclisin 45 deputatının çıxışında mənim təklifim dəstəkləndi və həmin gün Milli Məclisin qərarı ilə 15 İyun Azərbaycan xalqının Milli Qurtuluş Günü elan olundu və Azərbaycan Respublikasının bayram günləri siyahısına daxil edildi.

Milli Məclisin həmin tarixi qərarında deyilir: *"Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi".*

Heydər Əliyevin 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyəti ölkəmizin inkişafında misli görünməmiş tarixi nailiyyətlərlə yaddaşlara həkk olundu. Prezident İlham Əliyev Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısında göstərdiyi xidmətlər barədə belə deyir: "1993-cü ildən başlanmış və bu günə qədər davam edən iqtisadi və siyasi islahatlar ölkəmizin dünya birliyinə layiqli üzv kimi daxil edilməsində çox mühüm rol oynadı. Azərbaycanda güclü sosial siyasətin əsasları da məhz o illərdə qoyulubdur. Ona görə Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri unudulmazdır, əvəzolunmazdır və onlar tarixi əhəmiyyət kəsb edir".

Qədirbilən xalqımız Ulu Öndərin xatirəsini həmişə əziz tutur. Müasir Azərbaycanın memarı və qurucusu dahi Heydər Əliyevin adı Azərbaycanın özü qədər əbədi olacaq, onun ideyaları gələcək yollarımıza daim nur ələyəcəkdir. Heydər Əliyev çox uzaqgörən dahi şəxsiyyət idi. Dahilərin böyüklüyü isə ondadır ki, onlar hər şeyin əvvəlini bildikləri kimi, sonunu da görür və dərk edirlər. Heydər Əliyev də məhz belə böyük şəxsiyyətlərdən idi. Bunu onun son qərarı bir daha təsdiq etdi. Bu qərar, əslində, Heydər Əliyevin Azərbaycana son borcu və xidməti idi. Çünki bu qərardan Azərbaycan dövlətinin gələcək taleyi asılı idi. Heydər Əliyev bu borcunu da şərəflə yerinə yetirdi.

Heydər Əliyevin 2003-cü il prezident seçkiləri ilə əlaqədar doğma xalqına ünvanladığı müraciəti vətənə ləyaqətlə xidmətin son nümunəsi idi. Ulu Öndər tarixi müraciətində xalqa müəyyənləşdirdiyi siyasəti davam etdirə biləcək dəqiq ünvanı da göstərdi: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ulu Öndərin bu tarixi müraciətindən keçən 23 il onun dediklərinin reallıqla dərindən uzlaşdığını və söylədiyi fikirlərin yüksək dərəcədə həqiqət olduğunu bir daha göstərdi. Keçən dövr ərzində beş dəfə Azərbaycan xalqının əksəriyyətinin böyük dəstəyini qazanaraq prezident seçilən İlham Əliyev Ümummilli Liderin layiqli varisi olduğunu və Azərbaycan Respublikasını gündən-günə daha yaxşı gələcəyə apardığını sübut etdi.

Cənab İlham Əliyevin bu illər ərzində rəhbərliyi altında respublikamız çox uğurlu nəticələr əldə etmişdir. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"ndən əldə edilən vəsaitlər respublikamızda iqtisadiyyatın möhkəmlənməsinə və şaxələnməsinə yönəlmiş, istehsalın genişlənməsi və yeni istehsal sahələrinin yaradılması təmin edilmişdir. Ölkəmizdə iqtisadiyyat dünyada çox az təsadüf olunan sürətlə inkişaf etmiş, işsizlik və yoxsulluq minimum həddə endirilmiş, əməkhaqları, pensiya və digər sosial təminatlar dəfələrlə çoxalmışdır. Həyata keçirilən davamlı xarici və daxili siyasət nəticəsində Azərbaycan Respublikası dünyanın siyasi və iqtisadi həyatına uğurla inteqrasiya olunmuşdur. Hazırda Azərbaycan bölgənin lider ölkəsi olmaqla dünya arenasında müstəqil siyasət yeridən bir ölkə kimi qəbul olunur və digər ölkələrlə birgə layihələrin həyata keçirilməsində etibarlı tərəfdaş kimi tanınır. Ona görə də qlobal tədbirlərin keçirilməsində seçim edilərkən respublikamıza daim üstünlük verilir.

Cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın əldə etdiyi möhtəşəm uğurların zirvəsində isə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində qazanılan parlaq qələbə dayanır. Bununla da 30 ildən çox Ermənistanın işğalı altında olan doğma torpaqlarımız azad olunaraq, xalqımızın çoxdankı arzusu və dövlətin qarşısında duran ən ümdə vəzifə yerinə yetirildi. Hazırda Azərbaycan Respublikası öz ərazi bütövlüyünü və suverenliyini öz gücü ilə bərpa edən bir ölkə kimi tanınır. Bu qələbə həm də xalqımızın əvvəlki qürurunun bərpası ilə yekunlaşdı və hər bir vətəndaşımıza məğrurluq bəxş etdi. Məhz buna görə bütün xalqımız ilk növbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə borcludur.

Bütün bunlar onu deməyə əsas verir ki, Ulu Öndər Heydər Əliyev varis seçimində də özünün uzaqgörən dahi şəxsiyyət olduğunu bir daha göstərdi.

*Odur ki, qədirbilən xalqımız Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında əzəmətli xidmətlərini heç vaxt unutmur və şanlı tariximizin parlaq səhifəsi olan 15 İyun - Milli Qurtuluş Gününü böyük sevinclə qeyd edir.*

**Eldar İBRAHİMOV,**
***Milli Məclisin İntizam komissiyasının sədri,***
***iqtisad üzrə elmlər doktoru, professor***

1993 MİLLİ QURTULUŞ 2026



# Azərbaycanın bütövlüyündən türk dünyasının birliyinə

**Müasir Azərbaycan siyasi tarixinin ən mühüm mərhələlərindən biri olan 15 İyun - Milli Qurtuluş Günü yalnız siyasi hadisə deyil, eyni zamanda ölkənin taleyində dönüş nöqtəsi kimi xarakterizə olunur. Bu tarix xalqın dövlətçilik salnaməsində strateji istiqamətin yenidən formalaşdığı, idarəetmədə sabitlik və legitimliyin bərpa olunduğu epoxanın başlanğıcını ifadə edir.**

1990-cı illərin əvvəllərində AXC-Müsavat iqtidarının fəaliyyəti, daha doğrusu, fəaliyyətsizliyi nəticəsində ölkədə siyasi xaos, idarəetmə böhranı və sosial gərginlik dərinləşmiş, vətəndaş qarşıdurması təhlükəli həddə çatmışdı. Belə bir şəraitdə ictimai-siyasi sabitliyin bərpası və dövlətçiliyin qorunması zərurəti ön plana çıxmışdı. Məhz bu tarixi mərhələdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Ümummilli Lider Heydər Əliyev ölkənin xilasının yeganə ümidi idi.

Cəmiyyətdə formalaşan geniş ictimai tələb və siyasi çağırışlar nəticəsində Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya gəldi, həmin il iyunun 15-də Azərbaycan parlamentinin sədri seçildi. Bu hadisə dövlət idarəçiliyində yeni mərhələnin başlanğıcı oldu.

Heydər Əliyevin siyasi səhnəyə qayıdışı yalnız Azərbaycanın daxili sabitliyi ilə məhdudlaşmır, eyni zamanda regionun və bütövlükdə türk dünyasının gələcək geosiyasi dinamizminə təsir göstərən mühüm hadisə kimi dəyərləndirilir. Onun dövlətçilik baxışında Azərbaycanın bütövlüyü ilə yanaşı, türk dövlətləri arasında tarixi, mədəni və siyasi bağların möhkəmləndirilməsi xüsusi yer tutmuşdur. Təsadüfi deyildir ki, Heydər Əliyevin SSRİ dövründə yüksək dövlət vəzifələrində çalışdığı illərdə də onun siyasi mövqeyində milli kimlik və türk xalqlarına bağlılıq elementləri aydın müşahidə olunmuşdur. Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi fəaliyyət göstərdiyi dövrdə o, bəzi idarəetmə qərarlarına prinsipial münasibət bildirmişdir.

Türkiyəli araşdırmaçı jurnalist Selahettin Sadıkoğluna verdiyi müsahibədə Heydər Əliyev həmin dövrə dair fikirlərini belə ifadə edirdi: "Mənim SSRİ Siyasi Bürosunda dövlət başçısı ilə ilk konfliktim 1986-cı ildə baş verdi. M.Qorbaçov Orta Asiyada türk dövlət başçılarını vəzifədən uzaqlaşdırıb onların yerinə rus millətindən olan rəhbərlər təyin edirdi. Mən buna etiraz etdim və bunun doğru olmadığını bildirdim. Lakin qərarın qəbul edildiyi istiqamət dəyişmədi. Nəticədə Qazaxıstanda ciddi ictimai narazılıq yarandı". Bu fikirlər Heydər Əliyevin siyasi mövqeyində ədalət prinsipi, milli-mənəvi dəyərlərə həssaslıq və idarəetmədə balanslı yanaşmanın mühüm yer tutduğunu göstərir.

Qazaxıstandakı məsələlərə etiraz edən qazax gənclərinin bir qismi güllələnmiş, bir qismi isə həbs edilmişdir. Hadisələrin mahiyyəti sonradan "qazax millətçiliyi" çərçivəsinə salınaraq təhrif olunmuşdur. Bu kontekstdə qeyd edilir ki, Heydər Əliyevin SSRİ rəhbərliyi ilə ilk ciddi ziddiyyətləri məhz türk xalqlarına qeyri-titul millətlərdən olan kadrların rəhbər təyin edilməsi ilə bağlı yaranmışdır. Onun türk milli kimliyinə bağlılığı və prinsipial mövqeyi nəticəsində Sov.İKP MK Siyasi Bürosundakı fəaliyyəti ilə bağlı gərginliklər formalaşmış, bu isə sonrakı mərhələdə onun istefa prosesinə aparan siyasi dinamikanın tərkib hissəsinə çevrilmişdir.

Eyni zamanda onun Qazaxıstanın rəhbəri D. Kunayev və Özbəkistanın başçısı Şərəf Rəşidov ilə qurduğu qarşılıqlı etimada əsaslanan münasibətlər müəyyən siyasi dairələrdə qısqanclıqla qarşılanmışdır. Bu münasibətlərin fonunda həmin liderlərə qarşı "Əliyevşina", "Kunayevşina" və "Rəşidovşina" kimi terminlərlə ifadə olunan qarayaxma kampaniyalarının aparıldığı qeyd olunur. Heydər Əliyevin sovetlər dövründə türk xalqlarına olan münasibətinin təzahürü kimi, Orta Asiya və Türkiyə dövlət rəhbərləri, eləcə də geniş ictimaiyyət tərəfindən ona yüksək ehtiram göstərildiyi bildirilir.

Qeyd etdiyimiz kimi, müasir Azərbaycanın siyasi həyatında dönüş nöqtəsi hesab edilən 15 İyun - Milli Qurtuluş Günü dövlətçilik tarixində yeni mərhələnin başlanğıcı olmuşdur. Bu proses nəticəsində Heydər Əliyevin Azərbaycan dövlətinin rəhbərliyinə qayıdışı türk dünyasında inteqrasiya və bütövləşmə ideyasının yeni mərhələyə keçidinə zəmin yaratmışdır. Ümummilli Lider türk xalqları və dövlətləri arasında birliyin əsas memarlarından biri kimi Azərbaycan və ümumən Qafqaz regionu üçün ağır tarixi-siyasi dövrlərdə türk xalqlarının etnik-mənəvi yaxınlığı barədə belə bir fikir ifadə etmişdir: "Mən bu gün, həqiqətən, qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birindən ayırmayıb, bir-birinə bağlayıb, bir-biri ilə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik".

Təkcə nəhəng dövlət xadimi və siyasi lider deyil, eyni zamanda dərin dövlətçilik təfəkkürü və siyasi-fəlsəfi baxış sisteminə malik şəxsiyyət kimi Heydər Əliyevin bu fikirləri yüksək semantik və konseptual yük daşıyır, türk etnosunun tarixi siyasi təcrübəsini sistemli əks etdirir. Bu baxımdan Ulu Öndərin yanaşması türk etnosunun birlik modelini sinergetik özünütəşkil prinsipləri çərçivəsində izah etməyə imkan verir. Həmin ideyanın nəzəri dərinliklərinə endikcə siyasi-fəlsəfi baxımdan bu tezislər formalaşır: Heydər Əliyevin bu fikrində ilk növbədə türk xalqlarının əsrlər boyunca bir-birinə dost olması vurğulanır: "...bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar".

Türk dilinin qlottogenetik ehtiyatlar sisteminə dərindən bələd olan, milli kimliyində Azərbaycan türkcəsinin ruhu hər zaman parlaq şəkildə təcəssüm olunan Heydər Əliyev burada "dost" kəlməsini, sadəcə, ümumişlək leksik vahid kimi deyil, daha dərin semantik qatlara və mürəkkəb etnofəlsəfi məna çalarlarına malik anlayış kimi işlətmişdir. "Dostluq" anlayışı münasibətlər modeli olaraq xoş, mehriban və sülhsevər davranışlar sistemini ifadə edir.

Ali baza təhsili etibarilə peşəkar tarixçi olan Ulu Öndər türk xalqlarının keçdiyi tarixi inkişaf yolunu dərindən bilmiş, bu yolun keşməkeşli mərhələlərindən və qardaş türk xalqları arasında yaşanmış ziddiyyətli tarixi proseslərdən kifayət qədər məlumatlı olmuşdur. Bu baxımdan onun nitqində xüsusi semantik yük qazanan "dost" sözü yalnız şəxslərarası münasibətləri deyil, daha geniş mənada türk etnik yaddaşının, milli kimliyin və tarixi kontinuitetin daşıyıcısı kimi çıxış edir. Başqa sözlə, bu ifadə türk xalqları arasında münasibətlərin, sadəcə, sosial akt deyil, həm də tarixi-sivilizasion bir zərurət olduğunu ehtiva edir.

Ulu Öndər "dostluq" konseptinin əsasında ilahi-tarixi tale birliyinin dayandığını vurğulayaraq qeyd edirdi: "Biz bir kökdənik, biz birdilli xalqlarıq". Vahid kök və vahid mənşə anlayışı Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin əsas konseptual dayaqlarından biridir. O, insanın, tayfanın, xalqın və millətin etnik mənşəyinin onun kimlik sisteminin formalaşmasında həlledici rol oynadığını xüsusi olaraq qeyd edirdi. Bu yanaşma sovet ideologiyasında mövcud olan və kimliyi daha çox sinfi meyarlarla izah edən yanaşmalardan fərqli olaraq, etnik-mədəni amillərin üstün rolunu ön plana çıxarırdı.

Sovet epoxasının mürəkkəb ideoloji və siyasi şəraitini dərindən bilən Heydər Əliyev ən sərt repressiya və təzyiqlərin belə türk xalqlarının milli yaddaşında formalaşmış ortaq kök və qardaşlıq hisslərini tam şəkildə aradan qaldıra bilmədiyini müşahidə etmişdi. Məhz buna görə də o, dövlətçilik fəlsəfəsində türk xalqlarının etnopsixoloji yaddaşında mövcud olan "ortaq kök" və "ortaq dil" anlayışlarını müasir mərhələdə birliyin ideoloji və siyasi dayaqları kimi əsaslandırmışdır. Bu yanaşma xüsusilə onun dilə və mədəni kimliyə münasibətində daha aydın şəkildə özünü göstərir.

Rus dilinin hakim olduğu, açıq və gizli şəkildə ruslaşdırma siyasətinin aparıldığı sovet epoxasında müdrik öndər hər fürsətdə öz xalqı ilə ana dilində ünsiyyətə üstünlük verirdi. Daim xalqın içində olmağa çalışan Heydər Əliyevin Azərbaycan dilində çıxış etməsi insanların daxili aləmində milli duyğuları gücləndirir, onlarda milli kimliyin gələcəyinə dair inam hissini möhkəmləndirirdi. Azərbaycan xalqı sovet siyasi mühitinin bu nəhəng dövlət xadiminin timsalında ana dilinin yaşadıldığını və qorunduğunu müşahidə edirdi.

Bu baxımdan Heydər Əliyevin xüsusilə kənd əməkçiləri ilə Azərbaycan dilində danışması yalnız sosial yaxınlıq yaratmaq məqsədi daşımırdı və ya kənd əhalisinin rus dilini zəif bilməsi ilə izah olunmurdu. Əksinə, bu davranış dilin ictimai-siyasi funksiyasının ifadəsi kimi çıxış edirdi. Müasir mərhələdə Türk Dövlətləri Təşkilatı kimi platformaların formalaşdığı bir dövrdə həmin praktikanın mahiyyəti daha aydın görünür: ana dili vasitəsilə milli-siyasi mesajların ötürülməsi və ictimai şüurun formalaşdırılması.

Dahi rəhbər dilin təfəkkür və mədəniyyətlə qarşılıqlı əlaqəsini dərindən dərk edir, onu insan şəxsiyyətini formalaşdıran əsas amillərdən biri kimi qiymətləndirirdi. Hər bir xalqın mövcudluğunun əsas şərtlərindən biri onun özünəməxsus dil sisteminə malik olmasıdır. Etnoqraf Lev Qumilyov da etnosun qorunmasında dil amilinin mühüm rolunu xüsusi olaraq vurğulayırdı. Bu kontekstdə Ümummilli Liderin Azərbaycan dilinin qorunması və inkişafı istiqamətində həyata keçirdiyi siyasətin mahiyyəti daha aydın şəkildə dərk olunur.

Dil mədəniyyətinə münasibət barədə Ulu Öndər belə deyirdi: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur". Heydər Əliyev milli dil amilini milli ideologiyanın əsas sütunlarından biri kimi qiymətləndirərək bildirirdi ki, hər bir azərbaycanlı digər dilləri mükəmməl bilməklə yanaşı, öz ana dilinə münasibətdə xüsusi məsuliyyət daşımalıdır: "Bəzən keçmişdə olduğu kimi, gedib deməsin ki, 'mən rusdilli azərbaycanlıyam', yaxud da 'tam azərbaycanlı deyiləm'. Belələri bizim sıramızdan çıxmalıdır. Hər bir azərbaycanlı rus dilini, ingilis dilini, başqa dilləri mükəmməl bilərək onlardan istifadə edirsə, o öz doğma Azərbaycan dilinə diqqətini və hörmətini azaltmamalıdır. Əksinə, öz doğma dilini daha da mükəmməl bilməli və ona daim hörmət etməlidir".

Heydər Əliyevin dil siyasətindəki mövqeyi ilə Müzəffər Ali Baş Komandan İlham Əliyevin müasir dövrdə səsləndirdiyi fikirlər arasında ideya davamlılığı müşahidə olunur. Prezident İlham Əliyev bu barədə deyib: "Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. Daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik. Hər bir millət, hər bir xalq üçün onun ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir". Bu yanaşmalar göstərir ki, dil məsələsi yalnız linqvistik hadisə deyil, eyni zamanda milli kimliyin, dövlətçilik düşüncəsinin və mədəni davamlılığın əsas strateji komponentidir.

Heydər Əliyev əməli fəaliyyəti ilə mükəmməl mənimsədiyi ana dilini özünün natiqlik mədəniyyəti vasitəsilə xalqın gözündə ucaldır, onun ictimai nüfuzunu möhkəmləndirir və bununla da ana dilinin qorunmasının milli mövcudluğun əsas şərtlərindən biri olduğunu nümayiş etdirirdi. Bu baxımdan dilin qorunması məsələsi yalnız mədəni-estetik dəyər kimi deyil, eyni zamanda milli nicatın fundamental istiqaməti kimi çıxış edir.

Tarixi proseslərə nəzər saldıqda aydın olur ki, Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasının qəbul edilməsi zamanı Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması sovet ideoloji sisteminin hökm sürdüyü bir şəraitdə mühüm siyasi və mədəni hadisə idi. Rus dilinin dominant mövqedə olduğu SSRİ məkanında belə bir normanın hüquqi səviyyədə rəsmiləşdirilməsi obyektiv olaraq çətin görünürdü. Lakin məhz Heydər Əliyevin siyasi iradəsi və dövlətçilik mövqeyi bu istiqamətdə həlledici rol oynadı.

Ümummilli Liderin milli dil siyasətində dilə münasibət sistemli xarakter daşıyırdı. 1970-ci illərdə "Müasir Azərbaycan dili" adlı dördcildlik dərsliyin Respublika Dövlət Mükafatına layiq görülməsi və 1970-ci ildə ümumittifaq statuslu türkoloji jurnalın nəşrə başlaması da Azərbaycan dilinin elmi və mədəni nüfuzunun yüksəldilməsi istiqamətində atılmış mühüm addımlar kimi qiymətləndirilir. Bu proseslər dil siyasətinin təsadüfi deyil, ardıcıl və məqsədyönlü dövlət strategiyasının tərkib hissəsi olduğunu göstərir. Bu baxımdan Heydər Əliyevin sonrakı mərhələdə Türk Dövlətləri Təşkilatı ideyasının formalaşmasına aparan siyasi-ideoloji xəttində "ortaq kök" və "vahid dil" konseptlərinə istinad etməsi təsadüfi xarakter daşımır və onun düşünülmüş dövlətçilik strategiyasının davamı kimi çıxış edir. Heydər Əliyev türk xalqlarının ortaq etnogenetik və filogenetik kökdən formalaşaraq müstəqil milli dövlətlərə çevrildiyini vurğulayaraq qeyd edirdi: "Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır". Bu cümlə türk xalqları arasında mədəni oxşarlığın sadə təsviri deyil, eyni zamanda dərin fəlsəfi-ideoloji məzmun daşıyan konseptual yanaşmanın ifadəsidir. Burada "yaxınlıq", "bənzərlik" və "oxşarlıq" anlayışları vahid semantik zəncir daxilində təqdim olunaraq ortaq tarixi-mədəni kökün mövcudluğunu əsaslandıran ideya sisteminə çevrilir. Fəlsəfi baxımdan yanaşıldıqda, bu anlayışların ardıcıllıqla işlədilməsi təsadüfi deyil, əksinə, konseptual düşüncə modelinin struktur elementidir. Bu, Ulu Öndərin nitqində dil və məzmunun yalnız informasiya ötürmə vasitəsi deyil, həm də ideoloji düşüncə konstruksiyası olduğunu göstərir.

Heydər Əliyevin siyasi fəaliyyətinə nəzər saldıqda onun hər bir ifadəsində dərin məna yükünün mövcudluğu aydın görünür. O, nitqində təsadüfi söz seçiminə yol vermir, hər ifadəni məqsədli şəkildə ideoloji və dövlətçilik kontekstində formalaşdırırdı. Bu xüsusiyyət Azərbaycan himninin müzakirəsi zamanı da özünü aydın şəkildə göstərmişdir. Həmin dövrdə Ulu Öndərin dövlətçilik mövqeyi Azərbaycanın hüquqi və siyasi statusunun müdafiəsi, eləcə də onun SSRİ tərkibində bərabərhüquqlu respublika kimi qəbul etdirilməsi istiqamətində prinsipial yanaşması ilə xarakterizə olunurdu. Bu prosesdə o, hər bir ifadənin ideoloji yükünə xüsusi diqqət yetirir, dövlətçilik rəmzlərinin formalaşmasında məzmun və mahiyyət məsələsinə ciddi yanaşırdı. Himn belə başlayırdı: "Azərbaycan - dünya görmüş bu şərəfli, şanlı diyar, Vətən eşqi babalardan qalmış əziz bir yadigar". Azərbaycan KP MK-nın Heydər Əliyevin sədrliyi ilə keçirilən 1978-ci il 14 aprel tarixli iclasında respublikanın yeni himni haqqında məsələ müzakirə edilərkən məlum olmuşdur ki, himnin mətnində "respublika" sözü yer almır. Müzakirə zamanı Heydər Əliyev mətnə "respublika" sözünün daxil edilməsinin vacibliyini xüsusi olaraq qeyd etmişdir. Çıxış edən bəzi şəxslər bu əlavənin mətnin poetik strukturuna uyğunlaşdırılmasının çətin olduğunu bildirmişlər. Azərbaycanın rəhbəri isə israrla belə mövqe sərgiləmişdir: "Mən çox istərdim ki, "respublika" sözü mətndə olsun. Mənə deyirlər ki, heç cür alınmır. Mən hesab edirəm ki, belə sözün olmasına nail olmaq lazımdır. Biz Azərbaycan, dövlət, diyar haqqında danışırıq, amma bura respublikadır. Yaxşı olardı ki, burada 'respublika' sözü olsun". Son nəticədə aparılan müzakirələr və verilən əsaslandırmalar əsasında mətnə "respublika" ifadəsi daxil edilmiş və Azərbaycan Ali Soveti Rəyasət Heyəti tərəfindən təsdiq olunmuşdur: "Azərbaycan! Çiçəklənən respublika, şanlı diyar! Qadir sovet ellərində həm azadsan, həm bəxtiyar". Bununla bağlı Azərbaycan rəhbəri qeyd edirdi: "Himn bizim ümumi iftixarımız, ümumi qürurumuzdur, sərvətimizdir. Mən özümü də hansısa dərəcədə bu himnin müəllifi hesab edirəm".

Ulu Öndər türk xalqlarının "yaxınlıq", "bənzərlik" və "oxşarlıq" anlayışlarını izah edərkən məsələyə yalnız mədəni oxşarlıqlar müstəvisində yanaşmamış, bu doğmalığın eyni zamanda ziddiyyətli tarixi təcrübədən də qaynaqlandığını nəzərdə tutmuşdur. Bu mənada türk xalqlarının birliyi fəlsəfi baxımdan həm də "oppozitiv sistem" kimi şərh oluna bilər: burada qarşılıqlı münasibətlər həm yaxınlıq, həm də fərqliliklər üzərində formalaşaraq sosial reallığın qanunauyğunluqlarını əks etdirir.

Tarixi baxımdan türk dövlətləri arasında mövcud olmuş ziddiyyətlər və konfliktlər paradoksal şəkildə onların eyni sivilizasion məkana aid olmasının göstəricisi kimi də dəyərləndirilə bilər. Çünki bu münasibətlər yalnız yadlıq üzərində deyil, məhz oxşar struktur və müqayisə oluna bilən tarixi-siyasi təcrübə üzərində formalaşmışdır. Bu kontekstdə N. S. Trubetskoyun "müqayisə əsası" anlayışı da nəzəri izah üçün əlavə metodoloji çərçivə təqdim edir.

Ulu Öndər bunu xüsusi olaraq vurğulayaraq qeyd edirdi ki, ortaq milli ənənələr türk xalqlarını tarix boyu, xüsusilə də müstəqillikdən əvvəlki dövrlərdə bir-birindən ayırmamış, əksinə, onları bir-birinə bağlamışdır: "Bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birindən ayırmayıb, bir-birinə bağlayıb, bir-biri ilə daha sıx əlaqədə saxlayıb".

Bu yanaşma türk etnosunun tarixi davamlılığını onun daxili mədəni-genetik enerjisi ilə izah etməyə imkan verir. Türk etnosunun tarixboyu müxtəlif siyasi sarsıntılara baxmayaraq mövcudluğunu qoruması onun struktur dayanıqlığının göstəricisi kimi çıxış edir. Bu mənada türk xalqlarının tarixi inkişafı bəzən eniş və yüksəlişlərlə müşayiət olunsa da, bu proseslər onların ümumi sivilizasion xətdən çıxmasına səbəb olmamışdır. Əksinə, bu tarixi təcrübə onların gələcək inteqrasiyası üçün mühüm rol oynamışdır. Heydər Əliyev də məhz bu ideyanı əsaslandıraraq türk xalqlarının gələcək inkişaf yolunu tarixi ənənələr və fundamental mədəni dayaqlar üzərində qurulmuş davamlı bir proses kimi təqdim etmişdir. Bu barədə o, fikrini belə ifadə edir: "İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik". Diqqət yetirildikdə aydın olur ki, müdrik siyasətçi türk xalqlarının gələcək inkişaf strategiyasının əsasında bir fundamental konseptin dayanmasını xüsusi vurğulamışdır. Bu konsept "tarixi ənənələr" anlayışıdır. Tarixi ənənələr hər bir xalqın düşüncə, mədəniyyət və sosial yaddaş sisteminin formalaşmasında mühüm rol oynayan əsas faktorlardan biridir. Azərbaycan və ümumən türk xalqlarının milli mədəniyyət, ədəbiyyat və incəsənət tarixini dərindən bilən Heydər Əliyevin fəlsəfi baxışlar sistemində "tarixi ənənələr" anlayışı abstrakt deyil, konkret faktlara söykənən və real məzmun daşıyan konsept kimi çıxış edir. Bu anlayışı Ulu Öndərin şəxsiyyətini, mədəni kimliyini və dövlətçilik təcrübəsini nəzərə almadan tam şəkildə dərk etmək mümkün deyildir. Göründüyü kimi, Heydər Əliyevin "tarixi ənənələr"ə istinad etməsi onun zəngin idarəçilik və dövlətçilik fəlsəfəsindən qaynaqlanan məqsədyönlü yanaşmanın ifadəsidir. Bu yanaşma türk xalqlarının keçmişdən gələcəyə uzanan inkişaf xəttini davamlılıq prinsipi üzərində əsaslandırır.

Nəticə etibarilə Heydər Əliyevin türkçülüklə bağlı irəli sürdüyü konsepsiya uzun tarixi inkişaf yolu keçmiş türk xalqlarının gələcək inteqrasiya platformasını əsaslandıran siyasi-doktrinal yanaşma kimi dəyərləndirilə bilər. Müasir dünya siyasi sistemində Türk Dövlətləri Təşkilatı kimi bir qurumun getdikcə daha da güclənməsi və institusional inkişafı bu strateji baxışın real təzahürü kimi qəbul edilir. Hazırda bu təşkilat yalnız regional deyil, eyni zamanda qlobal siyasi sistemdə diqqətçəkən yeni güc mərkəzlərindən biri kimi çıxış edir. Müxtəlif geosiyasi qütblərdə onun fəaliyyətinə dair analitik və strateji müzakirələrin aparılması da məhz bu reallığın göstəricisidir. Çünki Türk Dövlətləri Təşkilatı tarixən Avrasiya məkanında, eləcə də geniş geosiyasi coğrafiyada siyasi, demoqrafik, mədəni, iqtisadi və inzibati proseslərə təsir göstərmiş türk etnosunun müasir beynəlxalq münasibətlər sistemində yeni aktor kimi institusional şəkildə təmsil olunmasını təmin edən birlik formatıdır. Təsadüfi deyildir ki, Ulu Öndər Heydər Əliyev məktəbində formalaşmış Prezident İlham Əliyev bu strateji kursu davam etdirərək onu yeni mərhələdə daha da inkişaf etdirir və beynəlxalq müstəvidə yeni keyfiyyət səviyyəsinə yüksəldir. Milli Qurtuluş Gününün ideoloji və dövlətçilik mahiyyəti, eləcə də türk dünyasının inteqrasiya prosesi bu xəttin davamlılığını və tarixi dayanıqlılığını bir daha təsdiqləyir.

*Beləliklə, 15 İyun - Milli Qurtuluş Günü Azərbaycanın dövlətçilik tarixində yalnız siyasi sabitliyin bərpasını ifadə edən hadisə kimi deyil, eyni zamanda milli kimliyin möhkəmləndirilməsi, müstəqil dövlətçilik ideyasının inkişafı və türk dünyasının strateji birliyinə aparan yolun başlanğıcı kimi dəyərləndirilməlidir. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik fəlsəfəsində milli maraqlar, tarixi ənənələr, ortaq kök və ortaq dil amilləri bir-biri ilə vəhdət təşkil edərək, türk xalqlarının gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm ideoloji platformaya çevrilmişdir. Bu gün Türk Dövlətləri Təşkilatının beynəlxalq münasibətlər sistemində nüfuzunun artması, türk dövlətləri arasında siyasi, iqtisadi, humanitar və mədəni əməkdaşlığın yeni məzmun qazanması həmin uzaqgörən siyasətin həyatiliyi və strateji dəyərinin əyani təzahürüdür. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın türk dünyasının inteqrasiyası istiqamətində həyata keçirdiyi ardıcıl siyasət də məhz Heydər Əliyev ideyalarının müasir dövrdə uğurla davam etdiyini göstərir. Milli Qurtuluşdan başlanan və türk dünyasının bütövlüyünə uzanan bu yol Azərbaycan dövlətçiliyinin gücünü, xalqımızın milli iradəsini və ortaq türk gələcəyinə olan inamını özündə əks etdirən böyük tarixi-siyasi missiyadır.*

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

1993 MİLLİ QURTULUŞ 2026

# Tariximizin dönüş günü



**Azərbaycan tarixində yaddaqalan hadisələr, xalqımızın taleyini dəyişən, olduqca vacib əhəmiyyət daşıyan, həyatımızı müəyyənləşdirən proseslər və önəmli başlanğıclar çox olmuşdur. Bu, özündən sonrakı hadisələrə işıq tutmuş, xalqımızın gələcək yolunu müəyyənləşdirmişdir. Bu tarixlərdən biri 15 İyun - Milli Qurtuluş Günüdür.**

Təqvimin 15 iyun gününü Azərbaycan xalqının tarixinə yazan da Ümummilli Lider Heydər Əliyev olmuşdur. Dünyanın siyasi xaritəsində böyük xilaskarlıq missiyasını uğurla həyata keçirərək möhtəşəm addımlar atan liderlərin sırasında Heydər Əliyevin olması Azərbaycan xalqının dünya tarixinə öz adını yazdırması deməkdir.

20-ci əsrin sonlarında yenidən müstəqillik əldə edən xalq bir müddətdən sonra bu müstəqilliyi itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Azərbaycanda hakimiyyət böhranı baş vermiş, anarxiya bütün respublikanı öz ağuşuna almışdı. Hərc-mərclik, özbaşınalıq, anarxiya, dövlət institutlarının işləməməsi, bütün bunlar həmin dövrün realıqları idi. Siyasətdən kənar fiqurlar öz avantürist eksperimentlərini Azərbaycan xalqının başında sınayırdılar.

Ovaxtkı iqtidar hadisələri düzgün dəyərləndirə bilməsə də, xalq hamısını görürdü. Eyni zamanda xalq vəziyyətdən çıxış yolunu görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə gəlişində görürdü. Ona görə Ümummilli Lider Heydər Əliyevə çağırış etdi. Bu çağırışa səs verən Ulu Öndər 1993-cü il iyunun 9-da Bakıya gəldi və respublikanı böhrandan xilas etməyə başladı.

Dövlət idarəçiliyi çətin prosesdir. Onun uğurlu, ya uğursuz idarəçiliyi diskussiyaların mövzusudur. Dövlətin uğursuz dövlət kimi xarakterizə edilməsi üçün qeyri-müəyyən vəziyyətin olması kifayətdir. Hər hansı bir konkret vəziyyətdə hadisələrin hara apardığı aydın görünmürsə, dəqiq, ardıcıl və ən əsası işlək bir siyasət yürüdülmürsə, siyasi və hüquqi diskursda uğurlu dövlətdən danışmaq absurd olur. Şübhəsiz ki, heç bir ölkə bütün meyarlara tam cavab verə bilməz. Lakin ovaxtkı Azərbaycan iqtidarı yürüdülən səbatsız siyasətin nəticəsi olaraq heç ilkin meyarlara belə cavab verə bilmirdi. Zəifləmə və uğursuzluq prosesləri ölkəni daha acınacaqlı aqibətlə üz-üzə qoymuşdu.

Böhran obyektiv reallığın inkar edilməsi, düzgün qiymətləndirilmənin olmamasının nəticəsidir. Özündən qəhrəman qurmaq istəyən kəsləri xalq son dərəcə aydın təsbit edir. Xalqa isə yalancı lider deyil, həqiqi lider lazım idi. O zaman Heydər Əliyevə müraicətlərin edilməsi göstərdi ki, xalq həm də uzaqgörən vizyona malikdir.

Azərbaycan bugünkü reallığı bütün bu vacib amillər işığında yarada bildi. Ölkənin son dərəcə ağır bir dövründə Heydər Əliyevin hakimiyyətə qayıtması, sadəcə, xalqın taleyində dönüş nöqtəsi deyildi. Heydər Əliyev fenomeninin hakimiyyətdə olması müstəqillik əldə edən digər dövlətlər üçün də xüsusi əhəmiyyət kəsb edirdi.

Məhz belə bir zamanda çox çətin bir missiyanın öhdəsindən gələn Ümummilli Lider reallıqları nəzərə alaraq çevik addımlar atmağa başladı. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması xalqımızın və regionun bugünkü transformasiyasının əsasını qoydu. Dirçəliş məhz bu müqavilə ilə başladı. Ardınca qədim İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişi kimi dünya miqyaslı layihələrin fəal iştirakçısına, habelə təşəbbüskarına çevrilməyimiz, sadəcə, bugünkü Cənubi Qafqaz siyasətinin deyil, dünya siyasətinin mərkəzində dayanmağımıza gətirib çıxardı. Bəli, bütün bu hadisələr başlanğıcı 1993-cü il 15 iyun olan tarixin uğurlarıdır.

Heydər Əliyev həm də türk dünyasının böyük Lideri, Azərbaycan tarixində əvəzsiz xidmətləri olan fenomenal şəxsiyyətdir. Onun yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı, vətənə və torpağa bağlılığı Prezident İlham Əliyevin də fəaliyyətinin ana xəttidir. Məhz bu genetik kodda olan yüksək və ali xüsusiyyətlər ölkəmizin inkişaf strategiyasının əsasıdır.

Azərbaycan xalqı inana və güvənə biləcəyi şəxsə ehtiyac duyurdu. Odur ki, vətəndaş qırğınından dönən xalqımız adımızdan danışmaq üçün məhz Heydər Əliyevi seçdi. Yalnız Ümummilli Liderin şəxsi keyfiyyətləri və iradəsi xalqımızın istəklərini və iradəsini təcəssüm etdirməyə qadir idi. O, hər bir hadisədə xalqın nümayəndəsi kimi çıxış edirdi. Biz bunun ən ağır tarixlərimizdən biri olan 20 Yanvar hadisələrində də şahidi olduq, Gəncə qiyamında da. Heydər Əliyev ittifaq dövründə də, ondan sonra da çəkinmədən tənqidi baxış bucağı formalaşdırmağı da, onu qoruyub saxlamağı da bacarırdı. Son dərəcə templi siyasi mühitdə Heydər Əliyev praqmatik siyasət yürütməyi də, etiraz edib sözünü deməyi də mükəmməl bilirdi. Bu, məhz xüsusi liderlik keyfiyyətləri deməkdir. Bu, vətəndaşlara siyasi ardıcıllar kimi öz tarixini bilmək, müxtəlif siyasi sistemlərdə tarixi həqiqətin əhəmiyyətini dərk etmək və nəhayət, bu, hakimiyyəti idarə etmək yolunda zərurət kimi mənəvi və etik ölçülər idi.

Xalqımız mənəvi və etik ölçülərin dəyərini 44 günlük Vətən müharibəsində bir daha sübüt etdi. Sübut etdi ki, mənəviyyat, ləyaqət və Vətən sevgisi hər bir hissdən alidir. Torpağa duyulan həsrət özünü artıq gözlədə bilmirdi. Bütün azərbaycanlılar bir yumruq kimi birləşərək torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində birləşdi. Bu birlik "dəmir yumruğa" çevrildi. Müzəffər Ali Baş Komandanın "dəmir yumruğ"u Ermənistana elə bir zərbə vurdu ki, o zərbənin hərbi və siyasi nəticələri qədər psixoloji, mənəvi təsiri də dağıdıcı və yıxıcı oldu. Azərbaycan işğalçı Ermənistanı həqiqətlə üz-üzə qalmağa vadar etdi. Azərbaycan Ermənistana 1990-cı illərin xaotik aqibətini yaşatdı. Erməni cəmiyyətini elə bir duruma saldıq ki, bir daha yanlış vədlərin arxasınca getməyi ağlına belə gətirməsin. Məhz bu iradənin nəticəsidir ki, bu gün Azərbaycan Cənubi Qafqazın qalib, Ermənistan məğlub dövlətidir.

İqtisadi siyasət, ordu quruculuğu, sosial siyasət - bütün bunların hər biri Ümummilli Liderin həyata keçirdiyi siyasətin əsas istiqamətləri olsa da, onun fəaliyyətində mühüm yer tutan məsələlərdən biri də cəmiyyətin ideoloji baxımdan həmrəy və sağlam əsaslar üzərində inkişafı idi. Bu baxımdan Heydər Əliyev gənclər siyasətinə xüsusi önəm verirdi. O, hələ sovet dövründə rəhbər vəzifələrdə çalışarkən ordunun milliləşdirilməsi və milli hərbi kadrların hazırlanması istiqamətində qətiyyətli addımlar atmışdı. Məhz həmin addımların sayəsində çoxsaylı azərbaycanlı gənclər və zabitlər hərbi təhsilə cəlb olundu, peşəkar hərbi kadr potensialı formalaşdı.

Heydər Əliyev gənclərin mülki təhsilinə də xüsusi diqqət yetirirdi. Bu məqsədlə Azərbaycan gənclərinin dünyanın qabaqcıl universitetlərində təhsil almaları üçün ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilirdi. O, yüksək intellekti, milli-mənəvi dəyərlərə bağlılığı və vətənpərvərlik ruhuna malik gənc nəslin yetişdirilməsini strateji vəzifə hesab edirdi. Məhz həmin gənclər sonrakı dövrlərdə Vətən qarşısındakı tarixi missiyanı yerinə yetirərək, öz həyatlarını təhlükə qarşısında qoymaqdan çəkinməyərək Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə atıldılar və tarixi Zəfərin əldə olunmasında mühüm rol oynadılar.

Müstəqil Azərbaycan tarixinin ən şərəfli, ən şanlı günləri Heydər Əliyevin adı ilə bağlıdır. Lakin Ümummilli Liderin də, Azərbaycan xalqının da taleyində 15 İyun xüsusi əhəmiyyətə malikdir. Bu əhəmiyyət 1997-ci ilin iyun ayında Milli Məclis tərəfindən rəsmiləşdirildi. Belə ki, Milli Məclis 15 İyun tarixinin Milli Qurtuluş Günü elan edilməsi ilə bağlı qərar qəbul etdi. Bu gün əldə etdiyimiz hər bir uğurda bir daha 15 İyun - Milli Qurtuluş Gününün payı var.

Ulu Öndər xalqın möhkəm inamı və dəstyi sayəsində daha qərarlı, qətiyyətli qərarlar verirdi. Heydər Əliyev şəxsiyyətinin böyüklüyü onda idi ki, o yalnız və yalnız xalqına arxalanırdı. Bütün bunlarla yanaşı, Heydar Əliyevin şəxsiyyəti böyük idi, nəhəng idi. Məhz buna görə vətəndaşların haqq və hüquqlarını, əmlaklarını talayan qəsbkarları hakimiyyətdən uzaqlaşdırmaqla cəmiyyətdə nizam və intizam yaradan Heydər Əliyev iqtisadi dirçəlişimizin əsasını qoya bildi. Azərbaycanın bugünkü reallıqlarının təməlində 1993-cü ildən 2003-cü ilə qədər görülən işlər durur. Heydər Əliyev Azərbaycanı Şuşasız təsəvvür etmirdi. Heydər Əliyev bu sevgini, sadəcə, Şuşayla məhdudlaşdırmırdı, Vətən sevgisinin səsini, harayını Laçın dağlarının əzizliyi ilə izah edirdi, Füzulini, Cəbrayılı, Zəngilanı, Qubadlını, Kəlbəcəri Azərbaycan xalqı üçün əbədiyyət sayırdı. Bu baxımdan Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin 8 noyabrında Şuşanın işğaldan azad edilməsi ilə bağlı müjdəli xəbəri Azərbaycan xalqına çatdırarkən məhz Ulu Öndər Heydər Əliyevin məzarını seçmişdi. Ata vəsiyyətini yerinə yetirən Müzəffər Ali Baş Komandan məhz bu müqəddəs məkandan bütün dünya azərbaycanlılarına gözaydınlığı verdi.

Bu gün Şuşa Bəyannaməsi adlı bir sənəd var. Bu bəyannamə Türkiyə ilə Azərbaycanın gücünün birləşdirilməsi, tarixboyu qoparılmağa çalışılan bağın möhkəmləndirilməsi deməkdir. Bu bəyannamə Cənubi Qafqazın həyatında yeni bir səhifə deməkdir. Bu səhifə sülh, quruculuq, əməkdaşlıq üzərindən yazılıb. Şuşa Bəyannaməsi heç bir halda aqressiv yox, regionda sülhə və əməkdaşlığa təminat verən sənəddir.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında tarixi xidmətlərindən biri də cəmiyyətdə mövcud olan parçalanmanı aradan qaldırmasıdır. Azərbaycançılıq məfkürəsi ətrafında heç bir fərq qoyulmadan hər kəsi birləşdirməyin nəticəsi idi ki, 44 günlük Vətən müharibəsində nəinki Azərbaycanda yaşayan insanlar, dünyanın hər tərəfinə səpələnmiş soydaşlarımız həmrəylik nümayiş etdirdilər. Müzəffər Ali Baş Komandan İlham Əliyevin hər bir sözünü, hər bir tapşırığını bir əsgər kimi qəbul edən xalqımız yalan miflərin önündə sipər oldu. Azərbaycan diplomatik masada da, informasiya cəbhəsində də uğurla müharibə apardı. Dünya azərbaycanlıları müxtəlif ölkələrdə Azərbaycanın haqq səsini dünyaya çatdırdılar. Biz bütün bunlara Ümummilli Liderin müəyyənləşdirdiyi yol ilə getdiyimiz üçün nail olduq.

Bu gün artıq regionun siyasi və iqtisadi xəritəsi dəyişib. Bu dəyişikliyin müəllifi Azərbaycan Prezidenti İlham Əliyevdir. Cənubi Qafqaz artıq elə bir reallıqlar üzərindən inkişaf edir ki, regiona böyük dövlətlərin marağı artıb. Azərbaycanın regional aktorlarla qurduğu əlaqələr, beynəlxalq münasibətlər sisteminin fərqli dövlətləri ilə yürüdülən siyasət, habelə Azərbaycanın öz Zəfəri ilə dünyanın müxtəlif regionlarında yaşayan xalqlar üçün nümunə olması qələbəmizin əhəmiyyətinin, onun miqyasının nə dərəcədə böyük olduğunu bir daha sübut etdi.

Türk dünyası ilə münasibətlərin dərinləşdirilməsinin əsasında dayanan amil də məhz Azərbaycan Prezidentinin atdığı addımlardır. Buna görədir ki, bütün platformalarda Azərbaycan Liderinə möhkəm inam var. Azərbaycan Liderinin siyasi uzaqgörənliyi qədər şəxsi keyfiyyətləri də yüksək dəyərləndirilir. Təbii ki, bu obraz Azərbaycan xalqının müsbət obrazı deməkdir. Azərbaycanda keçirilən beynəlxalq əhəmiyyətli tədbirlər, bu tədbirlərin yüksək səviyyədə təşkil olunması həm də Azərbaycan xalqının mədəni simasının dünyaya tanıdılması deməkdir.

Enerji təhlükəsizliyi artıq milli təhlükəsizliyin ayrılmaz, əsas və aparıcı bir elementinə çevrilib. Bu istiqamətdə Azərbaycanın sərgilədiyi mövqe nümunəvidir. Çünki Azərbaycan heç vaxt enerji resurslarından siyasi təzyiq vasitəsi və alət kimi istifadə etmir. Avropa təsisatları ilə bir çox hallarda yaşanan problemlərə baxmayaraq, Azərbaycan etibarlı tərəfdaş kimi qəbul olunur. Münasibətlərimizin ən kəskin məqamında belə, Azərbaycan təşəbbüskarı olduğu layihələrdə böyük məsuliyyət nümayiş etdirir. Bu gün Azərbaycan dünyanın 16 ölkəsinə qaz ixrac edirsə, bu, həm də bizim diplomatiyamızın uğurudur.

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda apardığı bərpa və quruculuq işləri də dünya tərəfindən təqdir olunur. Təbii ki, bütün bunlar bir günün, bir neçə ilin işi deyil. Cənab İlham Əliyev 2003-cü ildə Prezident seçildikdən sonra xalq qarşısında söz vermişdi ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi fəaliyyətinin ana xətti olacaq. Bugünkü reallıq söz ilə əməlin vəhdət təşkil etdiyini göstərir.

*Azərbaycanın iştirakçı olduğu "Cənub qaz dəhlizi" layihəsinə maraq getdikcə artır. Ölkəmizin enerji resurslarından faydalanmaq istəyənlərin sayı çoxalır. Bütün bu uğurlar sübut edir ki, 15 iyun Azərbaycan tarixinin ən önəmli günlərindən biridir.*

***Azər BADAMOV,***
***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini, YAP İdarə Heyətinin üzvü***

# Müasir Azərbaycanın dövlətçilik işığı

**İmperiya 1920-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikasını ilhaq etsə də, azadlıq, müstəqillik mübarizəsinin qarşısını almağa qüdrəti çatmamışdı. 1920-ci ildən başlayan bu mübarizənin növbəti mərhələsi imperiyanın sərt qadağalarını da üstələdi, təhdidlərini də. Ermənistanın ərazi iddiası xalqın azadlıq, müstəqillik mübarizəsini daha da genişləndirdi, açıq müstəviyə keçirdi. Ermənistan Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılması məsələsini Moskvanın hakimiyyət nüfuzu ilə həll etməyə cəhd göstərdi. Azərbaycan xalqı bu cəhdi mübarizəsinin tam ciddiyyəti ilə çiliklədi...**

Xalqımızın azadlıq, müstəqillik mübarizəsini imperiyanın 20 Yanvar qəddarlığı da dayandıra bilmədi. Xalqın birliyi, mübarizə əzmi imperiyanın hakimiyyətini sona çatdırdı, Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu. Dünyanın əksər dövlətləri Azərbaycanın dövlət müstəqilliyini tanıdı...

Lakin həmin dövrdə səriştəsizlik, hakimiyyət boşluğu, separatçılıq, parçalama meyilləri, ambisiyalar dövlət daxilində vətəndaş qarşıdurması yaratmaqdaydı. 1991-1993-cü illər ərzində dövlətin müstəqilliyinə və suverenliyinə təhdidlər yaranırdı, miqyaslı böhran duyulurdu, dövlət əmlakı, ehtiyat mənzil fondu dağıdılırdı. Azərbaycan dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşmişdi...

Xalq böyük təkidlə böyük tarixi şəxsiyyət Heydər Əliyevi hakimiyyətə çağırdı. Həmişə Azərbaycan xalqının səsini ürəyi ilə eşidən böyük şəxsiyyət xalqın çağırışına cavab olaraq Bakıya qayıtdı. 9 iyun 1993-cü ildə Azərbaycanın dövlət müstəqilliyinin labüd iflasdan qurtuluşunun başlanğıcı oldu. Ölkəmizi bu ağır vəziyyətdən dahi şəxsiyyət Heydər Əliyevin dövlətçilik dühası qurtardı...

Ulu Öndər o dövrü xatırlayaraq belə demişdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı". Bu kəlamlar Azərbaycan tarixinin bir dövrünün siyasi gerçəkliklərini ifadə edir.

1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. 1993-cü il iyunun 24-də Milli Şuranın qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri Ali Sovetin Sədri Heydər Əliyevə verildi. 1997-ci ilin iyun ayında isə Milli Məclis 15 İyun gününü bayram günü elan etdi. "Mənə bu gün böyük etimad göstərdiyinə görə Milli Məclisin üzvlərinə, Azərbaycanın Ali Sovetinə minnətdarlığımı bildirirəm və sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Ali Sovetin Sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".

Azərbaycan siyasi burulğandan xilas olsa da, ölkədə iqtisadi çətinliklər, ordu quruculuğunda ləngimələr, problemlər mövcud idi, dünya dövlətləri ilə siyasi münasibətlər tam nizamlanmamışdı. Böyük tarixi şəxsiyyət bütün yerli özünümüdafiə batalyonlarının buraxılması haqqında sərəncam verdi. Bu sərəncam orduda vahid komandanlığın yaradılmasının, nizam-intizamın yaradılmasının başlanğıcı oldu. Ordunun yüksəkrütbəli, yüksəkhazırlıqlı zabit kadrları ilə komplektləşdirilməsi məqsədilə Silahlı Qüvvələrin Hərbi Akademiyası yaradıldı. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi səngərlərdə əsgər və zabitlərlə söhbətlər etdi, xidmətdə fərqlənənləri təltif etdi. Bunlar şəxsi heyətin mənəvi-psixoloji hazırlığında əhəmiyyətli oldu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişi cəhdlərinə birdəfəlik son qoyuldu, böyük neft müqavilələri imzalandı, dünya dövlətləri ilə beynəlxalq əlaqələr formalaşdı, ilk parlament seçkiləri keçirildi. Referendum yolu ilə Konstitusiya qəbul edildi, respublikada asayiş, qayda-qanun möhkəmləndirildi, müharibədə atəşkəs əldə edildi ki, bu da ordunun formalaşması üçün zəmin yaratdı. Bütün bunlar 15 İyunun mahiyyəti ilə həyata keçirilmişdi.

Ali Baş Komandanın sərkərdəliyi ilə həyata keçirilən Horadiz əməliyyatı qələbə ilə başa çatdı. Bu qələbənin hərbi dəyəri (1993-cü ilin dekabrından başlayan və 1994-cü il yanvarın 6-dək davam edən Horadiz əməliyyatında 21 min hektar ərazi, Füzuli rayonunun Arazboyu 20 kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi) ilə bir sırada ordumuzun şəxsi heyətinin döyüş əzmi də yüksəldi, qələbə ruhu da...

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin xarici siyasətinin başlıca istiqamətləri Ermənistanın Azərbaycana qarşı elan etmədən apardığı müharibənin sonladırılıması, torpaqlarımızın işğaldan azad olunması, məcburi köçkünlərin öz ocaqlarına qayıtması kimi taleyüklü məsələləri əhatələyirdi.

*Ulu Öndərin arzularını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev gerçəkləşdirdi. "Danılmaz həqiqətdir ki, Azərbaycanın müasir və müstəqil dövlət kimi mövcudluğu, inkişafı XX əsrdə ikinci dəfə qazandığımız müstəqilliyin ilk illərinə təsadüf edən Milli Qurtuluş Günü ilə əlaqədardır. Qurtuluş Günü Azərbaycan tarixində dönüş nöqtəsi idi". 15 İyun Azərbaycanın dövlətçilik tarixinin qurtuluşunun günüdür. Qurtuluş Günü hər bir azərbaycanlının dövlətə, dövlətçiliyə sədaqətinin günüdür. Qurtuluş Günü müasir Azərbaycanın dövlətçilik işığıdır...*

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

1993 MİLLİ QURTULUŞ 2026

# Uğurların təməlinin qoyulduğu tarix



**Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün, sadəcə, təqvim bayramı deyil, o, böyük ictimai, siyasi və tarixi əhəmiyyət daşıyır. 15 İyun - Mili Qurtuluş Günü xalqımızın həqiqi xilası tarixidir. Bu tarixin yaradıcısı Azərbaycan müstəqilliyinin qorunmasında, möhkəmləndirilməsində və inkişafında müstəsna rol oynamış, daim öz xalqına arxalanmış Ümummilli Lider Heydər Əliyevdir.**

Heydər Əliyevin 15 iyun 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin ən şanlı səhifələrindən biridir. Bu gün həm də Azərbaycanın tənəzzüldən çıxaraq tərəqqi yoluna qədəm qoyduğu, qlobal miqyasda müstəqil siyasət həyata keçirən və beynəlxalq aləmdə layiqli yer tutan dövlət kimi tanındığı dövrün başlanğıcı kimi səciyyələndirilir. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin adı tariximizə xilaskar və müstəqilliyimizin təminatçısı kimi yazılıb. Müstəqilliyin bərpasından sonrakı ilk illərdə baş verən hadisələri xatırladıqda böyük liderin böyüklüyünü və dahiliyini bir daha aydın görürük.

XX əsrin sonlarında Azərbaycan yenidən müstəqillik qazanmaq imkanı əldə etsə də, qısa müddətdə onu itirmək təhlükəsi ilə üzləşdi. AXC-Müsavat iqtidarının səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması, ölkədə fəaliyyət göstərən silahlı dəstələrin 1993-cü ilin əvvəllərindən başlayaraq yol verdikləri qanunsuz əməllər, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq və parçalanma meyillərinin baş qaldırması və bütün bunların ölkənin daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaratması Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu.

Beləliklə, 1991-1993-cü illər ölkəmizin yeni tarixində düşünülməmiş addımlar, özbaşınalıq və avantürist eksperimentlər dövrü kimi yadda qaldı. Bu isə ona görə baş verdi ki, yeni yaranmış müstəqil dövlətə liderlik keyfiyyətlərinə malik olmayan, siyasi hadisələri düzgün qiymətləndirmək, gələcəyi görmək və hətta sadə vəziyyətdən çıxış yolu tapmaq bacarığı olmayan şəxslər rəhbərlik edirdi. Əvvəlki hakimiyyət günbəgün nüfuzunu itirir, baş verən proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını ard-arda işğal etməsi, siyasi-iqtisadi və sosial gərginliyin artması ölkəni bu vəziyyətdən xilas edəcək liderə ehtiyac yaradırdı. Cəmiyyətdə yekdil fikir formalaşmışdı ki, ölkəni bu ağır vəziyyətdən yalnız Heydər Əliyev çıxara bilər. Xalq öz dahi oğlunu təkidlə hakimiyyətə dəvət etdi və 9 iyun 1993-cü ildə Heydər Əliyev xalqın çağırışına cavab verərək Naxçıvandan Bakıya gəldi, bir neçə gün sonra isə hakimiyyət sükanı arxasına keçdi. Bu, ölkənin taleyində əsl dönüş nöqtəsi oldu.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanı parçalanma təhlükəsindən xilas edərək ölkənin gələcək inkişaf strategiyasını müəyyənləşdirdi. Onun yorulmaz fəaliyyəti nəticəsində ölkədə ictimai-siyasi sabitlik bərqərar oldu, qanunsuz silahlı dəstələr zərərsizləşdirildi, islahatlara start verildi və sosial-iqtisadi dirçəlişin əsası qoyuldu. Onun siyasəti və bacarıqlı diplomatiyası nəticəsində atəşkəsə nail olundu və erməni təcavüzü dayandırıldı.

Heydər Əliyev qeyd edirdi: "Azərbaycan böyük təhlükə ilə üz-üzə qalmışdı. Bir tərəfdən müstəqilliyə qarşı çıxan daxili qüvvələr fəallaşmışdı, digər tərəfdən isə geostrateji əhəmiyyətə və zəngin təbii resurslara malik Azərbaycanın tam müstəqilliyi bəzi xarici dairələri qane etmirdi. Ermənistanın təcavüzü və bunun nəticəsində ölkənin zəifləməsi, daxili çəkişmələr və hakimiyyət uğrunda mübarizə 1992-ci ildə hakimiyyətə gələn qüvvələrin bir ildən sonra getməsinə səbəb oldu".

1993-cü il iyunun 15-də Ali Sovetin Sədri seçilən Heydər Əliyev demişdi: "Mənim həyatım və fəaliyyətim yalnız Azərbaycanın müstəqilliyinin qorunmasına və ölkəmizin bu ağır vəziyyətdən çıxarılmasına həsr olunacaq". Ümummilli Lider ilk növbədə ölkədə vətəndaş həmrəyliyini və sabitliyi təmin etməyə nail oldu və bununla da inkişaf üçün möhkəm zəmin yaratdı. Bu istiqamətdə ilk mühüm addım 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması oldu. Bu, ölkənin iqtisadi imkanlarını genişləndirdi, xarici investisiyaların cəlb edilməsi üçün şərait yaratdı və Azərbaycanı beynəlxalq enerji xəritəsində əsas mövqeyə qaldırdı. 1995-ci ilin noyabrında yeni Konstitusiya qəbul edildi və demokratik, hüquqi dövlətin əsası qoyuldu. Eyni zamanda islahatların həyata keçirilməsi üçün hüquqi baza formalaşdırıldı. Həmin dövrdə qəbul edilən qərarlar, qanunlar Azərbaycanı parçalanma təhlükəsindən xilas etdi, dövlət idarəçiliyini bərpa etdi və sabitliyi təmin etdi. Bu, sadəcə, böhrandan çıxış yolu deyildi. Bu, həm də gələcəyin qurulması üçün möhkəm təməl idi. Azərbaycanın bugünkü uğurları, həyata keçirdiyi böyük layihələr və regiondakı mövqeyi bir daha göstərir ki, həmin tarixi dövrdə atılan addımlar gələcək nəsillərin taleyinə də təsir edən strateji qərarlar olub. Məhz buna görə də Milli Qurtuluş Günü müstəqil Azərbaycanın ən əlamətdar tarixlərindən biridir.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın qurucusu və xilaskarı kimi tarixə düşdü. Bu gün aydın görünür ki, müasir Azərbaycan onun yaratdığı əsərdir, 15 iyun isə böyük nailiyyətlərin başlanğıcıdır. Təsadüfi deyil ki, məhz Milli Qurtuluş Günündə Azərbaycan ilə Türkiyə arasında münasibətləri strateji müttəfiqlik səviyyəsinə qaldıran Şuşa Bəyannaməsi imzalanmışdır. Bu hadisə xalqımızı daha da ruhlandırmışdır.

Azərbaycan xalqı Heydər Əliyevin xidmətlərini dərin minnətdarlıq hissi ilə yad edir. Onun ən böyük xidmətlərindən biri də Azərbaycanın inkişafını uğurla davam etdirən layiqli davamçı yetişdirməsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz sürətlə inkişaf edir, beynəlxalq aləmdə mövqelərini möhkəmləndirir və milli maraqlarını qətiyyətlə qoruyur. Son illərdə Azərbaycan böyük inkişaf yolu keçmiş, ərazi bütövlüyünü bərpa etmişdir. Bu gün Azərbaycan azad, müstəqil və güclü dövlətdir. Ordumuz dünyanın ən güclü 50 ordusu sırasındadır. 44 günlük Vətən müharibəsində əldə edilən təcrübə, xüsusilə Şuşa əməliyyatı dünyanın aparıcı hərbi təhsil müəssisələrində öyrənilir. Artıq 6 ilə yaxındır ki, xalqımız bu günü daha yüksək əhvali-ruhiyyə, milli qürur hissi və Qələbədən ruhlanaraq qalib xalq kimi qeyd edir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində parlaq Qələbə qazanaraq torpaqlarımızı işğaldan azad etdi, ölkəmizin ərazi bütövlüyünü təmin etdi. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Böyük Qələbə və digər nailiyyətlər məhz Milli Qurtuluş Günündən qaynaqlanır. Dahi liderin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ümummilli Lider Heydər Əliyevin məcburi köçkünlərlə görüşlərin birində böyük inam və uzaqgörənliklə söylədiyi sözlər yada düşür: "Arzu edirəm ki, sizinlə birlikdə Şuşaya gedək. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın ürəyidir, hər bir azərbaycanlı üçün qürur mənbəyidir. Şuşa mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamımız üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçının dağları da bizə əzizdir. Biz Laçınsız yaşaya bilmərik. Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı kimi gözəl şəhərlər, Kəlbəcərin bulaqları, İstisu olmadan yaşaya bilmərik". Böyük lider Heydər Əliyevin arzuları reallığa çevrildi. Prezident İlham Əliyev atasının vəsiyyətini yerinə yetirdi. Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Xocalıda, Xankəndidə üçrəngli bayrağımız qürurla dalğalanır. Bu gün Ümummilli Liderimizin yolunu və ideyalarını dünyanın nüfuzlu dövlət xadimi, Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva uğurla davam etdirir və daha da gücləndirirlər.

*Beləliklə, 15 İyun- Milli Qurtuluş Günü Azərbaycanın müasir tarixində dönüş nöqtəsi hesab olunur. Həmin gün başlanan siyasi proseslər ölkədə sabitliyin təmin edilməsinə, dövlət institutlarının gücləndirilməsinə və gələcək inkişaf strategiyasının formalaşmasına şərait yaratmışdır. Bu səbəbdən Milli Qurtuluş Günü təkcə tarixi hadisə kimi deyil, həm də müasir Azərbaycan dövlətçiliyinin inkişaf mərhələlərinin başlanğıcı kimi qiymətləndirilir.*

***Hicran HÜSEYNOVA,***
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor***

# Milli Qurtuluşdan şanlı Zəfərə

**Azərbaycan xalqının taleyində onun gələcəyini müəyyənləşdirən, tarixi başlanğıcların əsasının qoyulduğu əhəmiyyətli günlər var. Belə önəmli günlərdən biri müasir tariximizə ən əlamətdar günlərdən biri kimi yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. 1993-cü ilin bu tarixində Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Ali Sovetinə Sədr seçilməsi müstəqil ölkəmizin tarixində yeni mərhələnin başlanğıcı oldu.**

1991-1993-cü illər ölkəmizin müasir tarixinə hərc-mərclik, özbaşınalıq və avantürist eksperimentlər dövrü kimi həkk olunub. XX əsrin sonlarında yenidən tarixi müstəqilliyini qazanmaq fürsətini əldə edən Azərbaycan çox keçmədən suverenliyini tamamilə itirmək təhlükəsi ilə üzləşmişdi. Vətəndaş müharibəsi həddinə çatmış daxili qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə sual altında qoymuşdu. Bütün bu bəlalar həmin dövrdə liderlik xüsusiyyətlərindən uzaq, siyasi prosesləri düzgün qiymətləndirməkdən və gələcəyi görməkdən məhrum olan, böhranlı vəziyyətlərdən çıxış yolu tapa bilməyən naşı, təsadüfi rəhbərliyin ölkəmizə başçılıq etməsi ucbatından baş verirdi.

Hadisələri düzgün qiymətləndirə bilməyən, nüfuzunu tamamilə itirmiş ovaxtkı AXC-Müsavat iqtidarı baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi. Sağlam düşüncəli insanlar, ziyalılar isə səriştəsiz hakimiyyətin Azərbaycanı uçuruma apardığını aydın gördülər. Belə gərgin və böhranlı vəziyyətdə xalqımız ümidini məhz Ulu Öndər Heydər Əliyevə bağlamışdı. Hələ 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısı Ümummilli Liderə yazılı müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etmişdi. Bu addım faktiki olaraq gələcək xilaskarlıq hərəkatının siyasi platformasının formalaşdırılması mənasına gəlirdi.

Xalqın təkidli tələbi və dövlətin rəsmi dəvəti ilə 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyevin doğulub boya-başa çatdığı doğma Naxçıvandan paytaxt Bakıya qayıtması müasir tariximizin ən mühüm dönüş nöqtəsi oldu. Həmin günlərdə paytaxt Bakıda və ölkənin digər bölgələrində hökm sürən dərin ümidsizlik, qorxu və xaos mühiti Ulu Öndərin paytaxta gəlişi ilə yerini dərhal mənəvi rahatlığa və sarsılmaz inama verdi. Bakıya qayıdan Ümummilli Lider ölkədəki böhranlı vəziyyəti, xüsusilə Gəncə şəhərində kəskinləşən hərbi-siyasi böhranı yerindəcə araşdırmaq məqsədilə heç bir təhlükəyə məhəl qoymadan hadisə yerinə yollandı. Bununla da Azərbaycanı parçalanmağa və fəlakətə sürükləyə biləcək qardaş qırğınının, vətəndaş müharibəsinin böyük uzaqgörənliklə qarşısı alındı.

Həmin dövrdə vəziyyəti düzgün dəyərləndirən qədirbilən xalqımız Ulu Öndərə mütləq etimad göstərdi. Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Birmənalı qeyd etmək lazımdır ki, əgər 15 İyun olmasaydı, bu gün nə müasir müstəqil Azərbaycan, nə də güclü, qüdrətli və qalib dövlətimiz olacaqdı. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bu tarixi gündən sonra mümkün oldu. Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi əsasında atdığı praqmatik addımlar ölkəmizdə hökm sürən özbaşınalığın, dağıdıcı proseslərin aradan qaldırılmasına gətirib çıxardı.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı vətəndaş müharibəsindən, qarşıdurmadan, tənəzzül və məhv olmaq təhlükəsindən xilas edərək həm də dirçəliş yoluna çıxardı. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı Azərbaycan dövlətini, müstəqilliyini, xalqımızın qürurunu, tarixini, bu gününü və parlaq sabahını yenidən özünə qaytardı. 1993-cü il oktyabrın 3-də isə Ümummilli Lider Heydər Əliyev xalqımızın böyük əksəriyyəti tərəfindən ölkə Prezidenti seçildi. 1997-ci ildən etibarən isə parlamentin qərarı ilə 15 iyun Milli Qurtuluş Günü kimi ölkəmizdə qeyd edilməyə başlandı.

İyunun 15-dən sonra böyük Heydər Əliyevin xilaskarlıq missiyası həm daxili, həm də xarici siyasətdə uğurla reallaşmağa başladı. Qısa müddət ərzində respublikamız ilk növbədə informasiya blokadasından çıxarıldı, dünyada ölkəmizlə bağlı formalaşan rəy müsbət istiqamətdə dəyişdi. Siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən Ermənistanla atəşkəs əldə edildi. Yaranmış şəraitdən, sabitlikdən istifadə edərək 1994-cü ilin sentyabrında məşhur "Əsrin müqaviləsi" imzalandı. Azərbaycan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi, qədim İpək yolunun bərpası kimi qlobal layihələrin fəal iştirakçısına çevrildi. 1995-ci ilin noyabrında isə demokratik, hüquqi dövlətin təməlini təşkil edən ilk milli Konstitusiya qəbul olundu. Ümumilikdə 1993-2003-cü illər Azərbaycan tarixinə dirçəliş, inkişaf və tərəqqi dövrü kimi yazıldı. Böyük Heydər Əliyevin sonralar seçki platpormasında yazıldığı kimi: Qayıdış!, Qurtuluş!, Dirçəliş! və Yüksəliş!

Vaxtilə Ümummilli Lider Heydər Əliyevin ərazi bütövlüyünü tam görmək istədiyi Azərbaycan bu gün tamamilə azaddır, suverendir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində müzəffər Ordumuz tərəfindən düşmən üzərində parlaq, tarixi qələbə qazanıldı. Dünyada böyük əks-səda doğuran İkinci Qarabağ müharibəsi Azərbaycanın öz müqəddəs torpaqlarını azad etməsi, Ermənistanın işğal siyasətinə birdəfəlik son qoyulması ilə nəticələndi. Müharibə günlərində Azərbaycanı öz yolundan döndərmək üçün göstərilən xarici təzyiqlərin və beynəlxalq təşəbbüslərin qarşısı dünya lideri kimi şöhrət qazanmış Prezident İlham Əliyevin qətiyyəti ilə diplomatik peşəkarlıqla alındı.

Vətən müharibəsində qazandığımız tarixi Zəfər həm də Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasının, böyük dirçəliş dövrünün başlanğıcıdır. Bu gün azad edilmiş ərazilərdə reallaşdırılan nəhəng bərpa-quruculuq işləri və soydaşlarımızın doğma yurdlarına dönüşünü təmin edən "Böyük qayıdış" proqramı öz miqyası və sürətinə görə dünyada analoqu olmayan möhtəşəm quruculuq modelidir. Bu möhtəşəm reallığın kökündə isə Ulu Öndər Heydər Əliyevin uzaqgörən dövlətçilik strategiyası, onun hələ onilliklər öncə əsasını qoyduğu milli və siyasi-ideoloji irs dayanır. Ümummilli Lider Heydər Əliyev yaxşı bilirdi ki, torpaqlarımızın azad edilməsi və gələcəkdə bərpası üçün ilk növbədə güclü iqtisadi təməl və qüdrətli ordu lazımdır. Məhz Ulu Öndərin müəllifi olduğu neft strategiyası və dövlət quruculuğu xətti bu gün azad Qarabağda ucalan "ağıllı şəhər"lərin, kəndlərin, beynəlxalq hava limanlarının, magistral yolların və tunellərin maliyyə-iqtisadi sütununu təşkil edir. Şuşanın, Ağdamın, Füzulinin, Laçının, Kəlbəcərin və digər cənnət guşələrimizin abadlaşdırılması hər şeydən əvvəl Ulu Öndərin ən böyük arzusunun və vəsiyyətinin yerinə yetirilməsidir. Ümummilli Liderin xalqımıza müraciətlərində hər zaman böyük inamla vurğuladığı "Biz Qarabağa qayıdacağıq, Şuşaya qayıdacağıq" kəlamı işğaldan azad olunmuş torpaqlarda həyatın bərpası ilə tam təsdiqini tapır. "Böyük qayıdış" proqramı çərçivəsində öz yurduna dönən hər bir azərbaycanlı həm də Ümummilli Liderin ruhunu şad edən tarixi bir missiyanın iştirakçısına çevrilir.

Milli dövlətçilik ideologiyasının və Ulu Öndərin zəngin irsinin qorunması, gələcək nəsillərə ötürülməsi və dünyada obyektiv şəkildə təbliği məsələsində dahi liderin adını daşıyan Heydər Əliyev Fondunun xidmətləri müstəsna əhəmiyyət kəsb edir. Ümummilli Lider Heydər Əliyev məktəbinin layiqli yetirməsi olan Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi çoxşaxəli fəaliyyəti müstəqil dövlət quruculuğu prosesinin modernləşməsinə və davamlı islahatlarla təkmilləşməsinə fundamental töhfələr verir. Onun təkmil idarəçilik üslubu idarəetmə aparatının keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə, daha çevik və mükəmməl mexanizmlərlə çalışmasına xidmət edir. Birinci vitse-prezident xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi bu strateji missiya respublikanın davamlı inkişafını təmin etməklə yanaşı, cəmiyyətdə mənəvi mühitin saflığına, vətəndaş cəmiyyəti institutlarının möhkəmlənməsinə, ölkənin beynəlxalq nüfuzunun artmasına və ən əsası əhalinin sosial rifahının köklü şəkildə yaxşılaşdırılmasına yönəlib.

Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın rəhbərliyi ilə torpaqlarımız işğaldan azad olunduğu ilk günlərdən etibarən həmin ərazilərin bərpa və quruculuq işlərinin ön cəbhəsində yer alaraq regionun mənəvi coğrafiyasını yenidən qurur. Uzun illər düşmən tapdağı altında qalan, dağıdılan və saxtalaşdırılmağa çalışılan dini, mədəni və tarixi abidələrimizin fundamental bərpası birbaşa Birinci vitse-prezidentin rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xətti ilə həyata keçirilir. Şuşadakı Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa və Saatlı məscidlərinin, Ağdam Cümə məscidinin, eləcə də digər rayonlardakı müqəddəs ocaqlarımızın tarixi memarlıq üslubuna uyğun olaraq bərpası Ulu Öndərin milli-mənəvi dəyərlərə bağlılıq vəsiyyətinin ən ali səviyyədə icrasıdır.

Heydər Əliyev Fondunun fəaliyyəti təkcə keçmişin bərpası ilə məhdudlaşmır, həm də gələcəyin mədəni sütunlarını ucaldır. Ümummilli Liderin əsasını qoyduğu "Xarıbülbül" Musiqi Festivalının və Vaqif Poeziya Günlərinin onilliklər sonra yenidən Şuşada və digər azad olunmuş bölgələrdə qeyd edilməsi böyük missiyaya hamilik edən Heydər Əliyev Fondunun regiona milli ruhu necə sürətlə qaytardığının bariz sübutudur.

Eyni zamanda humanitar missiyanı rəhbər tutan fond işğaldan azad edilmiş yurd yerlərimizdə müasir təhsil və səhiyyə ocaqlarının qurulmasında, uşaq bağçalarının və məktəblərin inşasında fəal iştirak edir. "Böyük qayıdış" çərçivəsində öz doğma evlərinə dönən insanlarımızın keyfiyyətli həyat standartları ilə təmin olunması üçün Heydər Əliyev Fondu həm sosial, həm də infrastruktur dəstəyini davam etdirir. Beləliklə, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın sarsılmaz iradəsi və genişmiqyaslı fəaliyyəti sayəsində Qarabağ və Şərqi Zəngəzur bu gün dünyaya həm də Ulu Öndərin arzuladığı kimi öz mədəniyyəti, mənəviyyatı və milli kimliyi ilə yenidən bütöv və qüdrətli şəkildə təqdim olunur.

Dövlətçiliyimizin Qurtuluş tarixini yaradan, Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində və inkişafında müstəsna rol oynayan, daim millətinə arxalanan və xalqına dayaq olan Ümummilli Lider Heydər Əliyev bütün ömrünü ölkəmizin tərəqqisinə və firavanlığına həsr etmişdir. Ulu Öndərin həyat və fəaliyyəti hər bir azərbaycanlı üçün örnəkdir, güc mənbəyidir. Bugünkü müstəqil, suveren Azərbaycanın sürətli inkişafının təməli də məhz Heydər Əliyev tərəfindən qoyulub, möhkəmləndirilib. Bu gün Ümummilli Liderin təkrarsız siyasi-ideoloji kursu onun layiqli siyasi varisi olan qalib ölkənin dünyaşöhrətli lideri, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla, layiqincə davam və inkişaf etdirilir.

*Qəhrəman vətən övladlarımızın, vətən fədailərimizin qanı, canı bahasına yaşayan müstəqil Azərbaycanın Milli Qurtuluşundan şanlı Zəfərimizə uzanan dövlətçilik salnaməsi böyük xalqımızın gələcək nəsillərinə ən böyük əmanəti, Ulu Öndər Heydər Əliyevin ideallarına isə ən ali sədaqətin nümunəsidir. Qurtuluşla başlayan böyük yol bu gün Böyük qayıdışla taclanır. Zaman keçir, tarixin səhifələri yenilənir, lakin Ümummilli Lider Heydər Əliyev dühasının memarı olduğu müstəqillik strategiyası yenə də Azərbaycanı addım-addım daha işıqlı sabahlara daşıyır. Bu gün hər birimiz zəngin dövlətçilik tarixinə malik olan müasir, güclü və müstəqil Azərbaycanla qürur duyuruq, belə qüdrətli dövlətin vətəndaşı olmağımızla fəxr edirik.*

***Bəxtiyar ƏSGƏROV,***
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri, filologiya üzrə fəlsəfə doktoru***

1993 MİLLİ QURTULUŞ 2026

# Heydər Əliyev fenomeni: dünəndən bu günümüzə, bu gündən sabahımıza

**Ötən əsrdə iki dəfə dövlət müstəqilliyini elan etmiş Azərbaycanın yeni minilliyin başlanğıcındakı ən mühüm nailiyyəti bu tarixi dövrə hüquqi, sivil dövlət, vətəndaş cəmiyyəti quran ölkə kimi daxil olmasındadır. Ümummilli Lider Heydər Əliyevin hələ sovet Azərbaycanına rəhbərliyi dövründə formalaşdırdığı möhkəm təməllər üzərində aparılan inkişaf prosesləri onun müstəqil Azərbaycan rəhbərliyinə qayıdışından sonra yeni məzmunda davam etdirilmiş, xalqımızın dövlət quruculuğu potensialı maksimum reallaşdırılaraq möhtəşəm nəticələr yaratmışdır.**

Bu potensial cəmiyyət həyatının, demək olar ki, bütün sferalarına nüfuz etmiş, keçmişin ətalətə köklənmiş müəyyən stereotiplərini, həyatın adət halını almış bəzi normalarını büsbütün dəyişdirmiş, ictimai inkişafı zənginləşdirmişdir.

Bəşəriyyətin tarixi təcrübəsi belə bir həqiqəti təkrar-təkrar isbatlayıb və bu gün də sübuta yetirməkdədir ki, milli dövlətçiliyin sabitliyi və möhkəmliyi lider faktorundan birbaşa asılıdır. Yalnız icmanı milli dövlət quruculuğu səviyyəsinə yetirərək millətə, onun nailiyyətlərini tarixi qələbələrə çevirməyə qadir güclü və istedadlı liderlərə malik cəmiyyətlərdə milli dövlətçiliyin sabitliyi, möhkəmliyi təmin edilə bilər.

Azərbaycanın ən yeni tarixinin təhlili müstəqil milli dövlətçiliyimizin möhkəm təməlinin məhz 1993-cü ildə qoyulduğunu göstərir. Bu dövr yeni siyasi elitanın idarəçilik potensialı sayəsində, əvvəlki hakimiyyət dairələrinin dövlətin mahiyyəti və beynəlxalq mövqeyi barədə qeyri-sabit və anarxik baxışlarının əvəz olunması ilə xarakterizə olunmuş, müstəqil dövlətimizin formalaşması, institusional möhkəmlənməsi, dayanıqlı inkişafı və sosial-iqtisadi tərəqqisinin təminində həlledici əhəmiyyət kəsb etmişdir.

Ötən əsrin 90-cı illərinin əvvəlindən etibarən ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər də bir daha təsdiqlədi ki, müstəqilliyin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Ölkədə 1991-1993-cü illərdə hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermişdi. Belə ağır şəraitdə respublikanın tərəqqipərvər qüvvələri, mütərəqqi ruhlu ziyalıları çıxış yolunu Ulu Öndər Heydər Əliyev kimi müdrik şəxsiyyətin hakimiyyətə gəlməsində görür, hər cür riskə rəğmən bu istəklərini açıq ifadə etməkdən çəkinmirdilər. Həmin illərdə obyektiv səbəblərdən Naxçıvana gedə bilməyənlər isə muxtar respublikanın Ali Məclisinin Sədri Heydər Əliyevin ünvanına saysız-hesabsız müraciətlər, teleqramlar göndərərək xalqı düşdüyü bəlalardan qurtarmağı xahiş edirdilər. Azərbaycanın düçar ola biləcəyi fəlakətlərin qarşısının vaxtında alınması məqsədilə sağlam qüvvələrin Ulu Öndər Heydər Əliyevin ətrafında birləşmək niyyəti yalnız bir qrup ziyalının deyil, respublikamızın bütün bölgələrində, şəhər və kəndlərində ayrı-ayrı vətəndaşlar, müxtəlif sosial qruplar arasında eyni zamanda başlanmışdı. İlk dövrlərdə kortəbii, dağınıq fəaliyyət getdikcə daha mütəşəkkil xarakter almış və yeni partiyanın yaradılması üçün dahi liderə yazılı müraciət edilməsi zərurətini doğurmuşdu.

Xalqın rəyini ifadə edən bir qrup ziyalı Ümummilli Liderə müraciətində ölkəni anarxiya mühitindən çıxarıb aydın sabaha doğru aparacaq, müstəqilliyimizi əbədi və yenilməz edəcək, millətimizi bir bayraq, eyni amal ətrafında birləşdirəcək, milli həmrəyliyə, vətəndaş cəmiyyətinə qovuşduracaq siyasi partiyanın yaradılmasına yardımçı olmağı xahiş edirdi. Müraciəti imzalayanlar yaxşı bilirdilər ki, yeni müstəqillik qazanmış ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət Heydər Əliyevdir. Vətənpərvər Azərbaycan ziyalılarının həmin müraciəti sonralar çağdaş tariximizə məşhur "91-lərin müraciəti" adı ilə daxil oldu. Bu tarixi müraciət, əslində, bütün Azərbaycan vətəndaşlarının istəyi, arzusu, haqlı tələbi idi. Xalqının taleyinə heç zaman biganə qalmayan, respublikanın dağılmasına dözməyən Ulu Öndər ziyalıların müraciətinə müsbət cavab verdi: *"Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində iştirak etməyə hazıram".*

Nəhayət, 1992-ci il noyabrın 21-də müstəqil Azərbaycanın çağdaş dövlətçilik tarixində yeni səhifə açan əlamətdar hadisə baş verdi. Naxçıvanda 550-yə yaxın nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayı keçirildi, Ulu Öndər Heydər Əliyev yekdilliklə təşkilata sədr seçildi. Yeni Azərbaycan Partiyasının qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması da məhz Ulu Öndər Heydər Əliyevin fenomenal liderlik və idarəçilik keyfiyyətləri ilə şərtlənirdi. Qarşıda isə Ulu Öndəri daha çətin, eyni zamanda şərəfli bir missiya gözləyirdi...

1993-cü il iyunun 9-da xalqın təkidi ilə Bakıya qayıdan Ulu Öndər təbiətin ona bəxş etdiyi fövqəlidarəçilik keyfiyyətlərindən məharətlə bəhrələnərək ölkəni vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil oldu. İyunun 15-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə ölkədəki kütləvi inamsızlıq, hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin tədricən azalmasına, sözün həqiqi mənasında xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratdı.

Bu baxımdan müasir Azərbaycanın milli dövlətçilik sistemi - azərbaycançılıq ideyasını strateji xəttə çevirən, insan hüquq və azadlıqlarını təmin edən, davamlı iqtisadi yüksəlişi reallaşdıran və ictimai tərəqqini gerçəkləşdirən iki liderin - xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Ulu Öndərin strateji inkişaf kursunu uğurla davam etdirərək dövlətimizi tarixinin ən qüdrətli mərhələsinə yetirmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyat və fəaliyyəti ilə bağlıdır. Bu böyük şəxsiyyətlərin müəllifi olduqları dövlətçilik modeli həm milli identiklik, həm də universal dəyərlərin sintezində formalaşaraq müasir dövrün tələblərinə cavab verən inkişaf istiqamətini müəyyənləşdirir.

Azərbaycanın 1993-cü ildən sonra qısa müddət ərzində keçdiyi inkişaf yolu, əldə etdiyi mühüm nəticələr və artıq 2003-cü ilə qədərki on il ərzində özünü doğrultmuş strateji inkişaf xəttinin gələcəkdə də davam etdirilməsi zərurəti Ümummilli Liderin xalqımıza 1 oktyabr 2003-cü il tarixli müraciətində dəqiq əsaslandırılmışdır. Dövlətçilik təcrübəsinin düzgün əxz olunması, hər hansı bir ölkənin gələcəyinə strateji baxış bacarığının formalaşması, dövlətin, cəmiyyətin inkişafının ayrı-ayrı epizodlardan deyil, bu məqamları ehtiva edən uzunmüddətli və davamlı proseslərdən, ardıcıl nailiyyətlərin yaratdığı möhtəşəm nəticələrdən təşkil olunması həqiqətinin aydın təsəvvürü üçün indiki və gələcək nəsillərin bu müraciəti hər zaman öyrənib təhlil etmələrinə ehtiyac var.

Həmin müraciətdə müstəqil dövlətimizin dünya ölkələrinin ən qabaqcıl təcrübələrindən və dəyərlərindən bəhrələnərək inkişaf etdiyi, demokratik cəmiyyət, hüquqi dövlət, insan və vətəndaş haqlarının aliliyi, siyasi plüralizm prinsiplərini rəhbər tutaraq Avropanın və dünyanın ən qabaqcıl, qüdrətli dövlətləri ilə çiyin-çiyinə fəaliyyət göstərdiyi, beynəlxalq aləmdə öz layiqli yerini tutduğu, dünyanın, regionun və bizi əhatə edən xarici aləmin əsas strateji və qlobal məsələlərinin Azərbaycanın rəyi, mənafeləri nəzərə alınmadan həll edilmədiyi vurğulanır, qeyd edilirdi ki, artıq dünyada bizi tanıyır, qəbul edir və əsas məsələlərdə rəyimizlə hesablaşırlar.

Müstəqil dövlətimizin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin böyük inam və ümidləri işığında 2003-cü il oktyabrın 15-də xalqın yekdil dəstəyini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Əliyev ölkəmizi tarixdəki bu ən yüksək mövqeyinə yüksəltməyə dövlətə rəhbərliyinin ilk ilindən, ayından, həftəsindən, gün və saatlarından da deyil, hətta ilk dəqiqələrindən başlamışdı. Cənab İlham Əliyev hələ andiçmə mərasimində böyük hədəflərə doğru yolu aydın nişan verərək tarixin ən qüdrətli Azərbaycanını xəyallarında yaşadan hər kəsdə bu strateji yolda birgə, çiyin-çiyinə irəliləməyə, amallarından dönməməyə, nəticələrin mütləq arzuladığımız kimi olacağına əminlik yaradırdı.

Həmin andiçmə mərasimindəki çıxışın mətnini illər sonra tarixçi nəzəri ilə yenidən gözdən keçirdikcə, hər cümləsi üzərində düşündükcə, təxminən 23 il əvvəl səsləndirilmiş o kəlmələrlə müasir reallıqlar arasında paralellər apardıqca əmin olursan ki, cənab İlham Əliyev o zaman Azərbaycan xalqı qarşısında sadəcə and içmirmiş, 23 il ərzində tarixin ən qüdrətli Azərbaycanına gətirib çıxaracaq böyük, çətin və əzab-əziyyətli, amma şərəf və qürur dolu yolun dəqiq strateji xəritəsini təqdim edirmiş.

Cənab İlham Əliyev 23 il əvvəl dilə gətirdiyi bütün sözləri, verdiyi bütün ümidləri bu illərdə ona inanan, ardınca addım-addım milli məqsədlərə doğru irəliləyən milyonlarla vətəndaşımızla birgə reallığa çevirdi.

Prezident deyirdi ki, biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik - bu gün Azərbaycan müasir dünyamızın ən zəngin, qüdrətli dövlətləri sırasındadır və dayanıqlı inkişafı ilə öz mövqeyini getdikcə yüksəldir.

Müzəffər Ali Baş Komandan 2020-ci ilin Vətən müharibəsində, 2023-cü ilin antiterror əməliyyatında ordumuzun gücü ilə əldə etdiyimiz şanlı Qələbəyə, Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin bütün dünyada - hətta Ermənistanda da qəbul edilməsi faktına qədər bu mövqeyindən bir addım da olsun geri çəkilmədi. Həyata keçirdiyi siyasəti, diplomatiyanı, strateji gedişləri məhz belə bir haqlı mövqe, belə bir aydın həqiqət ətrafında qurdu.

İllərlə Azərbaycana və dövlət rəhbəri kimi şəxsinə yönələn təzyiq və təhdidlər onun qətiyyətini sarsıda bilmədi. Cənab İlham Əliyev dövlətimiz, xalqımız adına istədiyinə nail oldu, illərdən bəri bizə ağır faciələr, itkilər yaşatmış, inkişaf yolumuzda ən böyük əngəl olmuş problemin gələcək nəsillərə "miras" qalmasına, onların da ömrünü zəhərləməsinə imkan vermədi.

Bu, qətiyyətin təntənəsidir: Azərbaycan Prezidenti əsrlərin müşkülünü yoluna qoydu, təkcə Azərbaycanı deyil, ümumilikdə Cənubi Qafqazı böyük bir çıxılmazlıqdan aydın, rəvan inkişaf yoluna çıxardı, əsrlərlə bu torpaqlarda davamlı sülhün, mehriban qonşuluq münasibətlərinin, faydalı əməkdaşlıq əlaqələrinin olmasını arzulayan, bu amal uğrunda çalışan düşüncə adamlarımızın arzularını reallığa qovuşdurdu.

Əlverişli geosiyasi şəraitdə, yeni çağırışlar və fürsətlər dövründə belə bir məqsədin reallaşdırılması, bu ideyanın gerçəyə, bölgəmizin sülh və inkişaf cənnətinə çevrilməsi Cənubi Qafqazın ən güclü Liderinin - Azərbaycan Prezidentinin üzərinə götürdüyü yeni tarixi missiyadır.

Vaşinqtonda izlədiyimiz epizodlar da cənab İlham Əliyevin bu torpaqlarda sülhün, təhlükəsizliyin, dayanıqlı inkişafın təmin olunması, bölgənin son dərəcə əlverişli qlobal imkanlarından həm region xalqlarının, həm də dünyanın yararlanması üçün istifadə etməkdən ötrü üzərinə götürdüyü tarixi missiyanın ifadəsi idi.

Yeni dövrün görkəmli siyasətçisi və dövlət xadimi kimi Prezident İlham Əliyev üçün böyük siyasətdə, beynəlxalq münasibətlərdə, ölkədaxili məsələlərin həllində, dövlət idarəçiliyində Ulu Öndər Heydər Əliyevin siyasi təlimi möhkəm təməl, ən etibarlı bünövrədir. Bu gün möhtərəm İlham Əliyev hakimiyyəti həmin dövlətçilik bünövrəsi üzərində ucalır. Hadisələrə və proseslərə tarixi baxışla bir sırada dünyanın hazırkı reallıqlarının və yeni dövlətçilik təfəkkürünün işığında yanaşmaq, qiymət vermək və bütün bunlara uyğun olaraq əsaslı qərarlar qəbul etmək ölkə rəhbəri cənab İlham Əliyevin dövlət idarəetməsinin əsasını təşkil edir.

*Xalqın ümid çırağına çevrilərək ürəklərdə əbədi qalmaq heç də bütün liderlərə nəsib olmur. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş zamanın dahisi Heydər Əliyev xalqın qəlbində özünə əbədi abidə ucaldıb. Onun parlaq ideyaları hələ uzun illər boyu gələcəyə gedən yollarımıza işıq salacaq, nur bəxş edəcəkdir.*

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent***



# Vətənə fəda edilmiş ömür

**Azərbaycan tarixinin bütöv bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin mənalı ömrünün əsas qayəsi Vətənə, xalqa məhəbbət olub. Məhz bu keyfiyyətlərinə görə Heydər Əliyev xalqımızın qəlbində əbədi məskən salıb. Onun qurduğu dövlət indi qalib dövlətdir və bu dövlətin "dəmir yumruğ"u yeni reallıqlar yaradıb. "Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub" deyən dahi şəxsiyyət bütün mənalı ömrü boyu qüdrətli Azərbaycan yaratmaq uğrunda çalışıb.**

Dahi liderin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edib. Ümummilli Lider Heydər Əliyev öz fəaliyyəti ilə vətənpərvər cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlib. Ulu Öndərin yaratdığı və inkişaf etdirdiyi Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı düşmən tapdağından azad edib, xalqımız tarixi hədəflərinə qovuşub, Vətənimiz bütövləşib. Bununla da "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!" deyən Ulu Öndərin ən böyük arzularından biri də həyata keçib, Azərbaycanın ərazi bütövlüyü təmin olunub.

1990-cı ilin yayında vətənə qayıdan Heydər Əliyev Naxçıvanı erməni təcavüzündən, siyasi təlatümlərdən qorudu. Üçrəngli bayrağımız 70 ildən sonra ilk dəfə məhz Naxçıvanda ucaldıldı. Onun muxtar respublikaya rəhbərliyi dövründə qəbul olunmuş taleyüklü qərarlar Azərbaycan tarixinin ən parlaq səhifələrindən birini təşkil edir.

Ümummilli Liderin Naxçıvana gəlməsi, sözün əsl mənasında, tarixin hökmü idi. Çünki həmin dövrdə Naxçıvanda mürəkkəb şərait yaranmışdı. Bir tərəfdən SSRİ rəhbərliyinin Azərbaycana hərtərəfli təzyiqləri, digər tərəfdən ermənilərin ölkəmizin digər bölgələri ilə yanaşı, Naxçıvana əsassız torpaq iddiaları və bu iddiaların nəticəsi olaraq qədim diyarın blokadaya alınaraq işğal edilməsi planı vəziyyəti daha da ağırlaşdırmışdı. Məhz belə bir tarixi şəraitdə Naxçıvan məhv olmamaq üçün möcüzə gözləyirdi, hansı ki bu möcüzəni qədim yurdun insanlarına elə onun böyük oğlu Heydər Əliyev bəxş etdi. Xalqımızın böyük oğlu tarixin ən çətin və məsuliyyətli anlarında Azərbaycan xalqının ruhuna nəfəs kimi qayıtmış, onun milli mövcudluğunu qoruyaraq xilaskarlıq missiyasını yerinə yetirmişdir. Taleyin hökmü ilə iki dəfə bu missiyanı üzərinə götürən Ulu Öndər hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış, ölkəmizi böyük bəlalardan qurtarmışdır.

Görkəmli dövlət xadiminin doğulub boya-başa çatdığı Naxçıvana qayıdışı tarixi zərurət idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı demişdir: "Sovet İttifaqının dağıldığı ərəfədə və ondan sonra Naxçıvan çox ağır günlər yaşayıb. O illərdə ancaq Ulu Öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu... O, məcbur olub Moskvadan Bakıya döndü. Ancaq Bakıda ovaxtkı rəhbərlik təzyiqləri davam etdirirdi və Heydər Əliyev öz vətəninə, doğulduğu yerə - Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu".

1993-cü ildə son dərəcə mürəkkəb və ağır vəziyyətdə xalqın təkidli çağırışları ilə hakimiyyətə qayıdan Heydər Əliyev məsuliyyəti və xilaskarlıq missiyasını çiyinlərinə götürərək, Azərbaycanı çətin sınaqlardan, siyasi fırtınalardan sağ-salamat çıxardı. Separatizmin, dövlət çevrilişi cəhdlərinin qarşısını qətiyyətlə alaraq, ölkəni parçalanmaq, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Yenicə yaranmaqda olan nizami ordumuz ermənilərin torpaqlarımıza aramsız hücumlarını dayandıra bildi, Qarabağ müharibəsində atəşkəsə nail olundu.

Ümummilli Liderin 1993-cü il iyunun 15-də respublikamızda ali hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın dövlətçilik tarixinin şanlı səhifəsini təşkil edir. Tarixi zərurətdən yaranan bu qayıdışla xalqımız müstəqil dövlətçiliyini itirmək təhlükəsindən xilas oldu. Ulu Öndərin irəli sürdüyü dövlətçilik konsepsiyası mahiyyət etibarilə Azərbaycanın yeni və davamlı inkişaf modeli kimi özünü doğrultdu, ölkə həyatının bütün sahələrində dönüş yarandı, hərtərəfli sosial-iqtisadi inkişafın əsası qoyuldu. Azərbaycanda güclü ordu formalaşdı. Prezident İlham Əliyevin dediyi kimi: "Müasir tariximiz 1993-cü ildən başlayır. O ildən Azərbaycan böyük və uğurlu yol keçmişdir, dövlətçiliyin əsasları qoyulmuşdur. Ulu Öndərin xalq qarşısında göstərdiyi xidmətlər misilsizdir. Azərbaycan xalqı Heydər Əliyev siyasətini qəlbində yaşadır və yaşadacaqdır".

Bu, böyük qayıdış idi və Ulu Öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni labüd fəlakətlərdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur. Prezident İlham Əliyevin dediyi kimi: "İctimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə əsl lider, əsl öndər idi. Məhz buna görə 1993-cü ildə - xalqımızın ən ağır anlarında xalq ona üz tutmuş, hakimiyyətə dəvət etmiş və ondan sonra Azərbaycanın sabitlik və inkişaf dövrü başlamışdır. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi, ciddi islahatlara start verildi. Azərbaycan beynəlxalq aləmdə öz möhkəm yerini tuta bilmişdir.

Ölkə daxilində aparılan islahatlar ölkəmizin inkişafını təmin etmişdir. Azərbaycan dövləti çox dərin milli köklər, milli dəyərlər üzərində qurulmuşdur. 1993-2003-cü illərdə Azərbaycanın sürətli inkişafı bugünkü reallıqları da təmin etmişdir. Məhz o illərdə aparılan siyasət nəticəsində Azərbaycan inkişaf yoluna qədəm qoydu, beynəlxalq aləmdə daxili siyasətlə bağlı olan bütün məsələlərdə öz prinsipial mövqeyini nümayiş etdirdi, dünyada böyük hörmətə malik oldu".

Azərbaycan xalqı öz Ümummilli Liderini qoruyub yaşatdığı kimi, dahi şəxsiyyət Heydər Əliyev də Azərbaycanı hifz etdi, yaşatdı, ən yüksək zirvələrə çatdırdı. Onun siyasi tərcümeyi-halı Azərbaycanın 35 illik quruculuq tarixini əhatə edir. Bu tarixi inkişafın altında yalnız bir şəxsin - xalqımızın böyük oğlu Ümummilli Lider Heydər Əliyevin möhürü vardır. Haqlı olaraq bu dövr tarixdə "Heydər Əliyev dövrü" adlandırılır. Məhz bu dövrdə Azərbaycan özünün həqiqi inkişafına və sabitliyə nail olub, güclü ordusu, iqtisadiyyatı, milli dövlətçiliyi, peşəkar kadrları, illik büdcəsinə bərabər valyuta ehtiyatları olan, dünyanın aparıcı dövlətlərinin regional maraqlarını özünün milli maraqlarına tabe etdirməyi bacaran dövlətə çevrilib.

Ümummilli Lider Heydər Əliyev xalqı uğrunda mübarizə apardı. Bu mübarizədə bütün çətinliklərə sinə gərərək, öz xalqının firavan istiqbalını, rifahını, azadlığını təmin etdi. Heydər Əliyev xalqımızın milli-mənəvi şüurunu alovlandıraraq, məqsədyönlü tədbirlər, hərtərəfli islahatlar apararaq ölkəmizin qısa müddətdə inkişafına və dünyada tanınmasına səbəb oldu. Bu gün Azərbaycan adı səsləndikcə, bayrağımız yüksəklərdə dalğalandıqca xalqımızın qurtuluşu, azadlığı, rifahı bütün dünya dövlətləri arasında yaxşı mənada müzakirə edilir.

Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş Azərbaycan xalqı xilasına, bugünkü tərəqqisinə görə Heydər Əliyevə minnətdardır. Bu da bir həqiqətdir ki, Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır" deyən Ümummilli Liderin yaratdığı Azərbaycan onun müəyyənləşdirdiyi yolla inamla irəliləyir. Xalqımız Ulu Öndərin layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə inanır və onu dəstəkləyir. Bu inam və dəstəyin, həmrəyliyin ən bariz nümunəsi 44 günlük Vətən müharibəsində qazanılan Zəfər, bu gün isə Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işləridir.

Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Dahi şəxsiyyətin bu arzusunu və vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev yerinə yetirdi, ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olundu. Üçrəngli bayrağımız yenidən bütövləşən Vətən torpağında qürurla dalğalanmağa başladı.

Ümummilli Liderimizin bütün ömrü mənsub olduğu xalqa xidmətdə keçmişdir. O, nəinki müstəqil Azərbaycan dövlətçiliyinin əbədiliyini təmin etmişdir, həm də əsasını qoyduğu dövlətçilik xəttini davam etdirməyə qabil böyük bir idarəçilik məktəbi formalaşdırmışdır. Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini Heydər Əliyev məktəbinin layiqli davamçısı olan Prezident İlham Əliyevə əmanət etmişdir.

*Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlar qazanacağına, Azərbaycanın daha qüdrətli dövlətə çevriləcəyinə ürəkdən inanır. Prezident İlham Əliyev demişdir: "Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir".*

***Aysel DÜNYAMALIYEVA,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

**1993 MİLLİ QURTULUŞ 2026**



# Qurtuluşla başlayan yol

**Müasir və müstəqil Azərbaycanın qurucusu, Ümummilli Lider Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlı olan Milli Qurtuluş Günü dövlətçilik tariximizə qürurverici və şanlı bir mərhələ kimi həkk olunub. 15 İyun tarixi xalqımızın böyük bəlalardan xilas olaraq, gələcək qüdrətli dövlətin təməllərini atdığı müqəddəs bir gün kimi yüksək qiymətləndirilir. Bu tarixi dönüş nöqtəsini millətimizə bəxş edən dahi şəxsiyyət isə məhz Ulu Öndər Heydər Əliyevdir.**

Sovet İttifaqının süqutundan sonra, müstəqilliyə can atan digər respublikalar kimi, Azərbaycanda da milli azadlıq hərəkatı geniş vüsət almışdı. Lakin həmin dövrdə ölkəmizdə cərəyan edən siyasi proseslər daha mürəkkəb və təhlükəli xarakter daşıyırdı. Bir tərəfdən mənfur qonşularımızın torpaq iddiaları fonunda alovlanan müharibə, digər tərəfdən isə ozamankı naşı və səriştəsiz rəhbərliyin hakimiyyət hərisliyi ölkəni real uçurumun kənarına gətirmişdi. Müstəqilliyimizin ilk illərində xalqın rəyini nəzərə almadan idarəçiliyi ələ keçirən və dövlət idarəçiliyindən tamamilə uzaq olan qüvvələr faktiki olaraq Azərbaycanı çətin sınaqlar qarşısında tək qoymuşdular. Bununla yanaşı, siyasi maraqların qanunsuz silahlı dəstələr vasitəsilə həyata keçirilməsi ölkədəki sosial, iqtisadi və mənəvi xaosu pik həddə çatdırmışdı. Xarici bədxah dairələrin sifarişi ilə etnik zəmində qarşıdurmaların qızışdırılması və separatizm meyillərinin baş qaldırması dövləti vətəndaş müharibəsinin astanasına sürükləyirdi. Belə bir kritik vəziyyətdə çıxış yolu axtaran Azərbaycan xalqı öz xilaskarını məhz Heydər Əliyevin simasında görürdü. Dövlətçilik təfəkküründən məhrum olan, hərbi qüvvələri şəxsi ambisiyalarına alət edən qrupların təhdidlərindən çəkinən və prosesləri idarə edə bilməyəcəyini anlayan AXC-Müsavat hakimiyyəti çıxılmaz vəziyyətdə qalaraq sonda dahi liderdən kömək istəmək məcburiyyətində qaldı.

Həmin dövrdə Naxçıvan Ali Məclisinə rəhbərlik edən görkəmli dövlət xadimi Heydər Əliyev xalqın və ölkə rəhbərliyinin israrlı müraciətlərinə cavab verərək, iyunun 9-da Bakıya gəldi. Respublikanı vətəndaş müharibəsinin real hədəsindən xilas etmək missiyasını cəsarətlə öz üzərinə götürən Ulu Öndər öz canını təhlükəyə ataraq dərhal Gəncəyə yollandı və orada alovlanan qardaş qırğınının qarşısını qətiyyətlə aldı. Çox böyük risklərə rəğmən dahi lider dövlət təməllərinin qorunması məsuliyyətini çiyinlərində daşıdı. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır" deyən Ümummilli Lider mövcud böhranı aradan qaldırmaq üçün ilk növbədə ölkədə vətəndaş birliyini və daxili sabitliyi bərpa etdi. Bununla da gələcək yüksəlişin əsas bünövrəsi qoyuldu. 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi ilə ölkəmizin ən yeni tarixində bu gün də uğurla davam edən rəşadətli bir dövr başladı. Məhz bu səbəbdən 15 İyun xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk olundu və bu əlamətdar hadisə 1998-ci ildən bəri rəsmi dövlət bayramı kimi qeyd edilməkdədir. Prezident İlham Əliyev bu tarixi dönüş nöqtəsinin əhəmiyyətini belə ifadə edib: "Müstəqilliyimizin tarixində 1993-cü il müstəsna əhəmiyyətə malikdir. O zaman mürəkkəb durumda xalqımız çox müdrik və tarixi bir seçim etmiş, Heydər Əliyevi ölkənin Prezidenti seçmişdir. Böyük nüfuza və şöhrətə malik olan bu siyasi xadim Azərbaycanda inkişafın təməlini qoymuşdur".

Məhz Ulu Öndər Heydər Əliyev tərəfindən göstərilən böyük diplomatik səylər sayəsində 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəs rejiminə nail olundu. Dahi rəhbərin uzaqgörən və planlı strategiyası qısa müddətdə ölkədə daxili sabitliyi bərpa etdi, həmçinin Azərbaycanın zəngin təbii sərvətlərindən milli maraqlara uyğun şəkildə istifadə olunması üçün fundamental zəmin yaratdı. İqtisadi yüksəlişdə neft amilinin həlledici rol oynayacağını öncədən görən Ümummilli Liderin qətiyyəti sayəsində elə həmin il sentyabrın 20-də beynəlxalq miqyaslı tarixi "Əsrin müqaviləsi" imzalandı. Bu nəhəng addım müstəqil Azərbaycanın uzunmüddətli və dayanıqlı inkişaf xəttini müəyyən etdi, eyni zamanda ölkəmizin qlobal iqtisadi sistemə inteqrasiyasının möhkəm əsasını qoydu.

Ümummilli Liderin həyata keçirdiyi xilaskarlıq missiyası Azərbaycanı tamamilə süquta uğramaqdan, məhv olmaqdan və parçalanmaqdan xilas etdi. Respublika ərazisində asayiş və ictimai qayda-qanun yenidən bərqərar edildi, uzun müddət davam edən özbaşınalığa, soyğunçuluğa və vətəndaşların mülkiyyətinə qanunsuz müdaxilələrə birdəfəlik son qoyuldu. Paralel olaraq dağınıq hərbi dəstələrin əvəzinə vahid komandanlığa tabe olan qüdrətli nizami ordu formalaşdırıldı, Qarabağ müharibəsində atəşkəsin əldə olunması ilə münaqişənin dinc və diplomatik yollarla nizama salınmasına dair geniş danışıqlar prosesinə start verildi. Həmin illərdə çevik idarəetmə sistemi tamamilə yenidən quruldu və bununla da insanların öz dövlətinə olan sarsılmış inamı geri qaytarıldı. Qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri etmək cəhdlərinə qətiyyətlə son qoyulduqdan sonra ölkədə ilk demokratik parlament seçkiləri keçirildi və ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu. Eyni zamanda respublikanın xarici əlaqələri milli mənafelər çərçivəsində formalaşdırıldı, ölkənin dünya birliyinə fəal inteqrasiyası prosesi başladı. Daxili mühitdə dərin siyasi islahatlara təkan verilməsi isə ölkədə çoxpartiyalı sistemin yaranmasını və demokratik təsisatların inkişafını təmin etdi.

Müasir Azərbaycan məhz Ümummilli Liderimizin xəyal etdiyi azad, suveren və ərazi bütövlüyü tam bərpa olunmuş qüdrətli dövlətdir. Ulu Öndərin ən böyük amalı və həyat qayəsi Azərbaycan torpaqlarını bütöv görmək idi. Vaxtilə yurdundan didərgin düşmüş soydaşlarımızla görüşlərinin birində dahi rəhbər gələcək qələbəyə olan sarsılmaz inamını bu ifadələrlə dilə gətirmişdi: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik".

Ulu Öndər Heydər Əliyevin bu müqəddəs arzuları 27 ildən sonra gerçəkliyə çevrildi. Prezident İlham Əliyev ata vəsiyyətini şərəflə yerinə yetirdi. Dahi liderin ən böyük istəyi məhz Qarabağı, Şuşanı və Zəngəzuru azad görmək idi. Dövlətimizin başçısı bu tarixi missiyanın tamamlanmasını xalqa müraciətində böyük qürur hissi ilə belə elan etmişdi: "Mən xoşbəxt insanam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan!"

Hazırda Şuşada, Laçında, Xankəndidə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda və Kəlbəcərdə üçrəngli dövlət bayrağımız əzəmətlə dalğalanmaqdadır. Qarabağda qazanılan şanlı Zəfər regionun geosiyasi mənzərəsini kökündən dəyişərək yeni reallıqlar formalaşdırıb. Beynəlxalq güc mərkəzləri və aparıcı dövlətlər artıq bu reallığı tam qəbul edir və rəsmi Bakı ilə hesablaşırlar. Bu gün Azərbaycan postmünaqişə dövrünün regional gündəliyini təkbaşına diktə edən tərəfdir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Qarabağ və Şərqi Zəngəzur torpaqlarında genişmiqyaslı, möhtəşəm bərpa-quruculuq işləri icra olunur. Bütün bunlar göstərir ki, Azərbaycanı qarşıdakı illərdə daha parlaq və böyük uğurlar gözləyir. Bir sözlə, 1993-cü ilin Qurtuluşundan başlanan strateji yolun məntiqi zirvəsi bu gün fəxrlə bəhs etdiyimiz böyük Zəfərimizdir.

*Digər mühüm bir məqam isə beş il öncə məhz 15 İyun - Milli Qurtuluş Günündə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində iki qardaş ölkə arasında Müttəfiqlik Bəyannaməsinin imzalanmasıdır. Bu mühüm sənədin Qurtuluş Gününə və tarixi Qars müqaviləsinin 100 illiyinə təsadüf etməsi çox dərin simvolik məna daşıyırdı. Şuşa Bəyannaməsi Bakı ilə Ankara arasında müştərək maraqların qorunması, eləcə də bölgədə qarşılıqlı etimad və sabitliyin gücləndirilməsi baxımından əvəzsiz bir başlanğıc nöqtəsinə çevrildi. İyunun 15-də atılan bu addım regionun geosiyasi gələcəyini müəyyən edən yeni bir mərhələnin əsasını qoydu. Bölgədə sülhün, təhlükəsizliyin və rifahın qarantı qismində çıxış edən bu bəyannamə, Azərbaycan-Türkiyə strateji əlaqələrinin gələcək inkişaf xəttini cızan fundamental bir yol xəritəsidir.*

***Kamran BAYRAMOV,***
***Milli Məclisin deputatı***

# 33 il öncə təməli qoyulmuş Zəfər və inkişaf

**1993-cü ilin iyununda baş verən hadisələr Azərbaycanın müasir tarixində xalqımızın sınağa çəkildiyi zaman kimi yaddaşlara həkk oldu. Söhbət, sadəcə, hakimiyyət dəyişikliyindən getmir, dövlətin taleyi, xalqın gələcəyi və müstəqilliyin qorunub saxlanılması məsələsindən, həmçinin gələcək nəsillərin taleyini müəyyənləşdirən bir tarixi hadisədən gedir. XX əsrin sonlarında müstəqilliyini bərpa edən Azərbaycan məhz belə taleyüklü bir yol keçdi.**

Bir tərəfdən xarici təcavüz, digər tərəfdən daxili çəkişmələr, siyasi böhran, iqtisadi tənəzzül və dövlətçilik ənənələrinin sarsılması ölkəni uçurumun kənarına qədər gətirib çıxarmışdı. Lakin xalqımız ən çətin məqamlarda iradəsini nümayiş etdirərək dövlətini qorumaqla, milli maraqları hər şeydən üstün tutmaqla gələcəyə aparan yolda doğru seçimi etdi. Bu gün geriyə baxanda aydın görürük ki, 1993-cü ildə başlanan Milli Qurtuluş yolu təkcə ölkədə sabitliyin bərpası ilə nəticələnmədi, bu yol Azərbaycanın siyasi və iqtisadi dirçəlişinə, beynəlxalq nüfuzunun artmasına, güclü ordunun formalaşmasına, milli dövlətçilik ənənələrinin möhkəmlənməsinə, nəhayət, tarixi ədalətin bərpasına aparan böyük bir inkişaf strategiyasının başlanğıcı oldu. 30 ilə yaxın bir dövrü əhatə edən bu yolun zirvəsində isə 2020-ci ilin möhtəşəm Zəfəri, Azərbaycanın ərazi bütövlüyünün bərpası, Qarabağda və Şərqi Zəngəzurda həyatın yenidən canlanması dayanır.

Əslində, Qurtuluşdan Zəfərə gedən yol dedikdə söhbət yalnız müəyyən tarixi hadisələrin ardıcıllığından getmir, bu, dövlətçilik ideyasının, siyasi uzaqgörənliyin, xalq-lider birliyinin, milli həmrəyliyin və məqsədyönlü inkişaf strategiyasının təntənəsidir. Bu yolun başlanğıcında dövlətin xilası dayanırdısa, sonunda qalib Azərbaycanın dünyaya nümayiş etdirdiyi güc, qətiyyət və milli qürur dayanır. Məhz buna görə də Milli Qurtuluşdan başlanan və Böyük qayıdışla davam edən bu tarixi mərhələ müasir Azərbaycan tarixinin şərəfli və möhtəşəm səhifələrindən biridir.

Bu, inkarolunmaz faktdır ki, 1993-cü ilin iyununda Azərbaycan dövlətçiliyi real məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Ölkədə siyasi böhran dərinləşmiş, iqtisadiyyat iflic vəziyyətinə düşmüşdü. Cəbhədə ardıcıl məğlubiyyətlər yaşanır, ayrı-ayrı adamlara tabe olan müxtəlif silahlı qruplar dövlətin nəzarətindən çıxıb, hakimiyyət uğrunda mübarizənin əsas vasitəsinə çevrilmişdi. Vətəndaş müharibəsi təhlükəsi artıq uzaq ehtimal deyil, göz önündə görünən reallıq idi.

Belə bir məqamda xalqın tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ilk növbədə dağılmaqda olan dövlətçiliyi xilas etdi. Əslində, 15 İyun Azərbaycan dövlətinin ikinci dəfə qurulmasının başlanğıcı idi. Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra ilk növbədə ölkədə sabitliyin təmin olunması istiqamətində qətiyyətli addımlar atıldı. Qeyri-qanuni silahlı dəstələrin fəaliyyəti məhdudlaşdırıldı, dövlət idarəçiliyi sistemləşdirildi, hüquqi dövlət quruculuğu prosesi başlandı, Azərbaycan parçalanmaq təhlükəsindən xilas edildi.

Lakin Ulu Öndərin qarşısında duran vəzifə yalnız sabitliyi bərpa etmək deyildi, eyni zamanda Azərbaycanın gələcək inkişaf strategiyasını da müəyyənləşdirməli idi. Məhz bu baxımdan 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" müasir Azərbaycan tarixinin dönüş nöqtələrindən birinə çevrildi. Müstəqilliyinin ilk günlərindən siyasi və iqtisadi təcrid vəziyyətində olan Azərbaycan dünyanın enerji xəritəsində mühüm yer tutmağa başladı. Xarici sərmayələrin ölkəyə cəlb olunması, neft strategiyasının uğurla həyata keçirilməsi və yeni iqtisadi münasibətlərin qurulması dövlət büdcəsinin güclənməsinə, iqtisadi inkişafın təmin edilməsinə və gələcək uğurların əsasının qoyulmasına imkan yaratdı. Ulu Öndər bilirdi ki, iqtisadi cəhətdən güclü olmayan dövlət müstəqil siyasət yürüdə bilməz. Buna görə də iqtisadi inkişaf, siyasi sabitlik və ordu quruculuğu vahid strategiyanın tərkib hissəsi kimi həyata keçirilirdi. Məhz həmin dövrdə nizami ordu quruculuğuna başlanıldı. Azərbaycan Silahlı Qüvvələrinin vahid komandanlıq altında formalaşdırılması gələcək qələbənin əsas təməllərindən biri oldu. Atəşkəs dövründə dövlət gücləndi, iqtisadi potensial artdı, beynəlxalq mövqelər möhkəmləndi və Azərbaycanın gələcək tarixi missiyasına hazırlıq başladı.

Azərbaycanın inkişaf strategiyası yalnız enerji resurslarının səmərəli idarə olunması ilə məhdudlaşmadı. Ulu Öndərin müəyyənləşdirdiyi siyasi və iqtisadi kurs Prezident İlham Əliyevin rəhbərliyi altında yeni mərhələyə qədəm qoydu və ölkə hərtərəfli modernləşmə yoluna çıxdı. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycanın iqtisadi qüdrəti dəfələrlə artdı, dövlət büdcəsi genişləndi, valyuta ehtiyatları formalaşdı, ölkənin sosial rifah göstəriciləri əhəmiyyətli dərəcədə yüksəldi. Bu dövrdə qəbul edilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramları ölkəmizin bütün bölgələrinin inkişafında mühüm rol oynadı. Uzun illər diqqətdən kənarda qalmış rayon və kəndlərdə yeni yollar salındı, körpülər, məktəblər, xəstəxanalar, idman kompleksləri, mədəniyyət ocaqları və digər sosial obyektlər tikildi. Respublikanın ucqar yaşayış məntəqələrinə qədər qaz çəkildi, enerji sahəsindəki məhdudiyyətlər aradan qaldırıldı, bütün ölkəboyu internet infrastrukturu yaradıldı.

Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatların əsas istiqamətlərindən biri sahibkarlığın inkişafı oldu. Sahibkarlara güzəştli kreditlərin verilməsi, vergi və gömrük sahəsində aparılan islahatlar, biznes mühitinin yaxşılaşdırılması özəl sektorun inkişafını sürətləndirdi. Qanunvericilik bazasının təkmilləşdirilməsi investisiyaların cəlb olunması və qeyri-neft sektorunun inkişafı üçün yeni imkanlar yaratdı. Ölkənin sənaye potensialının gücləndirilməsi məqsədilə müxtəlif bölgələrdə sənaye zonaları və sənaye məhəllələri yaradıldı. Sumqayıt Kimya Sənaye Parkı qısa müddətdə Cənubi Qafqazın böyük sənaye mərkəzlərindən birinə çevrildi. Mingəçevirdə, Balaxanıda, Pirallahıdakı sənaye parkları, eləcə də Neftçala, Hacıqabul, Sabirabad, Masallı və digər rayonlarda yaradılan sənaye məhəllələri minlərlə yeni iş yerinin açılmasına və yerli istehsalın genişlənməsinə şərait yaratdı. Nəticədə ölkədə yüz minlərlə yeni iş yeri açıldı, işsizlik və yoxsulluq səviyyəsi minimum həddə endirildi.

Aqrar sektorun inkişafı da dövlət siyasətinin prioritet istiqamətlərindən biri oldu. Fermerlərə subsidiyalar verildi, mineral gübrələrin, toxumların və kənd təsərrüfatı texnikalarının güzəştli şərtlərlə əldə olunması təmin edildi. "Aqrolizinq" sistemi vasitəsilə müasir texnikalar kənd təsərrüfatı istehsalçılarının istifadəsinə verildi. Bu tədbirlər ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə, kənd yerlərində məşğulluğun artmasına və ixrac imkanlarının genişlənməsinə yeni imkanlar yaratdı.

İqtisadi inkişafın nəticələri birbaşa insanların sosial rifahında öz əksini tapdı. Əməkhaqları, pensiyalar, müavinətlər və sosial ödənişlər dəfələrlə artdı. Azərbaycan sosialyönümlü dövlət modelini uğurla formalaşdıraraq vətəndaş rifahını dövlət siyasətinin əsas prioritetlərindən birinə çevirdi. Xüsusən şəhid ailələrinin, müharibə veteranlarının, əlilliyi olan şəxslərin və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atıldı. Minlərlə ailə yeni mənzil və fərdi evlərlə təmin olundu, Qarabağ müharibəsi əlillərinə avtomobil təqdim edildi.

Azərbaycanın sosial siyasətinin mühüm istiqamətlərindən biri də vətəndaşların keyfiyyətli tibbi xidmətlərə çıxış imkanlarının genişləndirilməsi oldu. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar çərçivəsində icbari tibbi sığorta sisteminin ölkə üzrə tətbiqi səhiyyə sahəsində yeni mərhələnin əsasını qoydu. Bu sistem sayəsində milyonlarla vətəndaş dövlət hesabına geniş tibbi xidmət paketindən yararlanmaq imkanı əldə etdi, tibbi xidmətlərin əlçatanlığı və keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəldi. Təhsil sahəsində həyata keçirilən islahatlar ölkədə insan kapitalının inkişafına mühüm töhfə verdi.

Dövlət idarəçiliyində şəffaflığın artırılması və vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində həyata keçirilən mühüm layihələrdən biri ASAN və DOST xidmətləri modelinin yaradılması oldu. Dünyada analoqu az olan bu sistemlər qısa müddətdə Azərbaycan brendlərinə çevrildi və bir çox ölkə tərəfindən öyrənilən uğurlu idarəetmə nümunəsi kimi beynəlxalq səviyyədə yüksək qiymətləndirildilər.

Bu illər ərzində Azərbaycan beynəlxalq humanitar, siyasi və idman tədbirlərinin keçirildiyi nüfuzlu mərkəzlərdən birinə çevrildi. Bakı şəhəri I Avropa, IV İslam Həmrəyliyi oyunlarına, "Formula-1" Azərbaycan "Qran-pri"sinə, çoxsaylı beynəlxalq forumlara və mötəbər tədbirlərə evsahibliyi etdi. Bu tədbirlər ölkəmizin dünyadakı nüfuzunun artmasına və Azərbaycanın müasir, inkişaf edən dövlət kimi tanınmasına mühüm töhfə verdi.

Eyni zamanda enerji və nəqliyyat diplomatiyası Azərbaycanın beynəlxalq mövqelərini daha da gücləndirdi. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələrindən sonra TANAP və TAP layihələri uğurla reallaşdırıldı və "Cənub qaz dəhlizi" Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolunu strateji səviyyəyə yüksəltdi. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, "Şimal-Cənub" və "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizləri isə Azərbaycanı Avrasiyanın əsas logistika qovşaqlarından birinə çevirdi.

Bütün bu uğurların əsasında güclü iqtisadiyyat, sosial sabitlik, milli birlik və uzaqgörən dövlət siyasəti dayanırdı. Məhz həmin iqtisadi güc, siyasi sabitlik və xalq-iqtidar birliyi sonradan Azərbaycan Ordusunun daha da güclənməsi, ölkənin müdafiə sisteminin qüdrətlənməsi, Azərbaycan Ordusunun sürətlə modernləşdirilirməsi ilə nəticələndi. Müasir silah sistemləri alındı, peşəkar kadr hazırlığı həyata keçirildi, hərbi sənaye kompleksi yaradıldı. Ordunun döyüş qabiliyyətinin artırılması dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Nəhayət, 2020-ci ilin payızında Azərbaycan xalqı tarixi ədaləti bərpa etdi. 44 günlük Vətən müharibəsi təkcə hərbi əməliyyat deyil, 27 illik dövlət quruculuğunun, siyasi uzaqgörənliyin, iqtisadi inkişafın və ordu quruculuğunun nəticəsi idi.

Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dünya hərb tarixinə yazılan parlaq qələbə qazandı. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Hadrut, Suqovuşan və yüzlərlə yaşayış məntəqəsi işğaldan azad edildi. Azərbaycan xalqının mənəvi paytaxtı olan Şuşanın azad edilməsi təkcə hərbi deyil, həm də siyasi və mənəvi qələbə idi. Şuşa azad edilərkən milyonlarla azərbaycanlının qəlbində bir arzu gerçəkləşirdi. Bu həm də Ulu Öndər Heydər Əliyevin ən böyük arzularından birinin həyata keçməsi idi. 2023-cü ildə həyata keçirilən lokal antiterror tədbirləri sayəsində Azərbaycanın dövlət suverenliyi ölkənin bütün ərazisində tam bərpa edildi. Bununla da Qarabağ problemi birdəfəlik tarixə qovuşdu.

Bu gün Qarabağ və Şərqi Zəngəzur bölgələri dünyanın ən böyük yenidənqurma layihələrinin həyata keçirildiyi ərazilərdir. İşğal dövründə viran qoyulmuş şəhər və kəndlər yenidən qurulur, Ağalı kəndi Böyük qayıdışın simvoludur. Bu gün Füzuli, Zəngilan və Laçında beynəlxalq hava limanları fəaliyyət göstərir. Şuşa, Ağdam, Kəlbəcər, Laçın və digər rayonlarda geniş quruculuq işləri aparılır. Yeni yollar, tunellər, elektrik stansiyaları, məktəblər, xəstəxanalar və yaşayış məhəllələri tikilir. Bir zamanlar dağıdılmış yurd yerləri bu gün yenidən həyata qayıdır. Qarabağ və Şərqi Zəngəzur artıq təkcə qələbənin deyil, həm də dirçəlişin simvoludur.

Azərbaycanın beynəlxalq nüfuzu gündəngünə artır. Bu gün ölkəmiz regionun əsas siyasi və iqtisadi güc mərkəzlərindəndir. Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlar Azərbaycanın təşəbbüsü və iradəsi ilə müəyyənləşir desək, mübaliğəyə yol vermiş olmarıq. Ermənistanda son illər həyata keçirilən seçkilər və formalaşan yeni siyasi reallıq da göstərir ki, bölgədə sülh gündəliyinin əsas müəllifi Azərbaycandır. Müharibədə məğlub olan Ermənistan artıq yeni reallıqları qəbul edir. Sülh danışıqları və sərhədlərin delimitasiyası istiqamətində əldə edilən nəticələr də məhz Azərbaycanın yaratdığı yeni geosiyasi vəziyyətin məhsuludur.

Bu gün Azərbaycan heç bir mərkəzdən idarə olunmayan, milli maraqlara söykənən müstəqil siyasət həyata keçirən qüdrətli dövlətdir. Dünyanın enerji xəritəsində, nəqliyyat marşrutlarında, beynəlxalq diplomatiyada və regional təhlükəsizlik sistemində söz sahibi olan Azərbaycan artıq tamamilə yeni mərhələyə qədəm qoyub.

Tarixə nəzər saldıqda görürük ki, 15 iyun 1993-cü ildən başlayan yol təsadüfi siyasi proses deyildi. Bu yol dövlətçiliyin xilasından başlamış, sabitlikdən keçmiş, inkişafla möhkəmlənmiş, güclü ordu ilə qüdrətlənmiş, nəhayət, 8 Noyabr Zəfəri ilə başa çatmışdır. Bu gün Qarabağda və Şərqi Zəngəzurda ucalan hər bina, doğma torpaqlarına qayıdan hər ailə, Şuşada dalğalanan hər bayraq və azad edilmiş torpaqlarda yanan hər işıq bir həqiqəti təsdiqləyir: Qurtuluşdan başlanan yol ünvana - Zəfərə çatıb. Zəfərlə tamamlanan yol isə Böyük qayıdış və daha qüdrətli Azərbaycanın gələcəyinə doğru davam edir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

1993 MİLLİ QURTULUŞ 2026

# Müasir tariximizin qürur səhifəsi

## Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı məhvolma təhlükəsindən xilas etdi

**Müdriklərin fikridir: şəxsiyyətlər öz varlıqları, nəcib əməlləri ilə zamanı tarixə çevirirlər. 15 İyun - Milli Qurtuluş Günü də böyük şəxsiyyətin, Ulu Öndər Heydər Əliyevin tarixdəki möhtəşəm imzalarındandır. Həmin gün Azərbaycan xalqının həyatında dönüş nöqtəsi oldu və milli dövlətçilik tariximizin ən əlamətdar məqamlarından biri kimi yaddaşlara yazıldı. Müstəqil Azərbaycan dövlətinin tarixdəki ən böyük uğurları Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ölkəni bəlalardan xilas etmək üçün hakimiyyətə qayıtdığı bu gündən başlanır.**

15 İyun müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın üzləşdiyi ağır siyasi, iqtisadi və hərbi böhranlardan çıxaraq sabitlik və inkişaf yoluna qədəm qoymasının rəmzi hesab olunur. Milli Qurtuluş Günü xalqın öz dövlətini qorumaq, müstəqilliyini yaşatmaq və gələcəyini təmin etmək əzminin təcəssümü olmaqla yanaşı, müasir Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində müstəsna rol oynamış Heydər Əliyevin möhtəşəm fəaliyyətinin tarixi əhəmiyyətini özündə əks etdirir. Bu qayıdış Azərbaycanın müstəqilliyini dünya müstəvisində reallığa çevirdi. Əsrlərin sınağından keçərək min bir əziyyətlə, amma dönmədən öz məqsədinə doğru addımlayan bir millətin özünün özünə qayıdışı idi. Bu, dilimizin, milli-mənəvi dəyərlərimizin, unudulmuş, yaddan çıxmış bir çox həqiqətin, eyni zamanda bizə öz real gücümüzü, mənəvi bütövlüyümüzü dərk etməyimizin qayıdışı idi və bununla ölkəmiz özünün müstəqillik tarixinin daha şərəfli, daha əzəmətli bir mərhələsinə qədəm qoydu. Azərbaycanı regionun ən inkişaf etmiş dövlətinə çevirə bildi.

### Bir istefa tarixi və faciələrimiz

Azərbaycan xalqı ötən əsrin sonlarında güclü təzyiqlərə məruz qaldı. Dövlət müstəqilliyimizin bərpasına nail olsaq da, bir-birinin ardınca baş verən hadisələr ölkəni xaos və anarxiyaya sürükləyirdi. Sıralarımızdan minlərlə qurban verirdik. İşğalla, müharibə vəziyyəti, sosial-iqtisadi böhranla, çox ağır keşməkeşlərlə üz-üzə qalmışdıq.

Keçmiş SSRİ-nin dağılması isə labüd proses idi: yol əvvəldən düzgün seçilmədiyindən və zamanın çağırışları nəzərə alınmadığından nəhəng imperiyanın çöküşü əvvəl-axır baş verəcəkdi. Faciə onda oldu ki, bu prosesin ən həlledici və qanlı-qadalı mərhələsi məhz Azərbaycanda başlandı və xalqımız üçün böyük qurbanlar hesabına başa gəldi. Əsas səbəbsə o kritik anlarda taleyimizin əsl liderin deyil, yaranmış vəziyyəti fürsət bilib irəli çıxan təsadüfi adamların əlində olmasında idi. Buna görə də Azərbaycan xalqının ötən əsrin 80-ci illərinin sonlarına doğru üzləşdiyi böyük faciələrin məhz Ulu Öndərin siyasi hakimiyyətdən kənarlaşdırılmasından sonra başlanması reallıqdır. Heydər Əliyev Sovet İttifaqının rəhbərliyində tutduğu vəzifələrdən 1987-ci ilin oktyabrında istefa verdi. Həmin dövrdə o, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sovet İttifaqı Kommunist Partiyası Siyasi Bürosunun üzvü idi. Heydər Əliyev şəxsən baş katib Mixail Qorbaçovun yürütdüyü siyasi xəttin yanlış olduğunu, ortaya atılan avantüraların keçmiş ittifaqda bir araya gəlmiş xalqları və dövlətləri necə böyük faciələrə doğru apardığını görürdü. Özünəməxsus qətiyyətlə buna etirazını bildirməkdən də çəkinmirdi. Bu isə Ümummilli Liderin hakimiyyətdəki bədxahlarında qəzəb yaradır, ona qarşı məkrli planlar qurulurdu.

İstefadan sonra Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları fəallaşdı, Qarabağ problemi kəskinləşdi, sonrakı illərdə isə xalqımız bir sıra faciələrlə üzləşdi. 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə çıxış etməsi və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələblərinin irəli sürülməsi bölgədə gərginliyi daha da artırdı. Sovet rəhbərliyinin hadisələrə ikili standartlarla yanaşması vəziyyəti daha da mürəkkəbləşdirirdi. Nəticədə yüz minlərlə azərbaycanlı öz doğma yurdlarından deportasiya olundu, milli qarşıdurma dərinləşdi.

1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıya yeridilməsi Azərbaycan xalqının azadlıq mübarizəsində ən faciəli səhifələrdən biri oldu. Həmin gecə yüzlərlə günahsız insan qətlə yetirildi və yaralandı. Bu hadisə sovet hakimiyyətinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi ən ağır cinayətlərdən biri kimi tarixə düşdü. Sonrakı illərdə Qarabağ müharibəsi daha da genişləndi. Azərbaycan torpaqlarının işğalı davam etdi, minlərlə insan şəhid oldu, yüz minlərlə vətəndaş qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. 1992-ci ilin fevralında baş vermiş Xocalı soyqırımı isə xalqımızın yaddaşına ən ağır faciələrdən biri kimi həkk olundu. 1991-1993-cü illərdə ölkə daxilində siyasi qeyri-sabitlik, hakimiyyət böhranı, iqtisadi tənəzzül və idarəetmədə yaranmış problemlər Azərbaycanı ciddi təhlükələrlə üz-üzə qoyurdu. Dövlət müstəqilliyinin itirilməsi və vətəndaş müharibəsi təhlükəsi getdikcə artırdı. Ölkədə müxtəlif silahlı dəstələr fəaliyyət göstərir, mərkəzi hakimiyyətin təsir imkanları zəifləyirdi. Cəbhədə uğursuzluqlar davam edir, rayonlar bir-birinin ardınca işğal olunurdu. İqtisadiyyat iflic vəziyyətinə düşmüş, sənaye istehsalı kəskin azalmış, əhalinin sosial vəziyyəti ağırlaşmışdı. Hüquq-mühafizə orqanlarının fəaliyyəti zəiflədiyindən cinayətkarlıq artır, qanunçuluq prinsipləri pozulurdu.

1993-cü ilin iyun hadisələri isə ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxarmışdı. Ayrı-ayrı bölgələrdə separatçı meyillər baş qaldırır, dövlətin parçalanması təhlükəsi yaranırdı. Azərbaycan müstəqilliyini itirmək və siyasi xəritədən silinmək kimi ciddi təhlükə ilə üz-üzə qalmışdı. Belə bir şəraitdə xalq çıxış yolunu böyük dövlətçilik təcrübəsinə malik Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışında görürdü.

### Zamanın çağırışı

O zaman ölkə rəhbərliyində olan qətiyyətsiz simalar yaranmış böhranı idarə edə bilmirdilər. Proseslər təhlükəli miqyas alırdı. Daha sonra küçə-meydan eyforiyası ilə hakimiyyəti ələ keçirmiş AXC-Müsavat iqtidarının səriştəsizliyi isə daha acınacaqlı vəziyyətə gətirib çıxardı. Hakimiyyətə naşı adamların rəhbərlik etməsi, ölkədəki qanunsuz silahlı dəstələrin başıpozuq əməlləri, xarici siyasətdəki kobud yanlışlar, sosial-iqtisadi şəraiti getdikcə ağırlaşdıran düşünülməmiş qərarlar Azərbaycanı böyük fəlakətlərə sürükləyirdi. Digər tərəfdən hakimiyyət daxilindəki qruplaşmalar müharibə şəraitində yaşayan ölkənin ən böyük faciələrindən birinə çevrilmişdi. Cəbhə bölgəsindəki rayonlarımız bu qruplaşmaların, onların xalqa xəyanətlərinin qurbanı oldu. Şuşa, Laçın kimi strateji rayonlarımız hakimiyyət davasının nəticəsi kimi düşmənə təhvil verildi. Bəzi qüvvələrin xəyanəti nəticəsində 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşdü. Keçmişin hadisə və proseslərinin diqqətlə təhlili sübut edir ki, əgər o illərdə Heydər Əliyev ali hakimiyyətdə təmsil olunsaydı, Azərbaycanı təsadüfi kəslər deyil, güclü Lider idarə etsəydi, erməni millətçiləri heç zaman öz çirkin əməllərinə əl atmağa cəsarət etməyəcəkdilər.

Belə bir çətin şəraitdə Azərbaycan ziyalıları, elm və mədəniyyət xadimləri, ictimai-siyasi fiqurlar ölkəni düşdüyü böhrandan çıxarmaq üçün təşəbbüslə çıxış etdilər. 1992-ci il oktyabrın 16-da 91 nəfər tanınmış ziyalı tərəfindən Heydər Əliyevə ünvanlanan müraciət tarixə "91-lərin müraciəti" kimi düşdü. Bu müraciət təkcə siyasi çağırış deyil, həm də xalqın taleyinə biganə qalmayan ziyalıların ölkənin gələcəyi üçün məsuliyyət hissinin ifadəsi idi.

Müraciətdə açıq şəkildə qeyd olunurdu ki, Azərbaycan ağır müharibə şəraitində, daxili siyasi parçalanma və idarəetmə böhranı ilə üz-üzə qalıb. Ölkənin bu vəziyyətdən çıxması üçün xalq arasında böyük nüfuza malik, zəngin dövlətçilik təcrübəsi olan bir liderə ehtiyac var idi. Bu səbəbdən ziyalılar o dövrdə Naxçıvanda yaşayan görkəmli dövlət xadimi Heydər Əliyevə müraciət edərək onu ölkənin siyasi həyatına qayıtmağa və yeni siyasi təşkilatın yaradılmasına rəhbərlik etməyə çağırdılar.

Müraciət Azərbaycanda ictimai-siyasi proseslərə ciddi təsir göstərdi. Xalq arasında geniş dəstək qazanan bu təşəbbüs yeni siyasi qüvvənin formalaşmasına zəmin yaratdı və 21 noyabr 1992-ci ildə Yeni Azərbaycan Partiyası təsis olundu. Partiyanın yaradılması Azərbaycanın siyasi həyatında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir və dövlətçilik tarixində mühüm hadisə hesab olunur. Heydər Əliyev partiyanın sədri seçildi və bu təşkilat qısa müddətdə ölkənin aparıcı siyasi qüvvəsinə çevrildi.

"91-lər" hərəkatı həm də Azərbaycan cəmiyyətində milli birlik ideyasının güclənməsinə xidmət etdi. Bu təşəbbüs ölkənin parçalanma təhlükəsi ilə üz-üzə qaldığı bir vaxtda ziyalıların məsuliyyətli mövqeyini nümayiş etdirdi. Onların çağırışı yalnız bir şəxsin siyasi həyata dəvəti deyildi, həm də dövlətçiliyin qorunması və milli maraqların müdafiəsi üçün birləşmək zərurətinin ifadəsi idi.

### Böyük qayıdış

Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya qayıdaraq 6 gün sonra - iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi, bununla da vətəninin xilasına nail oldu. Böyük rəhbər həyatını təhlükə altında qoyub vətəndaş müharibəsinin qarşısını aldı. Gəncədə baş vermiş qiyamı yatırdı. Şimalda "Sadval" hərəkatının qarşısı qətiyyətlə alındı. Ölkənin cənub bölgəsində "elan" edilmiş qondarma "Talış-Muğan Respublikası" ilə bağlı ciddi tədbirlər görüldü. Bir sözlə, ölkə xaos, anarxiya məngənəsindən qurtuldu. Azərbaycan insanlarında gələcəyə böyük ümidlər yarandı. Dövlət müstəqilliyinə, demokratiyaya, azad bazar iqtisadiyyatına yaranmış inamsızlıq aradan qaldırıldı. Müstəqilliyini yenicə qazanmış Azərbaycan Heydər Əliyevin xilaskarlıq missiyası, müdrik qərarları sayəsində rəvan inkişaf yoluna çıxdı və gələcək uğurlarına doğru ilk böyük addımlarını atdı. Beləliklə, 15 İyun Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.

Heydər Əliyev o çətin, keşməkeşli dövrdə Azərbaycanı sözün əsl mənasında xilas etdi. "...Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcəkdir". 1993-cü il iyunun 15-də - Milli Qurtuluş Günündə Ulu Öndər Azərbaycan xalqının və beynəlxalq ictimaiyyətin qarşısında belə bəyan etmişdi. Böyük rəhbər Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etdi. Ölkədə nizam-intizam yaratdı, xaosa, qarşıdurmalara son qoydu. Vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı.

Ulu Öndər mükəmməl dövlətçilik təcrübəsi ilə yaxşı bilirdi ki, istənilən problemlərin yoluna qoyulması, mütərəqqi ideyaların həyata keçirilməsi üçün ilk növbədə sabitlik lazımdır. İnsanların həyat və sağlamlığının qorunması, onlarda gələcək barədə əminliyin yaradılması, cəmiyyəti təhdid edən təhlükələrin ortadan götürülməsi zəruridir. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinə rəhbərliyinin ilk aylarından cəmiyyətdə ictimai-siyasi sabitliyi təmin etməyə başladı. Siyasi mübarizənin küçələrdə, meydanlarda, hərbiləşdirilmiş qruplaşmalar arasında silah gücü ilə, insanların qanı, ailələrin faciəsi hesabına aparılması ənənəsinə son qoydu. Xalqın, dövlətin taleyi ilə bağlı qərarların cəmiyyətin öndə gedən insanlarının, seçilmiş nümayəndələrinin müzakirələrində, intellektin, biliyin, ağlın gücü ilə verilməsi ənənəsini formalaşdırdı.

Heydər Əliyev Azərbaycana yeni bir siyasi mədəniyyət gətirdi. Ulu Öndər insanlarımızda dövlətçilik şüuru, vətəndaşlıq məsuliyyəti formalaşdırdı, fərdlərin siyasi mövqeyi ilə dövlətçilik dəyərlərinə münasibəti arasındakı fərq barədə aydın təsəvvür yaratdı. Göstərdi ki, siyasi mövqeyindən, məsələlərə yanaşmalarından asılı olmayaraq dövlətçilik dəyərlərinə münasibətdə hər kəs bütün fikir ayrılıqlarını kənara qoyub zərbəni bir yerə vurmağı bacarmalı, xalqın milli mənafelərinə xidmət etməlidir.

Ulu Öndər cəmiyyətimizdə milli vəhdət yaratdı. İrəli sürdüyü azərbaycançılıq ideologiyası ilə milli mənsubiyyətindən, dilindən, dinindən, eləcə də hazırda dünyanın hansı məkanında yaşamasından asılı olmayaraq,



Azərbaycanı özünə vətən bilən, yurduna qəlbən bağlı olan hər bir azərbaycanlını vahid hüquqi kimlik işığında birləşdirdi.

### Xalqın və dövlətin gələcəyi naminə

Heydər Əliyev ilk növbədə Azərbaycanın iqtisadi müstəqilliyini təmin etdi. Çünki iqtisadi müstəqillik olmadan dövlətin siyasi müstəqilliyinə, öz taleyinə, öz sərvətlərinə, öz gələcəyinə sahib çıxması mümkün deyil. Həyata keçirilən demokratik islahatların, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin öz hədəflərinə çatması da ölkənin iqtisadiyyatından asılı idi. Ulu Öndər üçün Azərbaycanın iqtisadi müstəqilliyi, sadəcə, bəyanat deyildi, bu proses ardıcıl strategiya kimi addım-addım həyata keçirilir və çoxsaylı nailiyyətlər, vahid nəticələr yaradırdı.

Ölkənin iqtisadi inkişafına doğru həlledici addımların atılması, investisiyaların cəlbi, qlobal iqtisadi layihələrin həyata vəsiqə qazanması üçün müharibə vəziyyətinin olmaması zəruri idi. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, ölkəmizin hərbi münaqişəyə cəlb olunması buna maneə yaradırdı. 1994-cü ildə cəbhə bölgəsində atəşkəsin əldə edilməsi Azərbaycanın böyük bir dövr ərzində sülhə nail olmasına, bütün resursları ölkənin iqtisadi inkişafına, xarici tərəfdaşlıq əlaqələrinin genişlənməsinə, beynəlxalq mövqelərinin gücləndirilməsinə, demokratik islahatlara, eləcə də ordu quruculuğuna, insanların sosial müdafiəsinə yönəltməsinə imkan yaratdı. Həm də müharibədə insan itkilərinin qarşısı alındı.

Güclü ordu quruculuğu Ulu Öndərin ən ümdə məqsədlərindən biri idi. Heydər Əliyev Azərbaycanın gələcəyi üçün müəyyən hərbi potensialı zəruri sayır, eyni zamanda azərbaycanlı gənclərin hərbi biliklərə yiyələnərək bu elitada özlərinə layiqli yer tutmalarına xüsusi əhəmiyyət verirdi. Ona görə də hələ sovetlər ittifaqı dövründə Moskvanın milli hərbi kadrlara inamsızlıq siyasətinə rəğmən azərbaycanlıların hərbi sahəyə marağını təmin etməkdən ötrü əsaslı tədbirlər görürdü.

Ümummilli Liderin siyasi iradəsi sayəsində 1994-cü il sentyabrın 20-də dünyanın transmilli korporasiyaları ilə "Əsrin müqaviləsi" imzalandı. "Əsrin müqaviləsi"ndən sonra Böyük İpək yolu, "Bakı-Tbilisi-Ceyhan", "Bakı-Tbilisi-Ərzurum" və s. bu kimi layihələr reallaşdırıldı. Ulu Öndərin müəyyən etdiyi yeni neft strategiyası Azərbaycan iqtisadiyyatının inkişafı üçün həyat qaynağı rolunu oynadı. Ölkədə işsizlik, yoxsulluq səviyyəsi tədricən azalmağa başladı, sosial problemlər addım-addım həllini tapdı, əhalinin maddi rifah halı yaxşılaşdı, ən əsası insanların sabaha ümidləri artdı.

1995-ci ildə Ulu Öndərin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulundan sonra müxtəlif fəaliyyət sahələri üzrə qanunvericilik bazası formalaşdırıldı, mövcud normalar dövrün tələblərinə, zamanın çağırışlarına uyğunlaşdırıldı. Azərbaycan həmçinin diplomatik müstəvidə üstünlük qazanmağa başladı, Ermənistanın ölkəmizə qarşı işğalı ilə bağlı həqiqətlər dünya ictimaiyyətinə çatdırıldı, erməni diasporunun uzun illər ərzində ətrafımızda qurduğu informasiya blokadası yarıldı. Azərbaycan beynəlxalq təşkilatlar qarşısında demokratik islahatlarla bağlı üzərinə götürdüyü öhdəlikləri qısa müddətdə və əzmlə yerinə yetirərək beynəlxalq birliyin layiqli üzvü kimi mövqelərini möhkəmləndirdi.

Bütün varlığı ilə milli ruha bağlı olan Ümummilli Lider müstəqillik dövründə də xalqımızın milli-mənəvi dəyərlərinə, ana dilimizə, mədəniyyətimizə, ədəbiyyatımıza, elmimizə sahib çıxdı, ziyalılarımıza dəstəyi, diqqət və qayğısı ilə onların nüfuzunu daha da gücləndirdi. Təhsili xalqımız üçün böyük bir dəyərə çevirdi, belə bir həqiqəti hər kəsə anlatdı ki, gələcək inkişafın yeganə açarı təhsildə, müasir dünyamızın elm və biliklərinə yiyələnərək onları həyatda tətbiq etməkdədir.

Heydər Əliyev dövlətimiz qarşısında strateji hədəfləri müəyyənləşdirdi, bu hədəflərə doğru aydın yolu göstərdi və özünün ideyalarını, arzularını həyata keçirməyə qadir qüdrətli Lideri - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi cəmiyyətə təqdim edərək müstəqil dövlətimizin inkişaf yolunun əbədiliyini təmin etdi. Azərbaycan Prezidenti bu yola, bu ideyaya, bu prinsiplərə sadiqliklə müstəqil dövlətimizi tarixinin ən qüdrətli dövrünə, xalqımızı ən böyük qələbəyə - Qarabağın, Şərqi Zəngəzurun azadlığına yetirdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, şanlı ordumuzun gücü ilə 44 günlük Vətən müharibəsi zamanı torpaqlarımızı işğaldan azad edən, erməni vandallarının dağıdıb xaraba qoyduqları yurdlarımızda abadlıq mənzərələri yaradan Azərbaycan bu gün regiondakı yeni tarixi reallıqların əsas müəllifidir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçılarından biridir. Türk dünyasının bir araya gəldiyi əsas mərkəzlərdəndir. Şərqlə Qərbin qovuşduğu məkandır. Dünyamızın gələcəyi üçün çox mühüm qlobal təşəbbüslərə evsahibliyi edən, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə bütün dünyada mədəniyyət işığını yayan, multikulturalizm, sivilizasiyalar arasında dialoq təşəbbüslərini təbliğ edən ölkədir. Azərbaycan bu gün dünyada hər kəsin güvəndiyi və özü haqqında bu güvəni illərin sınaqları ilə qazanmış etibarlı tərəfdaşdır.

Bu gün müstəqil və qüdrətli Azərbaycan dövlətinin əldə etdiyi uğurların təməlində məhz 1993-cü ilin Milli Qurtuluş ideyaları dayanır. 15 İyun - Milli Qurtuluş Günü xalqımızın birlik, həmrəylik və dövlətçilik əzminin təntənəsi kimi tariximizdə əbədi yaşayacaq, gələcək nəsillərə müstəqilliyin və güclü dövlətin dəyərini xatırladan möhtəşəm bir tarix olaraq qalacaqdır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Dövlətçiliyimizin 15 İyundan başlayan yüksəliş yolu

**Keçmiş ittifaq süquta uğradıqdan sonra ölkəmizin tarixinin yeni mərhələyə qədəm qoyduğu 1991-ci ildən Azərbaycanın qarşısında dayanan ən zəruri və təxirəsalınmaz vəzifələrdən biri müstəqil dövlət quruculuğunun hüquqi, ideoloji və siyasi əsaslarının yaradılması olmuşdur. Təəssüf ki, həmin vaxt ölkəmizdə hökm sürən qeyri-sabitlik, xaqla rəhbərlik edənlərin təcrübəsizliyi, səriştəsizliyi, dövləti idarə etmək bacarığının olmaması dövrün tələblərinə cavab vermirdi.**

Ölkəmiz üçün belə çətin, mürəkkəb tarixi bir dövrdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev sarsılmaz, qətiyyətli siyasi iradəsi, zəngin dövlətçilik təcrübəsi ilə Azərbaycanın müstəqil dövlət kimi inkişafının bünövrəsini qoydu. Bəli, müasir müstəqil Azərbaycan dövlətçiliyinin tarixi ənənələrinin bərpası Ulu Öndər Heydər Əliyevin adı ilə sıx şəkildə bağlıdır. Keçilən şərəfli yol bir daha aydın şəkildə göstərir ki, Ümummilli Liderin dövlətçilik strategiyası özündə kompleks yanaşmanı əhatə edirdi. Strategiyanın ən ümdə, ən başlıca hədəfi Azərbaycanı güclü, suveren, demokratik və hüquqi dövlət kimi qurmaq, dünyaya tanıtmaq, beynəlxalq aləmdə nüfuz qazanmaq, xalqın rifahını və təhlükəsizliyini etibarlı şəkildə təmin etmək idi. Uzunmüddətli sabitliyə və milli birlik, həmrəylik ideyasına hesablanmış bu strategiya Azərbaycanın gələcək inkişafına, tərəqqisinə əlverişli şərait yaratdı, az vaxt ərzində dövləti, dövlətçiliyi daha da möhkəmləndirdi.

Ulu Öndərin dövlətçilik strategiyası tarixi reallıqlara əsaslanan, zaman-zaman sınaqlardan çıxmış təcrübəni və gələcək siyasi baxışları özündə əks etdirən hərtərəfli yanaşma idi. Ümummilli Lider müstəqil Azərbaycanı güclü, sarsılmaz dövlətə çevirmək üçün ilk addım olaraq siyasi sabitliyi bərpa etdi, ölkəni vətəndaş müharibəsi və parçalanma təhlükəsindən qurtardı.

1993-cü il iyunun əvvəllərində ölkədə fəaliyyət göstərən bəzi silahlı dəstələrin törətdikləri cinayətlər Azərbaycanın daxilində qardaş qırğını və vətəndaş müharibəsinə gətirib çıxarmışdı. Hakimiyyətdə olanların səriştəsizliyi ucbatından bəzi bölgələrdə separatçılıq və parçalanma meyilləri baş qaldırmışdı. Bütün bu hadisələr yenicə müstəqillik əldə etmiş Azərbaycanın bir dövlət kimi varlığına böyük təhlükə yaratmışdı. 1993-cü il iyunun 4-də Gəncədə Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi isə ölkəni tamamilə xaosa sürükləmişdi.

Vəziyyəti nəzarətdə saxlamaq, ölkənin müstəqilliyinə yaranmış təhlükəni aradan qaldırmaq üçün ovaxtkı hakimiyyətin atdığı tələsik, düşünülməmiş addımlar müsbət nəticə vermirdi. Gəncəyə yola düşən dövlət nümayəndələrinin bəziləri qiyamçılar tərəfindən girov götürülmüşdü. Vaxt keçdikcə vəziyyət nəzarətdən çıxır, ətraf rayonların icra başçıları zorla dəyişdirilir, qiyamın miqyası böyüyürdü. Bax, belə gərgin, çətin bir vaxtda müstəqil Azərbaycanı təhlükədən xilas etmək üçün başqa çıxış yolu qalmayan ozamankı ölkə rəhbərliyi Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevi Bakıya dəvət etdi. 1993-cü il iyunun 15-də Ulu Öndər Ali Sovetin Sədri seçildi. Beləliklə, həmin gün şanlı tariximizin səhifələrinə dönüş və qurtuluş anı kimi yazıldı.

Tarixi təcrübə bir daha göstərir ki, Ulu Öndər Heydər Əliyev üçün dövlətçilik yalnız idarəetmə sistemi deyildi. Bu həm də xalqın ulu yaddaşını, tarixi keçmişini, milli-mənəvi dəyərlərini özünə qaytarmaq və müstəqilliyinin təhlükəsizliyini etibarlı şəkildə qorumaqla inkişaf etdirmək demək idi. Ümummilli Lider qısa müddət ərzində azərbaycançılıq ideologiyasını dövlət siyasəti səviyyəsinə yüksəldərək cəmiyyətin bütün təbəqələrini vahid milli məfkurə ətrafında sıx birləşdirməyi bacardı. Bu amil həm milli həmrəyliyin, milli birliyin, həm də dövlətin uzunmüddətli təhlükəsizliyinin əsas təminatlarından birinə çevrildi.

Çox keçmədi ki, millət vəkilləri Ulu Öndər Heydər Əliyevin Ali Sovetin Sədri seçildiyi 15 iyun gününü təqvimə Azərbaycanın Qurtuluş Günü kimi salınması təklifi ilə çıxış etdilər. Verilən bu təklifi Milli Məclisin deputatları səs çoxluğu ilə dəstəklədi. Beləliklə, həmin vaxtdan ölkəmizdə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdığı gün Milli Qurtuluş Günü kimi qeyd olunur.

Gündən-günə güclənən, nüfuzu artan, regionda söz sahibinə çevrilən ölkəmizin vətəndaşları hər il 15 İyun - Milli Qurtuluş Gününü böyük iftixar və təntənə ilə qeyd edirlər. Bu gün hamımız dərin qürur hissi keçiririk. Ulu Öndər Heydər Əliyevin bünövrəsini qoyduğu Azərbaycan gündən-günə inkişaf edir, ölkədə içtimai-siyasi sabitlik hökm sürür.

Prezident İlham Əliyevin Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməsi və daha da zənginləşdirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda tanınan, sevilən, nüfuz qazanan dövlətinə çevrilib. Ümummilli Liderin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan bütün sahələrdə uğurlar qazanaraq dünyanın aparıcı dövlətləri sırasında mövqeyini daha da möhkəmlədib.

Həyatının mənasını ürəkdən sevdiyi millətinə və dövlətinə xidmətdə görən Ümummilli Lider Heydər Əliyev xalqımızın dünyaya bəxş etdiyi nadir şəxsiyyətlərdən biri kimi milyonların qəlbində əbədi olaraq yaşayır və yaşayacaq. Ulu Öndər həmişə xalqımızın tarixində və yaddaşında müqəddəs amallar uğrunda ən çətin maneələri, çətinlikləri qətiyyətlə dəf edən millət fədaisi kimi böyük hörmətlə, ehtiramla xatırlanır. Ulu Öndər Heydər Əliyev Azərbaycan tarixinə nadir şəxsiyyət, qətiyyətli iradə sahibi, fitri istedadlı dövlət xadimi kimi düşmüşdür. Bütöv bir millətin, dövlətin salnaməsini yazmış Ümummilli Lider tariximizin səhifəsində elə bu cür də qalacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*



Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!

Heydər ƏLİYEV

Azərbaycan xalqını Milli Qurtuluş Günü münasibətilə təbrik edir, yüksək tərəqqi və sevincli günlər arzulayırıq!

BakıAbadlıq

"Bakı Abadlıq Xidməti" MMC

# Ulu Öndərin arzuladığı Azərbaycan

**Azərbaycan ötən əsrin sonlarında öz tarixi müstəqilliyinə qovuşduqdan sonra hər il böyük coşqu və qürurla qeyd etdiyimiz milli bayramlardan biri də dövlətimizin və xalqımızın taleyinə qızıl hərflərlə yazılmış Milli Qurtuluş Günüdür - Azərbaycan xalqı üçün, sadəcə, təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gün.**

Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan Ümummilli Lider Heydər Əliyevdir. 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanı dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas etdi, respublikanın inkişafının sarsılmaz təməllərini qoydu.

Artıq 6 ildir ki, xalqımız bu günü qalib xalq kimi yüksək qələbə ovqatı ilə qeyd edir. Qurucusu Ümummilli Lider Heydər Əliyev olan şanlı Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində parlaq Qələbə qazanaraq dədə-baba torpaqlarımızı erməni işğalından azad etmiş, ölkəmizin ərazi bütövlüyü təmin olunmuşdur.

Ulu Öndərin ən böyük arzusu Azərbaycan ərazisini bütöv görmək idi. Ümummilli Lider Heydər Əliyevin məcburi köçkünlərlə görüşlərinin birində böyük inamla və özünə xas uzaqgörənliklə söylədiyi bu sözlər yada düşür: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İstisuyu - biz onlarsız yaşaya bilmərik".

Heydər Əliyevin bu müqəddəs arzuları artıq reallığa çevrilib. Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirib. Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Xankəndidə... bayrağımız əzəmətlə dalğalanır.

Ulu Öndərin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı milli dövlətçilik tariximizin qürur səhifəsidir. Bu tarixi gün eyni zamanda Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir. Odur ki, Ümummilli Lider Heydər Əliyevin adı tarixə müstəqilliyimizin xilaskarı və qurucusu kimi yazılıb.

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Ekspertlərin fikrincə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə siyasi hadisələrə qiymət vermək bacarığına malik olmayan şəxslərin ölkəyə rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən ovaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirirdi. Bir sözlə, Azərbaycan böyük təhlükə qarşısında idi.

Ölkəmizin müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində ölkəmizin zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələrin xalqın özü tərəfindən bir ildən sonra hakimiyyətdən uzaqlaşdırılmasına gətirib çıxardı.

Ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmağa qadir olan yeganə şəxsiyyət Heydər Əliyev idi. Xalqımız öz dahi oğlunu təkidlə hakimiyyətə dəvət etdi. 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Naxçıvandan Bakıya gəldi və bir neçə gündən sonra hakimiyyətin sükanı arxasına keçdi. Bu, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu.

Ötən illərin mənzərəsi deməyə əsas verir ki, dövləti idarəetmə təcrübəsinə malik Heydər Əliyev Azərbaycanı real təhlükələrdən xilas etməklə yanaşı, gələcək inkişaf strategiyasını müəyyənləşdirdi və bu istiqamətdə ilk mühüm addımlar atdı. Ulu Öndərin gərgin fəaliyyəti, səyləri nəticəsində ictimai-siyasi sabitlik bərqərar olundu, böyük təhlükə mənbəyi olan qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, sosial-iqtisadi dirçəlişə yol açan islahatlar başlandı.

İyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilən Heydər Əliyev deyirdi: "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən çıxmasına həsr olunacaqdır". Ümummilli Lider problemlərin həlli üçün ilk növbədə bütün səylərini ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin təmin olunmasına yönəltdi və buna nail oldu, gələcək inkişaf üçün möhkəm təməllər yaratdı. Bu istiqamətdə atılan ilk mühüm addım 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması oldu. Sonrakı dövrdə Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişinə başlanıldı. Prezident İlham Əliyevin hakimiyyəti dövründə bu transmilli layihələrə Asiyanı Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Azərbaycan qazını Avropaya çatdıran "Cənub qaz dəhlizi" əlavə edildi. 1995-ci ilin noyabrında isə demokratik, hüquqi dövlətin təməlini təşkil edən yeni Konstitusiya qəbul olundu.

Türkiyə və Azərbaycan arasında qardaşlıq münasibətlərini strateji müttəfiqlik səviyyəsinə yüksəldən Şuşa Bəyannaməsinin məhz Milli Qurtuluş Günündə imzalanması heç də təsadüfi deyil. Bu hadisə Azərbaycan xalqının Vətən müharibəsindən sonra yaranmış ruh yüksəkliyini daha da artırdı.

Bugünkü Azərbaycan Ulu Öndərin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş qüdrətli ölkədir.

Heydər Əliyev ideyaları Azərbaycanı qələbədən-qələbəyə aparmaqdadır. Ulu Öndərin ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilib. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində Azərbaycanın milli müstəqilliyinin qurucusu kimi qəbul edilir.

*Rəhman SALMANLI, "Azərbaycan"*

# Kənd təsərrüfatının inkişafında yeni mərhələ

## Məhsuldarlığın artırılması, səmərəliliyin yüksəldilməsi və idxaldan asılılığın azaldılması

**Azərbaycan iqtisadiyyatının neftdən kənar sahəsində strateji əhəmiyyətə malik olan kənd təsərrüfatı son illər dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi diqqət mərkəzində saxlanılır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd əhalisinin məşğulluğunun artırılması və ixrac potensialının genişləndirilməsindən dolayı aqrar sektorun rolu getdikcə artır.**

Bu kontekstdə Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafına həsr olunmuş son müşavirədə səsləndirdiyi fikirlər və müəyyənləşdirilən vəzifələr ölkədə aqrar siyasətin mövcud vəziyyətini, eləcə də gələcək inkişaf istiqamətlərini qiymətləndirmək baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısının çıxışında aqrar sahədə əldə olunmuş nəticələr, qarşıda duran problemlər, müasir texnologiyaların tətbiqi, su təminatı, subsidiya mexanizmlərinin təkmilləşdirilməsi və ərzaq təhlükəsizliyinin gücləndirilməsi kimi məsələlər ön planda yer alıb. Və bütün bunlar kənd təsərrüfatında bugünkü vəziyyətə, əldə edilmiş uğurlara və gələcək perspektivlərə yenidən nəzər salmağı zəruri edir.

Unutmaq olmaz ki, müşavirə həm dövlətin aqrar siyasətinin effektivliyini qiymətləndirmək, həm də regionlarda kənd təsərrüfatının potensialını daha səmərəli istifadə etmək məqsədini daşıyırdı. Prezident İlham Əliyev müşavirədə mövcud vəziyyətin təhlilinin vacibliyini və aqrar sahədə icra olunan proqramların əhəmiyyətini qeyd edərək bildirib: "Qəbul edilmiş proqramlar və qərarlar böyük dönüşə səbəb olub. Ancaq son bir neçə il ərzində kənd təsərrüfatının inkişafında müşahidə edilən durğunluq, əlbəttə ki, bizi düşündürür və bu məqsədlə dövlət proqramı hazırlanıb və qəbul ediləcək".

Dövlət başçısının bu sözlərində iki mühüm məqam diqqəti cəlb edir: bir tərəfdən, əvvəlki illərdə qəbul edilmiş qərar və proqramların kənd təsərrüfatında ciddi dəyişikliklərə səbəb olduğu vurğulanır. Digər tərəfdən isə əldə olunmuş nəticələrin kifayət hesab edilmədiyi, aqrar sahənin yeni inkişaf mərhələsinə keçməsi üçün əlavə tədbirlərə ehtiyac duyulduğu bildirilir. Bu yanaşma dövlətin kənd təsərrüfatına uzunmüddətli strateji baxışının göstəricisi kimi qiymətləndirilə bilər. Görünən odur ki, dövlət aqrar sahəni yalnız ötən illərin uğurlarını qorumaqla kifayətlənmir, üstəlik onu gələcək ehtiyaclara uyğun modernləşdirməyi və strukturlaşdırmağı hədəfləyir.

Azərbaycan dünyada o ölkələrdəndir ki, fermerlərə geniş və çoxşaxəli dəstək mexanizmləri təqdim edir. Əlbəttə, təkmilləşməyə ehtiyac var. Bununla belə dövlətin tətbiq etdiyi güzəştlər - gübrə və yanacaq, güzəştli kreditlər, metodik məsləhətlər - ölkədə aqrar inkişafın təməlini möhkəmləndirir. Bu dəstək tədbirləri konkret nəticələrdə də özünü göstərir. Məsələn, pambıqçılığı götürək. Ötən əsrin 70-80-ci illərində Azərbaycanda pambıq istehsalı yüksələn xətlə irəliləyirdi. Lakin sonrakı dövrlərdə bir sıra səbəblərə görə bu sahə zəifləmiş, məhsuldarlıq çox aşağı düşmüşdü: hektardan təqribən 1 ton, yəni 10 sentner. Ölkədə istehsal həcmi cəmi 20 min tona enmişdi. Dövlət tərəfindən görülən ardıcıl tədbirlər, aparılan islahatlar və subsidiyalar sayəsində vəziyyət dəyişdi. Bu gün pambıq istehsalı 360 min ton səviyyəsinə çatıb. Xüsusilə pambıqçılıq üzrə ixtisaslaşmış rayonlarda bu inkişaf kənd yerlərində yaşayan insanların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırıb, fermerlərin gəlirini artırıb.

Dövlət başçısının müşavirədə səsləndirdiyi digər fikirlərə söykənərək deyə bilərik ki, Azərbaycanda kənd təsərrüfatının inkişafı istiqamətində mühüm nəticələr əldə olunsa da, bir sıra sahələrdə hələ ciddi vəzifələr qalmaqdadır. İlham Əliyev aqrar sahədə ərzaq təhlükəsizliyinin gücləndirilməsini əsas prioritet kimi önə çəkərək, xüsusilə buğda və bəzi digər məhsullar üzrə özünütəminetmə səviyyəsinin artırılmasının vacibliyini vurğulayıb. Suvarma sistemlərinin genişləndirilməsi, torpaq ehtiyatlarından səmərəli istifadə, müasir texnologiyaların tətbiqi və aqrar infrastrukturun (soyuducu anbarlar, texnika parkı, emal müəssisələri və s.) inkişafı kimi istiqamətlər xüsusi qeyd olunub. Məqsəd, təbii ki, kənd təsərrüfatında məhsuldarlığın artırılması, idxaldan asılılığın azaldılması və ixrac potensialının genişləndirilməsidir.

Bütün bu istiqamətlər və prioritetlər kənd təsərrüfatının növbəti mərhələyə keçidini təmin edəcək "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın əhəmiyyətini bir daha ortaya qoyur. Bu gün proqramın icrası ilə bağlı silsilə müşavirələr keçirilir. Onlardan biri Dağlıq Şirvan iqtisadi rayonu üzrə təşkil olunmuş regional müşavirədir. Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov proqramın əsas məqsəd və prioritetlərini diqqətə çatdıraraq, bildirib ki, bu sənədə aqrar sektorun növbəti mərhələdə inkişaf istiqamətlərini müəyyən edən strateji yol xəritəsi demək olar. Onun sözlərinə görə, proqram kənd təsərrüfatı ilə yanaşı, balıqçılıq və akvakultura sahələrinin də inkişafını əhatə edir və istehsal ilə emal zəncirinin gücləndirilməsinə xidmət göstərir.

Eyni mövzu ətrafında çıxış edən Prezidentin köməkçisi, Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev də Ağdaşda keçirilən müşavirədə qeyd edib ki, müasir çağırışlara cavab verən, ixracyönümlü və yüksək məhsuldarlığa əsaslanan yeni dövlət proqramı aqrar sahədə keyfiyyətcə yeni mərhələyə keçidi təmin edəcək strateji sənəddir. Belə yanaşma kənd təsərrüfatında dayanıqlı inkişafı gücləndirir, məhsuldarlığı və əlavə dəyəri artırır, emal və ixrac imkanlarının genişləndirilməsinə yol açır.

Bütün bu deyilənlər onu göstərir ki, aqrar sahənin inkişafı mövcud problemlərin həllini, eləcə də uzunmüddətli və dayanıqlı inkişaf modelinin formalaşdırılmasını tələb edir. Bu baxımdan, 2026-2030-cu illəri əhatə edəcək yeni dövlət proqramı kənd təsərrüfatında məhsuldarlığın artırılması, idxaldan asılılığın azaldılması və ixrac imkanlarının genişləndirilməsi kimi əsas istiqamətlər üzrə həlledici rol oynayacaq.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# ŞUŞA BƏYANNAMƏSİ - əbədi qardaşlıq rəmzi 2021 2026



# Müttəfiqliyin Şuşa Zirvəsi

## 15 iyun 2021-ci ildə Qarabağda imzalanan bu sənəd Azərbaycan-Türkiyə əlaqələrində yeni səhifə açdı

**Şuşa Azərbaycan xalqının milli mənliyinin, əyilməz ruhunun, tarixi ədalətinin uca zirvəsidir. Təqvimlər 15 iyun 2021-ci ili göstərəndə bu müqəddəs ucalıqda dünyanın hərbi-siyasi tarixinə daha bir silinməz səhifə yazıldı. Həmin gün Qarabağın baş tacında ucalan üçrəngli bayrağımızın fonunda Şuşa Bəyannaməsinin imzalanması ilə Bakı və Ankaranın çoxəsrlik qardaşlıq bağları rəsmən beynəlxalq hüququn ən uca nöqtəsinə - strateji müttəfiqlik zirvəsinə qaldırıldı.**

Bu tarixi hadisənin Azərbaycan xalqının Qurtuluş Gününə təsadüf etməsi isə sözün həqiqi mənasında tarixin qanunauyğun ssenarisi idi. 1993-cü ilin o böhranlı iyun günlərində Ulu Öndər Heydər Əliyevin xalqın istəyi ilə hakimiyyətə qayıdışı dövlətimizi xaosdan necə xilas etdisə, düz 28 il sonra onun vəsiyyəti olan "Bir millət, iki dövlət" fəlsəfəsi də Şuşada imzalanan Bəyannamə ilə gələcək nəsillərin sarsılmaz təhlükəsizlik zəmanətinə çevrildi.

### Gələcəyin yol xəritəsi

Vətən müharibəsinin üzərindən 7 ay keçdikdən sonra - 2021-ci ilin iyununda Prezident İlham Əliyevin qardaş ölkənin lideri Rəcəb Tayyib Ərdoğanı Qarabağda qarşılaması və burada imzalanan Şuşa Bəyannaməsi gələcəyə doğru atılan ən böyük addım oldu.

İmza mərasimindən sonra dövlət başçılarının mətbuata verdiyi bəyanatlar bu bəyannamənin həm də gələcək nəsillərin təhlükəsizlik sənədi olduğunu sübut etdi. Prezident İlham Əliyev bəyannamənin adındakı "müttəfiqlik" kəlməsinin çəkisinə diqqət yönəldərək qeyd etdi: "...Bu gün imzalanmış Birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özü-özlüyündə hər şeyi göstərir, hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır".

Dövlətimizin rəhbəri vurğuladı ki, bu gün Türkiyə və Azərbaycan bir-birinə dünya çapında ən yaxın olan ölkələrdir: "Bizi birləşdirən bir çox amillər var, ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qarabağda imzalanan bu sənədin timsalında atılan mühüm addımı yeni dövrün başlanğıcı kimi qiymətləndirdi: "Bu gün, əziz qardaşımın da dediyi kimi, xüsusilə "Bir millət, iki dövlət" təməli üzərində yüksəltdiyimiz əlaqələrimizi daha da inkişaf etdirəcək yeni bir tarixi addımı atdıq...

...Türkiyə ilə Azərbaycan arasındakı bu bəyannamə bir sıra məsələləri əhatə edir. Gələcəklə bağlı addımları atarkən, artıq təkcə iki ölkəni deyil, bölgəni əhatə edən bir qətiyyətin bu sənəddə ifadə olunduğunu görürük".

### Regionda yeni təhlükəsizlik arxitekturası

Tarixi bağlara malik Azərbaycan-Türkiyə qardaşlığı 44 günlük Vətən müharibəsində daha da möhkəmləndi. Savaşın ilk saatlarından etibarən bəzi beynəlxalq siyasi dairələrin Azərbaycana yönələn təzyiq cəhdləri, Ankaradan gələn qətiyyətli və ard-arda bəyanatlarla iflasa uğradı. Dünyaya açıq mesaj verildi ki, Azərbaycan tək deyil.

2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilən Zəfər paradında iki liderin - dövlətimizin başçısı İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın çiyin-çiyinə dayanması bu birliyin daha bir mesajı idi. Azərbaycan və Türkiyə prezidentlərinin işğaldan azad edilmiş torpaqlarda inşa edilən Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanlarının açılışlarında lentləri birgə kəsmələri bu həmrəyliyin sarsılmaz gələcəyə açılan qapıları oldu.

Azərbaycanla Türkiyənin münasibətlərini unikal edən əsas cəhət onun yalnız ortaq siyasi maraqlara deyil, həm də səmimi, sarsılmaz xalq sevgisinə əsaslanmasıdır. Bu ittifaq təkcə qələbə sevinclərini paylaşmır, həm də acını bölüşməyi bacarır.

6 fevral 2023-cü ildə qardaş ölkədə baş verən dəhşətli zəlzələ zamanı Azərbaycan dövlətinin və xalqının göstərdiyi fədakarlıq bunun ən bariz nümunəsidir. Prezident İlham Əliyevin təxirəsalınmaz tapşırıqları ilə fəlakət bölgəsinə ilk yetişən, dağıntılar altından can qurtaran məhz Azərbaycanın xilasediciləri oldular. O çətin günlərdə hər bir azərbaycanlının zəlzələdən əziyyət çəkənlərə öz maddi dəstəyini göstərmək üçün növbəyə durması həm də "bir millət" olmağın qan yaddaşı idi.

15 iyun 2021-ci ildə iki qardaş ölkənin liderləri tərəfindən Qarabağda Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan və Türkiyə münasibətlərində yeni səhifə açdı.

Bəyannamənin ən mühüm məqamlarından biri 1921-ci il oktyabrın 13-də imzalanmış tarixi Qars müqaviləsinə edilən istinaddır. Düz bir əsr sonra iki qardaş dövlətin yenidən eyni hüquqi-siyasi prinsiplərə sadiqliyini bəyan etməsi, regionda sabitliyin və sərhədlərin toxunulmazlığının ən böyük qarantıdır. Şuşa Bəyannaməsi Qars müqaviləsinin tarixi ruhunu yeni geosiyasi tələblərə uyğunlaşdıraraq gələcəyə daşıdı.

Tarixi bəyannamənin hüquqi müddəaları regionda tamamilə yeni təhlükəsizlik arxitekturası yaratdı. Sənədin ən mühüm bəndi təhdidlərə qarşı ortaq mövqedir: tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur.

Bəyannamədə Silahlı Qüvvələrimizin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi də öz əksini tapıb. Sənəddə müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin Silahlı Qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığın təmin edilməsi vurğulanır. Buraya həmçinin hər iki ölkənin təhlükəsizlik şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin aparılması daxildir.

Şuşa Bəyannaməsi həm də qlobal inteqrasiya və iqtisadi inkişaf sənədidir. Burada xüsusi yer ayrılmış Zəngəzur dəhlizi (TRIPP) təkcə Azərbaycanın əsas hissəsini onun ayrılmaz parçası olan Naxçıvanla və Türkiyə ilə birləşdirməyəcək, həm də Asiyadan Avropaya qədər uzanan böyük bir coğrafiyada nəqliyyat arteriyasının operativliyini təmin edəcək.

### Türk dünyasının həmrəyliyi

Şuşa Bəyannaməsinin regional sərhədləri aşaraq bütövlükdə türk dünyasının qlobal arenada güclənməsinə xidmət etməsi də gerçəklikdir. Belə ki, bəyannamədə tərəflərin BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində bir-birinə şərtsiz dəstək verəcəyi xüsusi qeyd olunub.

Şuşa Bəyannaməsinin açdığı bu yol, sonrakı illərdə bəhrəsini verməkdə davam etdi. 2024-cü il iyulun 6-da Türk Dövlətləri Təşkilatının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşü və orada imzalanan Qarabağ Bəyannaməsi məhz Şuşa Bəyannaməsinin doğurduğu qlobal nüfuzun və türk dövlətlərinin sarsılmaz həmrəyliyinin məntiqi davamı idi.

15 iyun 2021-ci ildə zəfər qalamız Şuşada imzalanan tarixi sənəd, bu gün Cənubi Qafqazda daimi sülhün, tərəqqinin və regional əməkdaşlığın ən mühüm rəsmi təminatıdır. Azərbaycan-Türkiyə birliyi hər gün daha da dərinləşir və bu sarsılmaz müttəfiqlik tarixin yaddaşına bölgəyə yeni nəfəs, yeni sülh dövrü gətirən mühüm salnamə kimi yazılır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Türkiyə müttəfiqliyinin yeni dövrü

**2021-ci il iyunun 15-də Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşa şəhərində imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" iki qardaş dövlət arasında münasibətlərin tarixində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanan bu sənəd təkcə iki ölkə arasındakı əlaqələrin hüquqi və siyasi bazasını gücləndirmədi, həm də regionun gələcək geosiyasi mənzərəsini müəyyən edən mühüm strateji sənəd kimi tarixə düşdü.**

Şuşa Bəyannaməsinin imzalanması təsadüfi məkan və zaman seçimi deyildi. Azərbaycan xalqının tarixi yaddaşında xüsusi yer tutan Şuşa şəhərində imzalanan sənəd 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərin siyasi nəticələrinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyırdı. Bəyannamə Azərbaycan-Türkiyə münasibətlərini faktiki olaraq strateji tərəfdaşlıq səviyyəsindən müttəfiqlik səviyyəsinə yüksəltdi.

Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, sənədin ideoloji təməlində türk dünyasının böyük liderləri Mustafa Kamal Atatürk və Heydər Əliyevin siyasi irsi dayanır. Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", Ümummilli Lider Heydər Əliyevin isə "Bir millət, iki dövlət" kəlamları Şuşa Bəyannaməsinin mahiyyətini və fəlsəfəsini özündə əks etdirir. Bu baxımdan sənəd yalnız siyasi razılaşma deyil, həm də ortaq tarixə, mədəniyyətə və milli-mənəvi dəyərlərə əsaslanan strateji yol xəritəsidir.

### Qardaşlıqdan müttəfiqliyə uzanan yol

Azərbaycan və Türkiyə münasibətləri uzun illər ərzində yüksək səviyyədə inkişaf etsə də, Şuşa Bəyannaməsi bu əlaqələri keyfiyyətcə yeni mərhələyə çıxardı. Sənəd iki ölkə arasında sarsılmaz müttəfiqlik münasibətlərinin hüquqi əsaslarını müəyyənləşdirdi və əməkdaşlığın bütün istiqamətlərini əhatə etdi. Bəyannamədə siyasi dialoq, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək, iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya layihələri, müdafiə sənayesi, təhsil, mədəniyyət, humanitar əlaqələr və digər strateji sahələr üzrə konkret hədəflər müəyyənləşdirilib. Bu baxımdan Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərini yalnız ikitərəfli çərçivədə deyil, həm də regional və qlobal səviyyədə yeni mərhələyə daşıyan sənəd kimi çıxış edir.

Şuşa Bəyannaməsinin əsas strateji xüsusiyyətlərindən biri onun regionda inteqrasiya proseslərinə verdiyi töhfədir. Sənəd Cənubi Qafqazda uzunmüddətli sülhün və əməkdaşlığın təmin olunmasına yönəlmiş yeni yanaşmanın formalaşdırılmasına xidmət edir. Azərbaycanın Vətən müharibəsində qazandığı qələbədən sonra yaranmış yeni geosiyasi reallıqlar fonunda bəyannamə bölgədə əməkdaşlıq imkanlarının genişlənməsinə, iqtisadi əlaqələrin inkişafına və nəqliyyat-kommunikasiya xətlərinin açılmasına mühüm dəstək verir. Bu kontekstdə sənəddə xüsusi yer tutan layihələrdən biri Zəngəzur dəhlizidir (TRIPP).

Dəhliz yalnız Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasını birləşdirmir, eyni zamanda Türkiyə ilə Azərbaycan arasında birbaşa quru bağlantını təmin etməklə, Orta dəhlizin imkanlarını genişləndirir. Avropa ilə Asiyanı birləşdirən mühüm logistika marşrutu kimi nəzərdə tutulan bu layihə beynəlxalq ticarət dövriyyəsinin artmasına, regional iqtisadi inteqrasiyanın dərinləşməsinə və türk dünyasının nəqliyyat əlaqələrinin güclənməsinə xidmət edir. Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsinin həyata keçirilməsi də məhz bu strateji baxışın tərkib hissəsidir. Gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolu ilə inteqrasiya olunacaq bu xətt regionun nəqliyyat potensialını daha da artıracaq.

### İqtisadi əməkdaşlıq və investisiya imkanları

Şuşa Bəyannaməsi iqtisadi sahədə də yeni perspektivlər açıb. Sənəddə qarşılıqlı investisiyaların təşviqi, ticarət əlaqələrinin genişləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi və yeni biznes imkanlarının yaradılması mühüm istiqamətlər kimi müəyyən edilib. Bu gün Azərbaycan və Türkiyə qarşılıqlı investisiyalar üzrə əsas tərəfdaşlar sırasında yer alır. Qarşılıqlı sərmayə qoyuluşları strateji sektorların inkişafına, yeni iş yerlərinin yaradılmasına və iqtisadi inteqrasiyanın dərinləşməsinə şərait yaradır. Eyni zamanda işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma layihələrində Türkiyə şirkətlərinin fəal iştirakı iki ölkə arasında iqtisadi əməkdaşlığın praktik nəticələrindən biridir. Qarabağ və Şərqi Zəngəzurda aparılan tikinti, infrastruktur, enerji və nəqliyyat layihələri bölgənin iqtisadi potensialının reallaşdırılmasına xidmət edir. Şuşanın və ətraf ərazilərin turizm imkanlarının inkişafı da yeni investisiya istiqamətləri yaradır və regionun beynəlxalq turizm xəritəsində mövqeyinin möhkəmlənməsinə şərait yaradır.

### Müdafiə və təhlükəsizlik sahəsində tarixi əməkdaşlıq

Şuşa Bəyannaməsinin ən mühüm istiqamətlərindən biri müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsidir. Sənədin bu hissəsi iki dövlət arasında hərbi müttəfiqliyin əsaslarını formalaşdırır. Bəyannaməyə əsasən, tərəflərdən birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və ya beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşı təhdid və ya təcavüz olduğu halda birgə məsləhətləşmələr aparılacaq və qarşılıqlı dəstək mexanizmləri işə salınacaqdır. Müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi, müasir silah sistemlərinin istehsalı, pilotsuz uçuş aparatları texnologiyalarının inkişafı, hərbi təlimlərin keçirilməsi və Silahlı Qüvvələrin birgə fəaliyyət qabiliyyətinin artırılması da sənədin prioritet istiqamətləri sırasında yer alır. Bu baxımdan Şuşa Bəyannaməsi yalnız iki ölkənin təhlükəsizlik maraqlarını deyil, bütövlükdə regionda sabitliyin qorunmasını təmin edən mühüm faktor kimi çıxış edir.

### Xarici siyasətdə koordinasiya və beynəlxalq nüfuz

Bəyannamədə xarici siyasət sahəsində koordinasiya məsələləri də xüsusi yer tutur. Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin davam etdirilməsini, regional və qlobal problemlərin həllində birgə fəaliyyət göstərilməsini vacib hesab edirlər. Azərbaycan və Türkiyənin milli maraqlara əsaslanan müstəqil xarici siyasət kursu beynəlxalq münasibətlər sistemində onların təsir imkanlarını daha da artırır. Müxtəlif beynəlxalq platformalarda nümayiş etdirilən həmrəylik iki ölkənin söz və nüfuz sahibi kimi mövqelərini möhkəmləndirir.

Şuşa Bəyannaməsinin mühüm istiqamətlərindən biri də diaspor və media sahəsində əməkdaşlıqdır. Xaricdə yaşayan Azərbaycan və türk icmaları arasında əlaqələrin genişləndirilməsi, informasiya mübadiləsinin artırılması, ortaq media platformalarının formalaşdırılması və diplomatik fəaliyyətlərin əlaqələndirilməsi beynəlxalq informasiya məkanında daha effektiv fəaliyyət üçün mühüm əhəmiyyət daşıyır.

### Revanşist qüvvələrə açıq mesaj

Şuşa Bəyannaməsinin siyasi və geosiyasi əhəmiyyəti onun verdiyi strateji mesajlarda da özünü göstərir. Sənəd Ermənistanda revanşist meyillərin gücləndiyi dövrlərdə bölgədə yeni reallıqların dəyişməz olduğunu nümayiş etdirən mühüm siyasi ismarışdır. Bəyannamə açıq şəkildə göstərir ki, Azərbaycan və Türkiyə bölgədə sülhün, təhlükəsizliyin və sabitliyin təmin olunması naminə birgə fəaliyyət göstərmək əzmindədirlər. Bu, eyni zamanda Azərbaycanın ərazi bütövlüyünə yönələn istənilən təhdidə qarşı qəti mövqeyin ifadəsi kimi qiymətləndirilir.

### Tarixi Qars müqaviləsindən Şuşa Bəyannaməsinə

Prezident İlham Əliyevin vurğuladığı kimi, Şuşa Bəyannaməsində 1921-ci ildə imzalanmış Qars müqaviləsinə istinad edilməsi xüsusi rəmzi məna daşıyır. Tarixi Qars müqaviləsindən düz yüz il sonra azad Şuşada müttəfiqlik haqqında sənədin imzalanması keçmişlə gələcək arasında strateji körpü yaradır. Bu baxımdan Şuşa Bəyannaməsi yalnız bu günün deyil, gələcək onilliklərin də siyasi və iqtisadi inkişaf istiqamətlərini müəyyən edən mühüm sənəd kimi çıxış edir.

Şuşa Bəyannaməsinin imzalanmasından sonra hər il iyunun 15-də Şuşada keçirilən beynəlxalq konfranslar sənədin ideoloji və siyasi irsinin yaşadılmasına xidmət edir. 2022-ci ildə "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir", 2023-cü ildə "Qurtuluşdan Zəfərə", 2024-cü ildə "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru", 2025-ci ildə isə "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" mövzusunda keçirilən beynəlxalq konfranslar Şuşa Bəyannaməsinin yaratdığı siyasi platformanın genişlənməkdə olduğunu göstərir.

Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərinin zirvə nöqtələrindən biri olmaqla yanaşı, bütövlükdə türk dünyasının birliyini, regional əməkdaşlığı və strateji tərəfdaşlığı gücləndirən tarixi sənəddir. Bu sənəd iki qardaş dövlət arasında münasibətləri ən yüksək səviyyəyə qaldıraraq siyasi, iqtisadi, hərbi və humanitar sahələrdə uzunmüddətli əməkdaşlığın əsaslarını müəyyənləşdirib. Bütövlükdə, Şuşa Bəyannaməsi regionun gələcək inkişaf trayektoriyasını müəyyən edən əsas siyasi sənədlərdən biridir.

*Sevil MİKAYILOVA,*
*Milli Məclisin deputatı*

Coca-Cola

Azərbaycan xalqını
15 İYUN -
MİLLİ QURTULUŞ GÜNÜ
münasibətilə
təbrik edir

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Azərbaycan xalqını
Milli Qurtuluş Günü
münasibətilə
təbrik edir!

# Azərbaycan regionda iqtisadi inteqrasiyanın və təhlükəsizliyin əsas təminatçısıdır

**Müdrik dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev 2003-cü ildə keçirilən prezident seçkilərindən öncə xalqa müraciətində demişdi: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev güclü lider kimi məqsədlərini aydın izah etmək və nəticələrə diqqət yetirmək bacarığına malikdir. Onda özünəinamlıqla dürüstlük, vicdanlılıq, ədalətlilik, humanizm, sülhpərvərlik vəhdət təşkil edir, insanları diqqətlə dinləyir, onların qayğısına qalır, mərhəmətli və ədalətli bir şəxsiyyət olaraq fikrini açıq ifadə edə bilir, ətrafda vaxtında, tez, ciddi qərarlar qəbul edir, lakin reallıq dəyişərsə, kursu dəyişdirə bilir, balanslı siyasət yürüdür.

İlham Əliyev peşəkar keyfiyyətləri ilə seçilən bir liderdir. O, xarakterinin gücü, iradəsi, qətiyyəti və intuisiyası, dövlətçiliyə sadiqliyi, analitik bacarıqları ilə Azərbaycanın ərazi bütövlüyünü təmin etdi.

Ümummilli Lider Heydər Əliyev uzaqgörənlik və müdrikliklə çox şeyə nail oldu, Azərbaycanın hərtərəfli inkişafı üçün möhkəm təməl yaratdı və siyasi və iqtisadi müstəqilliyini gücləndirdi. Bu yolu uğurla davam etdirən Prezident İlham Əliyev iqtisadi gücün ölkənin ərazi bütövlüyünün bərpası üçün ən vacib olduğunu bəyan etdi. Düzgün strategiya və düşünülmüş, məqsədyönlü siyasət nəticəsində Azərbaycan güc toplamağa başladı və iqtisadi müstəqilliyə nail oldu. Ölkənin iqtisadi tərəqqisi ordunun inkişafında da özünü göstərdi. Azərbaycan Ordusunun arsenalına ən müasir silah və hərbi texnika əlavə edildi, hərbi qulluqçuların bilik və bacarıqları artırıldı, onların sosial müdafiəsinin və iş şəraitinin yaxşılaşdırılması üçün mühüm addımlar atıldı.

44 günlük Vətən müharibəsi zamanı Prezident, Ali Baş Komandan İlham Əliyev müntəzəm olaraq xalqa müraciətlər edirdi. Bu müraciətlər Azərbaycan xalqını yumruq kimi birləşdirdi və müharibənin gedişatına və nəticələrinə güclü təsir göstərdi. Hər bir müraciət gələcək qələbələrin carçısına çevrildi. 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi zamanı xalqa ilk müraciətində Azərbaycan Prezidenti bütün cəmiyyəti qəti qələbəyə doğru bir araya gətirdi: "Biz doğru yoldayıq. Bizim işimiz haqq işidir. Qələbə bizim olacaq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

8 noyabr 2020-ci il Azərbaycan tarixinə qızıl hərflərlə Qələbə Günü kimi yazıldı. Xalqa müraciət edən Prezident İlham Əliyev Şuşanın işğaldan azad edildiyini elan etdi.

10 noyabr 2020-ci ildə Ermənistanın təslim olunması aktı - "Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikasının Baş nazirinin və Rusiya Federasiyası Prezidentinin Bəyanatı imzalandı.

Vətən müharibəsi Azərbaycan xalqının Qarabağ həsrətinə son qoydu. İşğaldan azad edilmiş ərazilərdə ən müasir standartlara uyğun bərpa və yenidənqurma işləri başladı və Qarabağa yeni həyat qayıtdı. Məhz Vətən müharibəsi nəticəsində Azərbaycanla Ermənistan arasında sərhəd xəttinin bərpası başladı. Zəngəzur dəhlizi (TRIPP) isə tarixi reallığa çevrilməkdədir.

15 iyun 2021-ci ildə Şuşada imzalanmış Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsində də Zəngəzur dəhlizinin (TRIPP) açılışının regionun həyatında yeni bir mərhələ olacağı əks olunmuşdu.

Prezident İlham Əliyev Şuşa Bəyannaməsinin tarixi əhəmiyyətini aydın şəkildə ifadə etmişdir: "Birgə Müttəfiqlik Bəyannaməsi gələcək əməkdaşlığımızın yolunu göstərir".

7 iyul 2021-ci ildə imzalanan daha bir tarixi sənəd Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölünməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı Vətən müharibəsinin əsas nəticələrindən biri oldu. Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılması haqqında fərmanla tarixi ədalət bərpa olundu.

Artıq Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilir. Bu gün işğaldan azad edilmiş bütün ərazilər böyük quruculuq və bərpa dövrünü yaşayır, Böyük qayıdış reallaşır.

Azərbaycan Prezidenti İlham Əliyev bu gün bütün dünyanı müharibələrin bürüdüyü bir dövrdə sülhpərvər lider kimi çıxış edir. Onun bu sülhpərvərliyi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də dəyərləndirilir.

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"nın qaliblərinin adlarını açıqladı. Mükafata layiq görülənlər arasında Azərbaycan Prezidenti İlham Əliyev də oldu.

Bu mükafat 2019-cu ildən etibarən təqdim olunur. Mükafat 4 fevral 2019-cu il tarixində Əbu-Dabidə Əl-Əzhərin Böyük İmamı professor Əhməd Əl-Tayyib və Müqəddəs Papa Fransisk arasında keçirilən tarixi görüşü qeyd etmək üçün təsis edilib. Görüş zamanı onlar İnsan Qardaşlığı Sənədini imzalayıblar. Dünyada barışığa və sülhə çağıran bu bəyannamənin tarixi əhəmiyyəti nəzərə alınmaqla, iki dini lider 2019-cu ildə bu mükafatın fəxri laureatları seçiliblər.

Qlobal olaraq qəbul edilən bu nüfuzlu mükafat bəşəriyyətdə sülhə və əməkdaşlığa töhfə verən, insanların həyatının daha da yaxşılaşdırılmasına təsir göstərən şəxslərə verilir. Mükafata layiq görülənlər arasında BMT-nin Baş katibi Antonio Quterreş, Roma Papası Fransisk kimi tanınmış simalar var.

Azərbaycan Prezidentinin bu nüfuzlu mükafata layiq görülməsi onun bir sıra qlobal təşəbbüslərin müəllifi olması və regionda sülh və əməkdaşlığın formalaşmasına töhfəsi ilə bağlıdır. Belə ki, 2025-ci il avqustun 8-də Vaşinqtonda imzalanan anlaşma regionda sülh və sabitlik üçün yeni mərhələnin əsasını qoydu. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regionda yeni düzənin formalaşmasına birbaşa təsir göstərəcək geosiyasi mövqeyini daha da gücləndirib. Regionda dayanıqlı sülhün əldə edilməsi, yeni əməkdaşlıq formatının yaradılması, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu gücləndirən qətiyyətli mövqe Prezident İlham Əliyevin liderlik bacarığının, uzaqgörən diplomatik səriştəsinin nəticəsidir. Donald Trampın Prezident İlham Əliyevi böyük lider adlandıraraq ona Ağ Evin rəmzi açarını təqdim etməsi də dövlət başçımıza olan hörmətin və böyük etimadın nümunəsidir. İndi əksər ölkələr Azərbaycanla daha dərinləşmiş əməkdaşlıqlar qurmaqla Prezident İlham Əliyevin müəllifi olduğu regional layihələrdə bilavasitə iştirak etməyə çalışırlar. Bu isə Azərbaycan Prezidentinin şəxsi nüfuzunun və liderlik bacarığının bir daha təsdiqidir.

Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimatındakı çıxışı müharibə və etimadsızlıqdan əziyyət çəkən bütün xalqlar üçün yol xəritəsi xarakteri daşıyırdı: "Hesab edirəm ki, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür".

2026-cı il aprelin 26-da Prezident İlham Əliyev "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görüldü.

"Gernika şəhərinin tarixindən irəli gələn sülh və barışıq mesajı bütün xalqlar üçün mühüm əhəmiyyət kəsb edir. Müharibələrin acı nəticələrini yaşamış xalqların xatirəsi və təcrübəsi gələcək nəsillərin daha sabit və təhlükəsiz dünyada yaşaması üçün mühüm dərs olmalıdır". Bu fikirlər Prezident İlham Əliyev "Sülh və Barışıq üçün Gernika mükafatı"nın təqdimolunma mərasiminin iştirakçılarına müraciətində yer alıb.

Dövlətimizin başçısı həmçinin qeyd edib: "30 ilə yaxın müddət ərzində münaqişə şəraitində yaşamış, müharibənin ağır fəsadları ilə üzləşmiş Azərbaycan xalqı da sülhün və barışığın dəyərini çox yaxşı anlayır. Azərbaycan bu gün sülh şəraitində yaşamağın nə olduğunu öyrənir. Bu, bizim üçün yeni və qeyri-adi bir hissdir. Çünki müstəqilliyimizi bərpa edəndən bəri biz bu hissi yaşamamışdıq".

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən siyasət bu gün Cənubi Qafqazı münaqişə ocağından sabitlik və əməkdaşlıq mərkəzinə çevirib. Beynəlxalq birliyin bu tarixi nailiyyətlərə verdiyi ali dəyər isə özünü nüfuzlu mükafatlarla büruzə verir. Prezident İlham Əliyevə təqdim olunan "Sülh və Barışıq üçün Gernika mükafatı" Azərbaycanın sülh gündəliyinin qlobal miqyasda qəbul olunmasının daha bir rəsmi təsdiqi kimi tarixə yazıldı. Vətən müharibəsi və antiterror tədbirləri sayəsində Azərbaycan ədaləti və barışı öz gücünə təmin etməklə dünya üçün örnək nümunə ortaya qoydu. Bununla sübut etdi ki, bütün çətinliklərə rəğmən nümayiş etdirilən qətiyyətli siyasi iradə sülhü bərqərar etmək iqtidarındadır. Bu gün Azərbaycan Ermənistanla münasibətlərdə faktiki əməkdaşlıq mühiti formalaşdırıb. Ötən il Ağ Evdə sülh sazişi mətninin paraflanmasından sonra iki ölkə arasında normallaşma istiqamətində mühüm addımlar atılıb. Neft məhsullarının və digər zəruri malların Azərbaycan ərazisindən Ermənistana ixrac edilməsi sülhün kağız üzərində deyil, insanların gündəlik həyatında hiss olunan real faydasıdır.

"Sülh və Barışıq üçün Gernika mükafatı"nın təqdimolunma mərasiminin iştirakçılarına ünvanladığı müraciətində ölkəmizin rəhbəri qeyd edib ki, ötən il Vaşinqton şəhərində Azərbaycan və Ermənistan arasında sülh sazişi mətninin paraflanması, eyni zamanda Birgə Bəyannamənin imzalanması ilə üç onillik ərzində davam edən münaqişə tamamilə sona çatmış, xalqlarımız üçün sülhün, barışığın, qarşılıqlı tərəfdaşlıq dövrünün əsası qoyulmuşdur: "Azərbaycanın və Ermənistanın nümunəsi göstərir ki, uzunmüddətli münaqişəyə, iztirablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, güclü siyasi iradə və beynəlxalq dəstək mövcud olduqda sülh əldə etmək mümkündür".

Azərbaycanın sülhə gedən yolu heç də asan olmayıb. Ötən onilliklər ərzində ölkəmiz münaqişənin danışıqlar yolu ilə həlli üçün xeyli səy göstərib. Qarşı tərəfin qeyri-konstruktivlik nümayiş etdirməsi nəticəsində uzun onilliklər boyu bölgə münaqişə, müharibə zonası kimi qalıb. Yalnız Azərbaycanın hərbi yolla Qarabağ məsələsini birdəfəlik yoluna qoyması ilə region, nəhayət, rahat nəfəs almağa başlayıb. ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə 2025-ci il avqustun 8-də Vaşinqtonda baş tutan tarixi Zirvə görüşü və ondan bir ay əvvəl Əbu-Dabidə əldə olunan razılaşmalar sülh sazişinin paraflanması ilə nəticələndi. Bununla Cənubi Qafqazda qanlı münaqişəyə son qoyuldu.

Bakının irəli sürdüyü və siyasi iradə ilə humanitar dəyərlərin harmoniyasına dayanan sülh gündəliyi hazırda bəşəriyyətin üzləşdiyi münaqişələrin həlli üçün universal model rolunu oynayır. Azərbaycanın yaratdığı bu uğurlu model sülhün yalnız arzu deyil, həm də real və əlçatan hədəf olduğunu nümayiş etdirir.

Bu gün Azərbaycanın ucaltdığı "Sülh qalası"nın dünyanın hər yerindən aydın görünməsi də bu baxımdan təsadüfi deyil. Azərbaycan Prezidentinə verilən "Sülh və Barışıq üçün Gernika mükafatı" bir daha sübut edir ki, İlham Əliyev təkcə qalib lider deyil, həm də humanizmin, sülhün və birgəyaşayışın ən böyük müdafiəçisidir.

*Qarabağa həyatın qaytarılması, sadəcə, repatriasiya deyil; bu, bölgənin qeyri-sabitlik ocağından əməkdaşlıq məkanına çevrilməsidir. Azərbaycanın dinc tikinti layihəsi dövlət strategiyasının tarixi faciəni davamlı gələcəyin təməlinə necə çevirə biləcəyinə dair bir nümunə yaradır. Bundan əlavə, Bakının quruculuq anlayışı sərhədlərlə məhdudlaşmır: iqtisadi inteqrasiyanın təhlükəsizliyin əsas təminatına çevrildiyi regional əməkdaşlıq üçün yeni bir arxitektura nəzərdə tutur.*

***Könül ƏLİYEVA,***
***Azərbaycan Memarlıq və İnşaat Universitetinin kafedra müdiri***




# 2026-cı il Dünya Kuboku haqqında nəyi bilməliyik

**Mexikoda start götürən 2026-cı il Dünya Kuboku 11 iyun - 19 iyul tarixlərində ABŞ, Meksika və Kanadada keçirilir. İlk dəfə olaraq turnirə 3 ölkə evsahibliyi edir.**



Turnir 16 şəhərdə keçirilir. Bunlardan 11-i ABŞ-də (Atlanta, Boston, Dallas, Hyuston, Kanzas Siti, Los-Anceles, Mayami, Nyu York, Filadelfiya, San-Fransisko və Sietl), 3-ü Meksikada (Mexiko Siti, Qvadalaxara və Monterrey), 2-si Kanadadadır (Vankuver və Toronto). ABŞ dörddəbir final mərhələsindən etibarən bütün matçlar da daxil olmaqla 104 oyundan 78-nə, Meksika və Kanada hər biri 13 matça evsahibliyi edəcək.

Bu Dünya Kuboku, ehtimal ki, iki əfsanəvi futbolçu - Lionel Messi və Kriştiano Ronaldo üçün sonuncu olacaq. Bu "ulduzlar" indiyədək nüxtəlif yarışlarda çoxsaylı mükafatlar qazanıblar və onların dünyanın hər yerində çoxsaylı azarkeşləri var.

Xəbər verildiyi kimi, Bakı vaxtı ilə iyunun 12-nə keçən gecə 00:45-də başa çatmış, 85 min azarkeşin izlədiyi Meksika ilə Cənubi Afrika Respublikası arasında açılış oyunu Mexikodan məşhur "Atsteka" stadionunda keçirilib və meydan sahiblərinin qələbəsi ilə bitib - 2:0. Görüş A qrupunda oynanılıb. Mundialın ilk qolunu 9-cu dəqiqədə Xulian Kinyones vurub. 67-ci dəqiqədə isə Raul Ximenes fərqlənib. Görüşün braziliyalı FIFA referisi Vilton Sampayo 3 futbolçunu - CAR millisinin üzvləri Sfifelo Sitxole və Tembe Zvane, habelə meksikalı Sesar Montesi meydandan çıxarıb. Beləliklə, dünya çempionatlarının açılış oyunlarında göstərilən qırmızı vərəqələrin sayı üzrə yeni rekord müəyyənləşib. Əvvəlki rekord 1990-cı ildə Argentina və Kamerun komandaları arasında açılış matçında qeydə alınmışdı.

Meksika açılış matçı Təhsil üzrə Milli Koordinasiya Şurasının (CNTE) minlərlə insanın əməkhaqqının 100 faiz artırılmasını tələb edən etirazı fonunda keçirilib. Müəllimlər Dünya Kubokunun açılış mərasimini pozmaqla hədələmiş və turniri boykot etməyə çağırmışlar. Meksika Prezidenti Klaudiya Şeynbaum isə tədbirin "yaxşı, sülh və əmin-amanlıq şəraitində" keçəcəyini bildirmişdir.

Dünya Kuboku iştirakçısı ümumilikdə təxminən 12,5 milyon dollar qazana bilər. Müqayisə üçün bildirək ki, 2022-ci il Dünya Kubokunda qrup mərhələsini keçə bilməyən hər bir komanda 9 milyon dollar qazanmışdır. Builki turnirin qalibinə isə rekord həddə - 53,5 milyon dollar veriləcək.

Meksika Dünya Kubokuna ən çox evsahibliyi etmək rekorduna malikdir. Bu, onların üçüncü mundialıdır (1970, 1986, 2026). İtaliya (1934, 1990), Fransa (1938, 1998), Almaniya (1974, 2006) və Braziliya (1950, 2014) turnirə iki dəfə evsahibliyi ediblər. Bu, 1994-cü ildə turnirə evsahibliyi etmiş ABŞ üçün də ikinci Dünya Kubokudur.

Braziliya Dünya Kubokunda beş dəfə (1958, 1962, 1970, 1994 və 2002) qalib gələrək ən çox qələbə qazanan ölkədir. Ardınca Almaniya və İtaliya (hər biri dörd titul), Argentina (üç), Fransa və Uruqvay (hər biri iki) gəlir.

Braziliya bütün Dünya Kuboklarının final turnirlərində iştirak edən yeganə komandadır. Bu, beşqat çempionlar üçün 23-cü turnir olacaq. Onlardan sonra Almaniya (21) və Argentina (19) gəlir.



2026-cı il Dünya Kuboku dörd milli komanda üçün debütdür: Özbəkistan, İordaniya, Kabo-Verde və Kyurasao.

Turnir tarixində ev sahibləri indiyədək keçirilən 22 Dünya Kubokundan yalnız 6-da qalib gəliblər. Evdə Dünya Kubokunu qazanan ilk komanda Uruqvaydır. Bu ölkənin millisi 1930-cu ildə Montevideoda keçirilən turnirin ilk dəfə qalibi olub. İtaliya bu uğuru 4 il sonra (1934) təkrarlayıb, İngiltərə də 1966-cı ildə ev meydanında titul qazanıb. Daha sonra Qərbi Almaniya (1974), Argentina (1978) və Fransa (1998) ev meydanında Dünya Kubokuna sahib olublar. Fransa turnirin ev sahiblərinin çempionluq qazandığı sonuncu ölkədir. 21-ci əsrin əvvəllərindən bəri heç bir ev sahibi olan ölkə Dünya Kubokunu qazana bilməyib.

Argentina sonuncu dünya çempionudur. 2022-ci il Dünya Kubokunun finalında Lionel Skaloninin komandası Fransanı penaltilər seriyasında məğlub edib. Argentina 1986-cı ildən bəri ilk dəfə Dünya Kubokunu qazanaraq 3-cü titulunu təmin edib. Bu görüş həm də Fransanın ardıcıl ikinci finalı idi.

Builki yarışlarda İspaniya aşkar favoritdir. 10 min turnir simulyasiyasını işlədən statistik şirkət Opta-nın superkompüterinə görə, hazırkı Avropa çempionlarının qalib gəlmək şansı 15,59 faiz təşkil edir. Bukmekerlər isə İspaniyanın çempionluğu qazanmaq üçün 4,5-4,8 əmsal təklif edirlər. Digər komandaların şansları daha aşağı, lakin əmsalları daha yüksəkdir. Məsələn, Fransa favoritlər siyahısında ikinci, İngiltərə üçüncüdür. Argentina və Portuqaliya da ilk beşlikdədir.

I qrup turnirin ən çətin dördlüklərindən biridir. Fransa, Seneqal, Norveç və İraqdan ibarət dördlük "ölüm qrupu" kimi də təqdim olunur. Dünya Kubokuna iddialılar arasında olan Fransa qrupun favoriti hesab edilir. Ən yaxşı hücumçulardan olan Erlinq Haalandın yer aldığı Norveç də pley-off mərhələsinə vəsiqə qazanmaq üçün ciddi iddiaçı hesab olunur. Seneqal ənənəvi olaraq Afrikanın ən güclü komandalarından biri olaraq qalır.

Fransalı Kilian Mbappe ilə norveçli Haaland arasında qrup mərhələsində baş tutan qarşılaşma azarkeşlərin xüsusi diqqətini cəlb edir.

Norveçli Erlinq Haaland və İspaniyanın yarımmüdafiəçisi Lamin Yamal bütün Dünya Kuboku iştirakçıları arasında ən yüksək dəyərə malik oyunçulardır. Transfermarkt şirkəti hər birini 200 milyon avro dəyərində qiymətləndirir. İlk 5-liyə həmçinin fransız Kilian Mbappe (180 milyon avro), ispan Pedri (150 milyon avro) və fransız Maykl Olise (150 milyon avro) daxildirlər. Transfermarkt həmçinin braziliyalı Vinisius Junior (140 milyon avro), portuqaliyalı Vitinya və Joao Neves (hər biri 140 milyon avro), İngiltərəli Jud Bellingem (130 milyon avro) və Deklan Rays (120 milyon avro) və Fransalı Dezire Due (120 milyon avro) kimi oyunçuların da reytinqini açıqlayıb.

Builki Dünya Kubokunda ən çox qazanan məşqçi isə italyan Karlo Ançelottidir. Braziliya millisinin baş məşqçisi ildə 9,5 milyon avro qazanır. Sonrakılar Tomas Tuxel (İngiltərə, 5,85 milyon avro) və Maurisio Poçettino (ABŞ, 5,25 milyon avro), Julian Nagelsmann (Almaniya, 4,85 milyon avro) və Fabio Kannavarodur (Özbəkistan, 4 milyon avro).

Dünya Kubokunun 48 komandaya qədər genişləndirilməsinə baxmayaraq, bir neçə tanınmış futbolçu finala vəsiqə qazana bilmədiyi üçün turnirdə iştirak etmirlər. Ən diqqətəlayiq itkilərdən biri polşalı hücumçu Robert Levandovskidir. İtaliya ardıcıl üçüncü turnirə vəsiqə qazana bilmədiyi üçün yenidən Dünya Kubokundan kənarda qalıb. Nəticədə qapıçı Canluici Donnarumma, yarımmüdafiəçi Sandro Tonali, müdafiəçi Alessandro Bastoni və bir neçə digər əsas oyunçu turniri buraxmalı olublar. 2026-cı il Dünya Kubokunu buraxacaq digər tanınmış oyunçular arasında gürcüstanlı Xviça Kvaratsxeliya, Macarıstanın kapitanı Dominik Şoboslai, nigeriyalı hücumçu Viktor Osimhen və Sloveniyanın qapıçısı Yan Oblak da var. Onların da komandaları mundiala vəsiqə qazana bilməyiblər.

Dünya Kubokunda ən çox qol rekordu qırıla bilər. Xatırladaq ki, 2022-ci il mundialında 172 qol vurulub ki, bu da indiyədək turnir tarixində ən yüksək göstəricidir.

Lionel Messi və Kriştiano Ronaldo tarixdə 6 dəfə Dünya Kubokunda oynayan ilk futbolçulardır. Xatırladaq ki, sonuncu rekord 5 oyundur və bu, Messi ilə Ronaldo da daxil olmaqla 6 oyunçuya məxsusdur.

18 yaşlı Lamin Yamal Dünya Kubokunun ən yaxşı oyunçusu mükafatının ən gənc qalibi ola bilər. Sonuncu rekord 1986-cı il Dünya Kubokunda 25 yaşında Qızıl topu qazanan Diyeqo Maradonaya məxsusdur.

2026-cı il Dünya Kubokunun üç rəsmi maskotu var:

Meypl - qırmızı rəngdə kanadalı sığın (qapıçı, yaradıcılıq və dözümlülük simvolu);

Zayu - yaşıl rəngdə meksikalı yaquar (hücumçu, güc və mədəni qürur simvolu);

Klatç - mavi rəngdə amerikalı keçəl qartal (müdafiəçi, cəsarət və liderlik simvolu).

49 yaşlı kolumbiyalı müğənni Şakira nigeriyalı musiqiçi Burna Boy ilə birlikdə, 2026-cı il Dünya Kubokunun "Dai Dai" adlı rəsmi himnini yayımlayıblar. Bununla da Şakira Dünya Kubokunun himnini ikinci dəfə ifa edib. O, əvvəllər Cənubi Afrika Respublikasında keçirilən 2010-cu il turniri üçün "Waka Waka" mahnısını oxumuşdu. Müğənni həmçinin Almaniyada keçirilən 2006-cı il FIFA Dünya Kubokunun bağlanış mərasimində "Hips Don't Lie", sonra Rio-de-Janeyroda keçirilən 2014-cü il FIFA Dünya Kubokunun bağlanış mərasimində "La La La" mahnılarını ifa etmişdi.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



# Bilmək istəyirəm

***- Bəzən elə hallar olur ki, küçədə kimsə kimisə təhqir edir, söz atır və ya hədələyir. Belə vəziyyətdə "cavab qaytarmaq" yox, qanuni şəkildə necə davranmaq lazımdır?***

***Orxan MƏMMƏDLİ,***
***Novxanı qəsəbəsi***

- Sualınıza cavab olaraq bildiririk ki, küçədə bu cür hallarla qarşılaşmaq həm psixoloji, həm də təhlükəsizlik baxımından kifayət qədər gərgin bir vəziyyətdir. Hüquqi nöqteyi-nəzərdən yanaşsaq, emosiyalara qapılıb "cavab qaytarmaq" (eyni üsulla təhqir etmək və ya fiziki güc tətbiq etmək) sizi zərərçəkmiş tərəfdən qanun qarşısında günahkar (təqsirləndirilən şəxs və s.) tərəfə çevirə bilər. Odur ki, belə bir vəziyyətdə bacardığınız qədər səbir və təmkin nümayiş etdirməlisiniz.

Bununla yanaşı, qarşılaşdığınız xoşagəlməz vəziyyətlə bağlı özünüzü qorumaq üçün həm hadisə anında, həm də hadisədən dərhal sonra müvafiq zəruri və hüquqi addımlar atmağınız məsləhət görülür.

Unutmayın, ilk öncə siz təhlükəsizliyinizi düşünməlisiniz. Buna görə də münaqişədən uzaqlaşaraq insanların daha çox olduğu, işıqlı və ya kameraların (məsələn, mağaza və s.) olduğu bir yerə tərəf hərəkət edin. Bu həm qarşı tərəfdə müəyyən bir çəkinmə, həm də gələcəkdə sizə zəruri sayılacaq sübutların yaranmasına zəmin yarada bilər. Sübutlarla bağlı məsələyə gəlincə, siz telefonunuz vasitəsilə hadisənin səs yazısını yaza və ya videosunu qeydə ala bilərsiniz. Bu hal qarşı tərəfi qorxudub dayandıra da bilər.

Hadisə ilə bağlı, əgər təxirəsalınmaz zərurət yaranarsa (məsələn, əgər şəxs sizi təqib etməyə, hədələməyə və ya açıq şəkildə təhqir etməyə davam edərsə və s.) dərhal Daxili İşlər Nazirliyinin "102" Zəng Mərkəzi ilə əlaqə saxlayın. Zəng zamanı müvafiq məlumatları bacardığınız qədər dəqiq və ətraflı formada operatora bildirin (məsələn, "filan ünvanda tanımadığım bir şəxs mənə qarşı nalayiq ifadələr işlədir və ya hədə-qorxu gəlir, yaxud təhlükəsizliyimə qəsd var" və s.).

Əgər hadisə zamanı "102" Zəng Mərkəzi ilə əlaqə saxlamamısınızsa, o zaman hadisədən sonra həm zəng edə, həm də müvafiq ərazi üzrə polis qurumuna müraciət edə bilərsiniz.

Məlumat üçün bildiririk ki, sizə qarşı edilən hərəkətin dərəcəsindən asılı olaraq müəyyən inzibati xəta və ya cinayət hüquqi məsuliyyət yaradır. Belə ki, hərəkət İnzibati Xətalar Məcəlləsinin 510-cu (Xırda xuliqanlıq) maddəsi ilə nəzərdə tutulan inzibati xəta hadisəsi və ya Cinayət Məcəlləsinin 134-cü (Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə) yaxud 148-ci (Təhqir) maddəsi ilə müəyyən edilən cinayət hadisəsi sayıla bilər.

İnzibati Xətalar Məcəlləsinin 510.1-ci maddəsinə görə, xırda xuliqanlıq, yəni ictimai qaydanı pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, lakin fiziki şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət edilməyən hərəkətlərə görə - əlli manatdan yüz manatadək məbləğdə cərimə edilir, işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda, on beş günədək müddətə inzibati həbs tətbiq olunur.

Cinayət Məcəlləsinin 134-cü maddəsinə əsasən, öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə, hədənin icra ediləcəyi üçün real əsaslar olduqda-min manatdan iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Həmçinin Cinayət Məcəlləsinin 148-ci maddəsinin tələbinə görə, təhqir, yəni kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, mediada və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma -min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Konkret ifadə etsək, qanuni davranışın əsas prinsipi qarşıdurmanı böyütməmək, təhlükəsizliyi təmin etmək və hüquqi yolla müdafiə mexanizmlərindən istifadə etməkdir.

**Sualları cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Bakıda hava əsasən yağmursuz keçəcək, bəzi rayonlarda yağış yağacaq

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Mülayim şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 18-21, gündüz 26-31 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 757 millimetr civə sütunu, nisbi rütubət 50-60 faiz təşkil edəcək. Azərbaycanın rayonlarının bəzi yerlərində fasilələrlə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi, əsasən dağlıq və dağətəyi rayonlarda yağıntıların bir qədər intensivləşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək.



Havanın temperaturunun gecə 18-22, gündüz 30-35, dağlarda gecə 10-15, gündüz 18-23, bəzi yerlərdə 25-30 dərəcə isti olacağı ehtimal edilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Əzizli, Bəhmən Mirzəyev, Nərminə Əsgərova, Arzu Kərimova qrup yoldaşları Səbuhi Orucova əzizi
**NƏRMİNƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Aparatın əməkdaşı Aynur Həmidovaya əzizi
**TOFİQ ŞAHBAZOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri Palatanın üzvü, sərbəst auditor Üzeyir Fətiyevə qardaşı
**ÜLVİ FƏTİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**
Tiraj 3794
Sifariş 725
Qiyməti 60 qəpik